Xalqın qəzeti!

# Xalq qəzeti

№ 170 (30286) 12 avqust 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi bunu göstərdi. Onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər.**

# Bakı–Tbilisi–Qars: Şərqlə Qərb arasında "Dəmir İpək yolu"



Azərbaycanda rəqabətli, şaxələndirilmiş, inklüziv və dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüsünün tərkib hissəsi kimi hazırlanan "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə – ölkənin tranzit imkanlarının artırılmasına hədəflənən mühüm sənəddə logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycanın 2025-ci ilədək və bundan sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri öz ifadəsini tapıb.

Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun açılışı münasibətilə keçirilən təntənəli mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev logistika-nəqliyyat təşəbbüslərindən danışaraq bildirib ki, artıq reallaşan layihə Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevriləcək.

(ardı 7-ci səhifədə)

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində digər sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da mühüm önəm daşıyan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi istiqamətində genişmiqyaslı layihələr reallaşdırılıb. Respublika daxilində həm müasir nəqliyyat infrastrukturu yaradılıb, həm də tranzit potensialı gücləndirilib. Bütün bunlar isə Azərbaycana daha da böyük həcmdə siyasi və iqtisadi dividendlər gətirib.**



# Roma imperiyası, erməni şovinizmi və kütləvi psixoz

## Görəsən, xəstə Ermənistan cəmiyyətini sağaltmaq mümkündürmü?



**Erməni şovinizmi. Bu mövzu hər zaman aktuallığını qoruyub saxlamaqdadır. Əlbəttə, söhbət "aktuallıq"dan gedir. O "aktuallıq"dan ki, əsrlərdir erməni qövmünü xalq olmağa qoymur, onun inkişafını ləngidir. 2018-ci il inqilabından sonra düşünmək olardı ki, bu mənfi tendensiya aradan qalxacaq. Axı, Nikol Paşinyanın hakimiyyətə gəlişi Qərb dəyərlərinin Ermənistanda möhkəmlənməsi kimi böyük dəyişikliklər vəd edirdi.**

Əslində, buna inanmaq üçün əsaslar da var idi. Paşinyan özünün seçkiqabağı təbliğat kampaniyası zamanı, kifayət qədər, mütərəqqi şüarlar və tezislər səsləndirirdi. Həmin şüar və tezislərin içərisində qonşularla normal münasibətlərin formalaşdırılması kimi müddəalar da yer alırdı. Mövcud xüsusda Qarabağ münaqişəsinə toxunan gələcək baş nazirin sözlərindən belə çıxırdı ki, bu münaqişə Ermənistanın və erməni xalqının inkişafını ləngidir və onu tezliklə həll etmək, keçmişdə olanları tarixə gömmək və gələcəyə baxmaq lazımdır.

(ardı 3-cü səhifədə)

# Sabahın təməli olan gənclər siyasəti

**Artıq 25 ildir ki, 12 avqust Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Xalqların, millətlərin xoşbəxt gələcəyə olan ümidləri, ilk növbədə, gənc nəsillə bağlı olduğu üçün bu topluma hərtərəfli qayğı və diqqət göstərilir.**



Ölkəmizdə Gənclər və İdman Nazirliyinin təşkili və səmərəli fəaliyyət göstərməsi, 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü elan edilməsi, müxtəlif fondların gənclərin uğurlarını stimullaşdırması sabahımızın sahibləri üçün münbit nailiyyət platforması yaradılması üçündür.

(ardı 10-cu səhifədə)

# Nigerə hərbi müdaxilə olacaqmı?



Səhifə ⇨ 11

# Rubl və lirənin ucuzlaşması ölkəmizə necə təsir edir?




Səhifə ⇨ 11



# Separatçılıq üçün hava məkanı?

## Hayların ictimai rəy qıcolmasında yeni "etüdlər"

**Erməni avantürist dairələri Birinci Qarabağ müharibəsi zamanı təchizat məqsədləri üçün hərbi helikopterlərdən istifadə edildiyini yada salıblar. Bu əsnada bir vaxtlar Qarabağdakı separatçı rejimdə "dövlət naziri" kimi oyuncaq post tutmuş, hazırda bölgədə ictimai hərəkat yaradaraq "fəaliyyət göstərən" Ruben Vardanyanın söylədiklərinə istinad olunur.**

Vardanyan söz vermişdi ki, ərazinin ərzaq təhlükəsizliyinin təminatı üçün "hava körpüsü"ndən istifadə edəcək. Əlbəttə, Rubenin verdiyi bütün sözlər kimi, bu səfsəfəsi də keçərsiz oldu. Amma Qarabağdakı separatçılıq çənbərinin hər ötən gün daha da daralmağa doğru getdiyi bir vaxtda, necə deyərlər, yapışmaq üçün saman çöpləri lazımdır. Buna görə qondarma blokadanın aradan qaldırılmasından danışılanda, hava məkanından istifadə məsələləri qaldırılır.

***

Məlum olduğu kimi, Azərbaycan Qarabağdakı Rusiya sülhməramlılarının ərzaq təchizatının da Ağdam-Xankəndi yolu vasitəsilə həyata keçirilməsini təklif edib. Erməni tərəfinin iddiasına görə, Rusiya sülhməramlılarının bu təklifdən xoşları gəlməyib. Ona görə özləri üçün zəruri olan məhsulları və digər yükləri hava yolu vasitəsilə daşıyırlar.

O da bildirilir ki, Azərbaycan vəziyyətə nəzarət edir və sülhməramlıların helikopterlərinə ataş açmır. Digər tərəfdən, erməni mediası yazır ki, rusların daşımalar üçün Azərbaycan ərazisindən də istifadə etdiklərinə dair təsdiqlənməmiş məlumatlar var, lakin hərbi kontingentin hər gün Qarabağa bir neçə helikopter göndərməsi barədə məlumatı heç kim təkzib etmir.

(ardı 3-cü səhifədə)

# Bakının güzəşt limiti tükənib



**Azərbaycanın bölgədə davamlı sülhün bərqərar olması istiqamətində atdığı əksər addımlar kimi, Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli vətəndaşları ölkənin sosial-iqtisadi və ictimai həyatına yenidən inteqrasiya etmək cəhdləri də Ermənistan və özünü "dqr" adlandıran xunta rejiminin başçıları tərəfindən kəskin etirazla qarşılanır.**

Onlar bütün resurslarını səfərbər edərək reinteqrasiyanın qarşısını almağa, prosesə hər vəchlə mane olmağa çalışırlar. Rəsmi Bakının suveren ərazisinə başqa ölkədən "humanitar yardım" gətirilməsinə icazə verməməsi isə hayları lap özlərindən çıxarıb. Əgər onlar ölkəmizin legitim addımlarını əvvəllər "blokada" kimi qiymətləndirirdilərsə, hazırda "soyqırımı" kimi ağır sözdən istifadə edirlər.

(ardı 4-cü səhifədə)

# Yalan... Hamısı yalan!



**Hayastanın baş naziri və ətrafını çoxqatlı yalan donuna bürüdüyü "həqiqətlərini" dünyaya üfürməkdən yorulmur. Həm də təkcə onun özü deyil, bütün komandası bu ideoloji cəbhədə, dezinformasiya məkanında əməlli-başlı fəallaşıb. Etiraf etməliyik ki, postmüharibə dönəmində ermənilərin Azərbaycanın üzərinə belə genişmiqyaslı "diplomatik yürüşünün" şahidi olmamışdıq.**

Yalan məlumatlarla, saxtalaşdırdıqları dosyelərlə, təhrif etdikləri reallıqla təkcə ermənipərəst siyasi dairələri və "müttəfiqlərini" deyil, həmçinin dünyanın nüfuzlu beynəlxalq təşkilatlarını, "hüquq müdafiəçilərini", "veteran-diplomatları", "məşhur eks-vəkilləri" səfərbər etməyə çalışan İrəvan və onun kənar dəstəkçiləri bununla nəyəsə nail ola biləcəklərini düşünürlər.

(ardı 4-cü səhifədə)

# Koronavirusun yeni ştammı – Eris gəlir...

Səhifə ⇨ 11

# Azərbaycan Ukraynaya humanitar yardımları davam etdirəcək

**"Müharibə dönəmində Azərbaycan Ukraynaya humanitar yardımlarını davam etdirir. Bu dəstəyə görə, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə təşəkkür edirəm". Bu sözləri Ukraynanın daxili işlər nazirinin müavini Boqdan Drapyatıy Azərbaycanın bu ölkədəki səfiri Seymur Mərdəliyevlə görüşündə söyləyib.**




Ukrayna DİN rəhbərinin müavini qeyd edib ki, onun ölkəsi Azərbaycanın bu yardımlarını yüksək qiymətləndirir: "Bu, münasibətlərimizin strateji xarakterinin daha bir göstəricisidir".

Azərbaycanın göstərdiyi humanitar yardımlar haqqında məlumat verən səfir S.Mərdəliyev, öz növbəsində qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna dövlətinə elektrik avadanlıqları üçün 7,6 milyon dollar ayrılması haqqında sərəncam imzalayıb. Azərbaycan Ukraynaya humanitar yardımı genişləndirməyə davam edəcək.

Tibbi və psixoloji reabilitasiya məqsədilə Azərbaycana ukraynalı uşaqların göndərildiyini vurğulayan S.Mərdəliyev göstərilən humanitar yardımların səmimi olduğunu, uşaqların sosial reabilitasiyası proqramlarının davam edəcəyini bildirib.

**"Xalq qəzeti"**

# "Ermənistan Pakistanın imicini ləkələməyə çalışır"

## *Haylar faciəli qəzanı da ələ salırlar*

**Pakistanın Azərbaycanla dostluq əlaqələri ölkəmizlə düşmənçiliyə son qoymaq istəməyən Ermənistanda daim xəbislik və qısqanclıqla qarşılanır. Ermənilərin Pakistanın cənub bölgəsində baş vermiş qatar qəzasını ələ salmaları və bu ölkəyə qarşı çirkin təbliğat aparmaları ilə bağlı Pakistanın "Parliament Times" qəzetində məqalə dərc olunub.**



Jurnalist Hilal Əhmədin qələmə aldığı "Ermənistan çirkin təbliğat apararaq Pakistanın imicini ləkələməyə çalışır" sərlövhəli məqalədə avqustun 6-da Nəvabşah şəhəri yaxınlığında baş verən dəhşətli qəza nəticəsində aralarında qadın, uşaq və yaşlı sərnişinlər də daxil olmaqla 30-dan çox insanın həlak olduğu vurğulanıb. Təəssüf hissi ilə bildirilib ki, Ermənistan mediası çoxsaylı insan tələfatı ilə nəticələnən qatar qəzasını Pakistana qarşı qərəzli mövqeyinə görə ələ salmaqda davam edir.

Məqalədə daha sonra qeyd olunub: "Ermənilərin Pakistana qarşı mövqeyi nifrətə əsaslanır. Belə ki, Pakistan Qarabağ məsələsində haqlı mübarizəsində daim Azərbaycan dövlətini və xalqını dəstəkləyib. Pakistan Azərbaycan ərazilərinin qanunsuz işğali ilə əlaqədar Ermənistanı müstəqil ölkə kimi tanımır. Eyni zamanda, Pakistan Qarabağ bölgəsinin Ermənistanın işğalından azad edilməsi üçün Azərbaycana ciddi dəstək verib".

Yazıda Pakistanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğu xatırlanıb, 30 ilə yaxın işğal altında olan Qarabağın və ətraf rayonların azad edilməsi ilə nəticələnən Vətən müharibəsində Azərbaycana dəstək verdiyi vurğulanıb: "2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdi. Bu, bir həqiqətdir ki, Pakistan Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün ədalətli mövqeyini daim dəstəkləyib".

Müəllif Pakistanın BMT və digər beynəlxalq platformalarda Azərbaycanın mövqeyini dəfələrlə dəstəklədiyini, Pakistan hökumətinin və xalqının hər zaman Azərbaycanın yanında olduğunu, Ermənistanın təcavüzünü pislədiyini də diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan da Kəşmir məsələsində Pakistanı dəstəkləyib və bu problemin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun qaydada həllinin tərəfdarı olduğunu bəyan edib: "Hər iki ölkənin mühüm beynəlxalq məsələlərə dair yaxın baxışları var. Pakistan ilə Azərbaycanı möhkəm dostluq əlaqələri birləşdirir. Lakin Ermənistan və Hindistan Azərbaycan–Pakistan dostluq əlaqələrinə qarşı çıxır".

Xatırladaq ki, məqalənin müəllifi Hilal Əhməd bu ilin martında Azərbaycana səfər çərçivəsində işğaldan azad olunmuş ərazilərə səfər edib, erməni vandallığının müdhiş mənzərəsini öz gözləri ilə görüb.

**"Xalq qəzeti"**

# OPEC-in ölkəmizlə bağlı proqnozu

## *Neft hasilatı gündəlik 700 min barel nəzərdə tutulur*

**Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) Azərbaycanda 2023-cü il üçün ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı üzrə proqnozunu azaldıb.**




OPEC-in aylıq hesabatında daha sonra 2023-cü ildə ölkədə ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatının 700 min barel səviyyəsində olacağı proqnozlaşdırılır. Bu da illik müqayisədə 11 min barel artım deməkdir və öncəki artım tempi üzrə proqnoz göstəricidən 11 min barel azdır. Qeyd olunur ki, proqnozun azalmaya doğru korrektə edilməsi may ayında əsas neft yataqlarında hasilatın gözləniləndən aşağı olması ilə əlaqədardır.

Hesabata əsasən, 2024-cü il üçün Azərbaycanın maye karbohidrogenlərin gündəlik hasilatı 30 min azalaraq (proqnoz dəyişməyib) orta hesabla 7 milyon barel olacağı proqnozlaşdırılır. Bildirilir ki, 2022-ci ildə sözügedən göstərici orta hesabla 700 min barel səviyyəsində olub, bu da illik müqayisədə 65 min barel azdır.

Yeri gəlmişkən, ABŞ-nin Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) Azərbaycanda 2023-2024-cü illər üçün gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı üzrə proqnozu dəyişməyib. EIA-nın aylıq hesabatına görə, gələn il Azərbaycanda gündəlik neft və digər maye karbohidrogenlərin hasilatının 650 min barel təşkil edəcəyi ehtimal edilir.

Proqnoza görə, bu il Azərbaycanda gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 640 min barel təşkil edəcək. Hesabata əsasən, ötən il ölkədə gündəlik maye karbohidrogenlərin hasilatı 670 min barel səviyyəsində olub. 2021-ci ildə isə ölkədə gündəlik maye karbohidrogenlərin hasilatı isə 720 min barel səviyyəsində qeydə alınmışdı.

Xatırladaq ki, 2019 və 2020-ci illərdə sözügedən göstərici müvafiq olaraq 780 min və 700 min barel səviyyəsində olub.

Sonda "S&P Global Commodity Insights"ın Azərbaycanda neft hasilatı üzrə proqnozuna da diqqət yetirək. Qurumun apardığı araşdırmaya əsaslanaraq ölkəmizdə neft hasilatının əvvəlki ayla müqayisədə gündəlik, təxminən, 1 milyon barel azalmasına səbəb olub.

Araşdırmaya əsasən, Səudiyyə Ərəbistanı könüllü olaraq hasilatı sutkada 9,05 milyon barelə endirdikdən sonra OPEC+ iyul ayında xam neft hasilatını, təxminən, iki ilin minimum səviyyəsinə endirib. Səudiyyə Ərəbistanındakı son azalma, eləcə də Qazaxıstan və Nigeriyadakı fasilələr İran və İraqda hasilat artımını daha çox kompensasiya edib və OPEC+ hasilatının əvvəlki ayla müqayisədə gündəlik, təxminən, 1 milyon barel azalmasına səbəb olub.

Araşdırma göstərib ki, OPEC-in 13 üzvü sutkada 27,34 milyon barel, Rusiya və digər 8 müttəfiq ölkə isə 13,06 milyon barel əlavə edərək, ümumilikdə, 40,40 milyon barel hasil edib.

**"Xalq qəzeti"**

# Baş nazir hansı "etnik təmizləmə"dən danışır?

**Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iclasında çıxışı zamanı səsləndirdiyi iddialara cavablandırıb.**



XİN-in Mətbuat xidməti idarəsinin bununla əlaqədar yaydığı məlumatda bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyan avqustun 11-də hökumətin iclasında çıxışı zamanı, növbəti dəfə bölgədə "gərgin humanitar vəziyyət" barədə iddiaları təkrarlayarkən, Ermənistan tərəfindən "humanitar yük" adı altında Laçın istiqamətində göndərilən yüklərin qəbul edilməməsinin erməni sakinlərə qarşı "etnik təmizləmə" kimi qələmə verməsi heç bir məntiqə sığmır.

Odur ki, Xarici İşlər Nazirliyinin cavabında diqqətə çatdırılıb: "Azərbaycanın 20 faizə yaxın torpaqlarının işğalı nəticəsində azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, nəinki bu torpaqlardan Ermənistan ərazisindən də azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmiş bir ölkənin rəhbərinin etnik təmizləmə iddiaları səsləndirməsinə mənəvi haqqı yoxdur.

Ermənistanın bu iddiaları davamlı olaraq təkrarlaması göstərir ki, Laçın sərhəd-buraxılış məntəqəsi təsis edilənədək Ermənistanın Laçın yolundan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin məntəqə təsis edildikdən sonra qarşısının alınması bu ölkəni narahat edir".

Açıqlamanının sonunda qeyd edilir ki, erməni sakinlərin, həqiqətən də, iddia olunduğu kimi, gündəlik tələbat mallarına ehtiyacları varsa, bunun üçün Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşların dəstəklədiyi Ağdam–Xankəndi yolundan istifadə edilməsi mümkündür: "Ermənistan tərəfi, əsassız şəkildə "humanitar böhran" barədə iddialar yaymaq və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribatlar törətmək əvəzinə, bölgədə sülh və sabitlik istiqamətində səy göstərməlidir".

**"Xalq qəzeti"**

# XİN-in Rusiya "Kommersant"ının yazısı ilə bağlı şərhi

**Rusiyanın "Kommersant" qəzetinin dünənki sayında dərc olunmuş "Arsax Qarabağa qarşı" adlı məqalədə Ağdam–Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən istifadə müqabilində Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsindən keçidə imkan yaradacağına dair ilkin razılıqlar barədə fikirlər səsləndirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin bu fikirlə bağlı şərhində bildirilir:

– Son günlər ərzində beynəlxalq tərəfdaşların səyləri nəticəsində Ağdam-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən yüklərin daşınması üçün istifadə olunması və bundan 24 saat sonra Laçın yolundan BQXK vasitəsilə keçidin daha da intensivləşməsinə dair razılıq mövcud idi. Bununla yanaşı, Azərbaycan tərəfinin təklifi əsasında Qarabağda yaşayan erməni sakinlərin nümayəndələri ilə Yevlaxda görüşün keçirilməsi razılaşdırılmış və bütün logistik məsələlər yekunlaşmışdı.

Bütün bu razılıqlara baxmayaraq, Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri razılıqları son anda pozublar. Onların və bu mövzunu siyasi manipulyasiya alətinə çevirən Ermənistanın pozucu fəaliyyəti qarşı tərəfin sülh və sabitlikdə, habelə bu istiqamətdə dialoqda maraqlı olmadıqlarını bir daha nümayiş etdirib.

Bununla yanaşı, qeyd edilən addımlar humanitar əsasda iddiaların əsassız olduğunu bir daha sübut edərək, bölgədə vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

**"Xalq qəzeti"**

# Qərbi Azərbaycan İcmasının ədalət və həqiqətə səsləyən çağırışları

**Qərbi Azərbaycan İcması BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə ünvanladığı məktubda Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparması nəticəsində insan hüquqlarının miqyaslı şəkildə pozulması və Ermənistanın qovulmuş azərbaycanlıların öz evlərinə qanuni şəkildə qayıtmasına mane olması barədə məlumat verilib.**



İcma Ali Komissarı bu insan hüquqları pozuntuları ilə bağlı qərəzsiz və hərtərəfli araşdırma aparmağa, Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına kömək göstərməyə, etnik təmizləmə, zorakılıq, mədəni-tarixi irsin məhv edilməsi və qovulanların təhlükəsiz geri qayıtmasına mane olanların məsuliyyətə cəlb olunması istiqamətində səylər göstərməyə çağırıb. İcma, həmçinin, beynəlxalq ictimaiyyəti diqqətini sözügedən insan haqları pozuntularına cəlb etmək və məsələnin BMT-nin İnsan Hüquqları Şurasının müzakirəsinə çıxarılması üçün Ali Komissarın dəstəyini xahiş edib.

Müraciətin surəti BMT-nin Baş katibinə, BMT Baş Assambleyasının, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şurasının, İnsan Hüquqları Şurasının sədrlərinə, insan hüquqları sahəsində müqavilə ilə təsis edilmiş beynəlxalq qurumların rəhbərlərinə və müvafiq xüsusi mandat sahiblərinə göndərilib.

*

İcma başqa bir müraciətində beynəlxalq ictimaiyyəti erməni kilsəsinin dini bölücülük salan əməllərini pisləməyə çağırıb.

*

Qərbi Azərbaycan İcmasının Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 11-də səsləndirdiyi fikirlərə cavabında isə onu Azərbaycana qarşı saxta təbliğatdan, böhtan və manipulyasiyadan çəkinməyə səsləyib.

**Q.QASIMOV, "Xalq qəzeti"**

# Qarabağ və Şərqi Zəngəzurda "AzStateNet" şəbəkəsi qurulur

**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində "AzStateNet" şəbəkəsinin qurulması işlərini davam etdirir.**

Bu barədə Xidmətdən redaksiyamıza daxil olmuş məlumatda bildirilib ki, cari ilin ötən dövründə həmin ərazilərdə fəaliyyət göstərən 15 dövlət qurumu "AzStateNet" şəbəkəsi üzərindən data və internet kanalları ilə təmin olunub: "Şəbəkəyə yeni qoşulan dövlət qurumları mühafizə olunan data kanalları ilə bu şəbəkə vasitəsilə həm öz aralarında, həm də Bakı şəhəri daxil olmaqla respublikamızın digər bölgələrindən "AzStateNet" şəbəkəsində olan dövlət qurumları ilə etibarlı məlumat mübadiləsi apara biləcək və təhlükəsiz internet şəbəkəsindən istifadə edə biləcək".

**"Xalq qəzeti"**

# Roma imperiyası, erməni şovinizmi və kütləvi psixoz

## Görəsən, xəstə Ermənistan cəmiyyətini sağaltmaq mümkündürmü?

(əvvəli 1-ci səhifədə)

### Paşinyanın vədi və Qarabağ avantürası

Bəli, Azərbaycan ictimaiyyəti N.Paşinyanın həmin dövrdəki çıxışlarına diqqət yetirəndə düşünürdü ki, onun Qarabağ münaqişəsindən uzaq durmaq niyyəti problemin ədalətli həlli məramına söykənir. Ədalətli həll isə ölkəmizin öz əzəli və əbədi torpaqlarına sahiblənməsi



kimi qəbul edilirdi. Başqa cür düşünülə bilməzdi. Lakin Nikol hakimiyyətdə möhkəmləndikdən sonra 2018-ci il inqilabının ona verdiyi eyforiyanı Qarabağ müstəvisinə də daşımaq yolunu tutdu. Elə zənn etdi ki, Cənubi Qafqazda "demokratiyanın qladiatoru" obrazından yararlanacaq və dünya bu işdə İrəvana kömək göstərəcək.

Beləcə, 2018-ci il inqilabı özünün qarşısına qoyduğu real məqsədə nail ola bilmədi. O anlamda ki, inqilab xəstə şüur və təfəkkürlərdə dəyişiklik etmədi. Paşinyan mənfi stereotipləri nəinki aradan qaldırdı, əskinə, onların əsirinə çevrildi. O, seçkiqabağı dövrdə dediyi sözü tutdu. Amma necə? Qarabağ məsələsini kökündən həll etməyin zəruriliyini bildirirdisə, Azərbaycan cəmiyyətinin gözlədiyi kimi, bu məsələdə ədalət prinsiplərini yox, müharibə yolunu üstün tutdu. Nəticədə həmin vaxtadək davam edən Azərbaycan – Ermənistan danışıqları tam şəkildə dalana dirəndi. Üstəlik, Nikol və komandası "yeni ərazilər naminə yeni müharibə" şüarını da irəli sürdü. "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı eşidildi, Şuşada – Cıdır düzündə nümayişkəranə tərzdə "yallı" getmə, içib sərxoş olma kimi qıcıqlandırmalar da öz yerində...

Bəli, Paşinyan tipik erməni xislətindən irəli gələn hərəkət və davranışlarını ortaya qoydu. Müasir dövrdə Qarabağ münaqişəsinin formalaşması mərhələsi ilə yaxından-uzaqdan heç bir əlaqəsi olmayan Nikol həmin münaqişənin ortaya çıxardığı və Ermənistan cəmiyyətinə sırıdığı psevdoqəhrəmanları üstələməyə girişdi. Bunu Roma papasından daha çox katolik olmaq istəyi kimi də qiymətləndirmək mümkündür. Nəticədə 44 günlük müharibə başladı və Ermənistan fəlakətlə üzləşdi...

### Demokratiya bacadan dürtüldü, şovinizm üçün qapılar taybatay açıldı

Fəlakətə gedən yolun ayrı-ayrı elementlərindən də söz açdıq. Paşinyan, ümumən, cəmiyyətdəki şovinist baxışları körükləməyə girişdi. Halbuki o, demokratiya üzərində hakimiyyətə gəlmişdi. Demokratiya isə mahiyyət etibarilə millətçiliyi qəbul etmir. Nikol demokratiyanı Ermənistan cəmiyyətinə, obrazlı desək, pəncərədən də yox, bacadan dürtdüyü halda, şovinizm üçün qapıları taybatay açdı. Əslində, asan yolu seçdi. Bu seçim, ilk növbədə, onun hakimiyyət düşkünü olan saxtakar təbiətindən irəli gələn xüsusiyyətdir. Bu gün də o, ancaq hakimiyyətini düşünməklə, kürsüdən möhkəm yapışmaq əzmi ilə yadda qalmaqdadır. O zaman, indi də Ermənistan cəmiyyətində demokratiyanın heç "d" hərfi belə olmayıb. Əvəzində şovinizm daha bir çürük xassə qazanıb. Söhbət revanşizmdən gedir. Son günlərin hadisələri isə göstərir ki, erməni şovinist-revanşizmi məqsədinə çatmaq üçün dini də alətə çevirməkdədir.

### Qarabağ Qüdsdürmü?!

Meydana "Xaçlılar" çıxır. Onlar Laçındakı sərhəd postumuza yürüş edib, oranı ələ keçirmək, Qarabağa daxil olmaq istədiklərini bildirirlər. Sanki orta əsr cəngavərləridir, Qarabağ isə Qüdsdür. Necə ki, ilkin orta əsrlərin səlibçiləri saxtakarlıqları ilə seçilirdilər və əsl məqsədləri Şərqin zəngin torpaqlarını ələ keçirmək idi. Erməni "xaçlılar" da eyni "ampluadadırlar". Ancaq birincilərdən fərqli olaraq, ikincilər heç nə edə bilmədilər. Böyük səs-küylə təqdimatı verilən "xaçlı" hərəkatının üzvlərinin indi hansı cəhənnəmdə olduqları məlum deyil. Axı, zaman da o zaman deyil. Azərbaycan vaxtilə quldurluqlar, fitnə-fəsadlar, vandallıqlar törədərək əhalisini didərgin saldıqları ölkə olmaqdan çıxıb. Nəticə budur: erməni millətçiləri hərəkətləri ilə aslana hücum çəkməkdən qorxan, onun həndəvərində ulayan kaftar sürüsünü xatırladır.

Bəli, məhz kaftar sürüsü. Bu, əsla bir xalqın təhqiri deyil. Bu deyim həmin xalqa kənardan necə göründüyünü xatırlatmaqdır. Biz istərdik ki, erməni xalqı deyiləndə yada bu sayaq meyillər düşməsin. Belə mənfi tendensiyanın ağırlıq qüvvəsi çox olduğundan, erməni xalqı anlayışı yoxdur.

Nəhayət, qonşularımızdır. Hansı xalq istəyər ki, qonşusu pis olsun? Biz də istəmirik. Ermənilər torpaqlarımıza ayaq basandan istəməmişik. Hətta, sadəlövhlük və zəiflik də göstərmişik. İmkan vermişik ki, ərazilərimiz hesabına özlərinə dövlət qursunlar. İrəvanı, Zəngəzuru peşkəş etmişik. Kifayətlənməyiblər, daha da azğınlaşıblar və bu azğınlaşma ermənilərə xalq deyil, qövm, barbar tayfa kimi yanaşmağımızı şərtləndirir, bu gün də şərtləndirməkdədir. Çünki vəziyyət böyük ölçüdə dəyişməyib.

### Vanyan nümunəsi

Əlbəttə, biz nəinki Ermənistan cəmiyyətindəki, bütövlükdə dünya erməniliyindəki şovinizmdən uzaq meyilləri, normal məntiqi düşüncəni də diqqətdə saxlayırıq. Hesab edirik ki, belə pozitiv meyillərin sayı nə qədər çox olsa, bir o qədər faydalıdır. Özü də təkcə ermənilərin özlərinə deyil, bütövlükdə, Cənubi Qafqaz regionuna. Təəssüf ki, müsbət meyillərin sayı azdır. Yaxud, şovinist baxışlar həmin meyilləri qol-qanad açmağa qoymur, düşüncələrə hakim kəsilmiş mental "xüsusiyyətlər" müsbət halları arxa plana keçirir. Hər bir halda, necə deyərlər, yaxşı danışaq ki, yaxşı olsun.

Məsələn, Azərbaycan cəmiyyətinə Georgi Vanyan adlı erməni hüquq müdafiəçisi çox tanışdır. O, Ermənistanda Azərbaycanla dostluq fikirlərinin təbliğatını aparan və Qarabağ savaşına görə ölkəmizdən üzr istənilməsi fikrini müdafiə edən sülhməramlı idi. Fəaliyyəti dönəmində Azərbaycanda da bir neçə dəfə səfərdə olmuşdu.

İcevan şəhərində yaşayan Vanyan Ermənistanda türk filmləri günləri festivalını təşkil etmişdi, amma bu addımına görə o zamankı prezident Serj Sərkisyan hakimiyyəti tərəfindən təqiblərə məruz qalmışdı. O, həmçinin Azərbaycanla Ermənistan cəmiyyətlərinin barışmasına yönələn Təkəli prosesinin təşkilatçılarından biri kimi də yadda qalmışdı. Maraqlısı budur ki, Paşinyanın hakimiyyəti dönəmində də Vanyana qarşı hücumlar dayanmamışdı. Hüquq müdafiəçisi 2021-ci ildə Tiflisdə vəfat etmişdi. Nəticə budur: erməni cəmiyyəti belə bir adama sahib çıxmağı bacarmadı. Çox təəssüf...

### Mnatsakanyan həqiqəti sərt deyir: Gedin türkün gülləsindən ölün...

Bəs, hazırda Ermənistan cəmiyyətində vanyanlar varmı? Əlbəttə, mütləq mənada yoxdur. İndi Ermənstan dövləti və erməniliklə bağlı həqiqətlər ölkə və xalq üçün çıxılmaz durumun az da olsa, dərki prosesində meydana gəlir. Məsələn, Rafael Mnatsakanyanı götürək. Yəqin ki, bu ad cəmiyyətimizə o qədər də tanış deyil. O, Paşinyan kimi jurnalistdir, radio direktorudur.

Əlqərəz, Mnatsakanyan deyir ki, Qafqazda Ermənistan qədər ultramillətçi, şovinist ikinci bir ölkə yoxdur. Fikirlərini xeyli dərəcədə sərt formada ifadə edir: "Kim ki "dənizdən dənizə Ermənistan" ideyasına sadiqdir, kim ki, bu gün küçələrə çıxıb "Türkiyədən Qərbi Ermənistanı alacağıq" deyərək bağırır, bağıran ağızlarını götürüb getsinlər ora və türklərin gülləsindən ölsünlər. Bu xalq, bu nəsil daha öz insanını kiməsə, hansısa millətçi ideyaya, yalançılara görə qurban verə bilməz. Onlar kim olursa-olsun. Lap "Daşnaksütyun" olsun. Sülh zamanı gəlib. Sülh olacaq və sülh qorunacaq. İki yüz il bizi bu millətçi, boş fikirlərlə xəstələndiriblər. Biz hələ də həmin fikirlərlə yaşayırıq. Bizim regionda bizdən daha ultramillətçi olan heç olmasa, biz xalqın adını çəkin. Elə buna görə də bu gündəyik. Düz yüz ildir, bu düzgün olmayan mübarizə davam edir. Siz sıravi terrorçuların ideyasını qəbul etmisiniz. Bu ideyalardan milli dəyər düzəltmisiniz və hesab edirsiniz ki, erməni obrazı belə olmalıdır. Bəsdir artıq! Bəsdir! Başa düşün ki, müəyyən qüvvələr tərəfindən qəsdən yayılan bu şovinist ideyalar son dərəcə zərərlidir! Ancaq hər bir erməni belə şeyləri eşitməyi xoşlayır. Məsələn, siz bu gün küçəyə çıxsanız və "Ermənistanın dənizdən dənizə olması ilə razısınızmı" deyə soruşsanız, əlbəttə, 99 faiz razı olduğunu deyəcək. Ona görə ki, "yox" deyə bilmir".

### Erməni millətçiliyi – qlobal maraq oyuncağı

Göründüyü kimi, R.Mnatsakanyan erməni cəmiyyətindəki son dərəcə ağrılı məsələdən söz açır. Bu məsələ erməniləri xalq deyil, kütlə kimi təsəvvür etmək üçün əsaslar verir. Kütlə isə daimi manipulyasiya predmetidir. Bəli jurnalist düz deyir ki, iki əsrdir ermənilər müxtəlif qüvvələrin əlində vasitədirlər. Onlardakı şovinizm, millətçilik qlobal oyunlar üçün alətdir. Bu gün Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanması fonunda baş verən proseslərə diqqət yetirəndə də, görünür ki, yenə erməni millətçiliyi Qərbin bəzi dairələrinin maraq oyuncağıdır. 44 günlük müharibədən əvvəl də belə olmuşdu. Ermənistanın hansı acınacaqlı aqibətlə üzləşdiyini gördük. Mnatsakanyanın təbirincə desək, türklərin atdıqları güllələrdən öldülər. Yenə də ölmək istəyirlər, ya necə?

### Leonardo da Vinçi əsası və marginal erməni cəmiyyəti

Bəli, ölüm, ya qalım. Hazırda Ermənistan cəmiyyətində bu yöndə müzakirələr gedir. Ölkənin nisbətən normal düşünən kəsimi sualı başqa cür qoyur. Təxminən belə: Ermənistanın nə xilas edəcək? Əlbəttə, bu sual "Ermənistanı kim xilas edəcək?" deyimindən daha yaxşı səslənir.

Məlumdur ki, xəstə erməni təfəkkürü üçün son dərəcə böyük təzad var. Danışanda özlərini qəhrəman, nə bilim möhtəşəm tarixləri olan xalq qiyafəsində göstərirlər. Amma o möhtəşəm tarix sahibləri daim kimin və kimlərinsə gəlib onlara kömək etməli olduğunu düşünürlər. Obyektiv fikir doğur: belə qəhrəmansansa, belə igidsənsə, özün mübarizə apar, nə üçün ətrafdan mədət umursan?

Bütün bu sayaq təzadlar Ermənistan cəmiyyətinin marginallaşmasının məhsuludur. Erməni "Tik-tok" kanallarında yayımlanan verilişlərdən birində də bu barədə söhbət açılmışdı. Həyat yoldaşı italiyalı olan və ziyalı kimi təqdim edilən bir xanım, ömür-gün dostunun Ermənistan haqqında fikirlərini diqqətə çatdırmaqla, verilişdə qoyulmuş mövzunu əhatə etməyə çalışırdı. Bildirirdi ki, ölkənin marginallaşması fazişmə yol açır. Diqqət yetirək, orta statistik erməni hansısa avropalı ilə görüşəndə, tanış olanda, ilk növbədə çalışır ki, Ermənistanın qondarma tarixindən söz açsın. Bunu sözügedən verilişdə qonaq qismində iştirak edən xanım da deyir. Əsl məsələ onun həyat yoldaşı ilə söhbətinin məzmunudur. Daha doğrusu, ikincinin birinciyə dedikləridir: "Həyat yoldaşım mənə deyirdi: Siz ermənilər bir italiyalı görmüsünüzmü ki, gəlib kimdənsə kömək istəyəndə desin ki, köməyi bizim tariximizin böyük olmasına görə istəyirik, yaxud bizim Leonarda da Vinçimiz var? Təsəvvür edirsinizmi, bu, necə axmaqlıqdır? Təsəvvür edirsinizmi ki, kiməsə "biz 31-ci ildə xristianlığı qəbul etmişik, kömək edin" demək necə pis səslənir? Dünyaya təklif edəcəyiniz nə var? Əliyevin (Azərbaycan Prezidenti İlham Əliyev nəzərdə tutulur – red.) göstərəcəyi çox şey var. İndi sizin nəyiniz var? Onun (həyat yoldaşının – red.) hər sözü mənim ürəyimə sancılan bıçaq idi. Çünki həqiqətləri deyirdi".

### Erməni "təfəkkürü" və gələcəklə yaşamaq

Verilişdəki diskussiyada aparıcı da heç bir italiyalının Roma İmperiyasından danışıb qürrələnmədiyini dilə gətirir. "Mən çoxlu italiyalı tanıyıram ki, söhbət düşəndə özünün kiçik kəndini, rayonunu tərifləyəcək və s.", – deyən aparıcının sözünü erməni xanım nəzakətlə kəsir və italiyalı həyat yoldaşına Roma İmperiyasına mənsub olduğunu xatırlatdığını söyləyir. O, həyat yoldaşının cavabını da diqqətə çatdıraraq söhbətə davam edir: "Mənə dedi, dayan görək. Bax, siz ermənilərin oyunları belə başlayır. Bildirdi ki, əzizim, sən düz deyilsən. Roma İmperiyası olub, ancaq o imperiyanın müasir İtaliyaya heç bir aidiyyatı yoxdur. Gələcəklə yaşamaq lazımdır. Dövlət olmaq üçün gələcəklə yaşamaq şərtdir".

Bəli, gələcəklə yaşamaq lazımdır, keçmişdə ilişib qalmaq mənasızdır. Üstəlik, nəzərə alaq ki, keçmişi olanlar heç o barədə danışmırlar. Danışanlar ermənilər kimi səfeh toplumlardır. Düz-əməlli tarixləri olmayan, uydurulmuş miflərlə yaşayan qövmlərdir. Bəli, gətirdiyimiz bütün misalllar, eləcə də Georgi Vanyan nümunəsi erməni cəmiyyəti üçün siqnal olmalıdır. Ancaq bu günün hadisələrinə diqqət yetirəndə, xüsusən də Ermənistanın sülh gündəmini heçə saydığını görəndə, onu deməyə əsas yaranır ki, həmin cəmiyyət psixoz mərhələsini dəf edə bilmir.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Separatçılıq üçün hava məkanı?

## Hayların ictimai rəy qıcolmasında yeni "etüdlər"

(əvvəli 1-ci səhifədə)

Belə bir məqamda Ermənistandakı bəzi dairələr sual edirlər: Nə üçün Qarabağa yüklərin hava yolu ilə daşınması ilə əlaqədar rus sülhməramlı kontingentinin rəhbərliyi ilə danışıqlar aparılmır? Təbii ki, burada söhbət rus hərbçilərinin ən çox istifadə etdikləri 2-3 ton yükgötürmə qabiliyyətinə malik helikopterlərdən getmir. Erməni mediası daşıma qabiliyyəti 20 tona çatan Mİ-26 helikopterlərindən yazır və bildirir ki, ölkənin müdafiə naziri Suren Papikyan rusiyalı həmkarı ilə həmin hilikopterlərdən istifadənin təminatı məqsədilə danışıqlar apara bilər. Ən əsası isə guya, beynəlxalq ictimaiyyətin belə hava daşımalarının təhlükəsizliyinə dair üzərinə öhdəlik götürməsi mümkündür.

***

Göründüyü kimi, erməni mediası da ölkənin cəmiyyəti kimi, hər şeyi başqalarının boynuna qoymağa öyrəncəlidir. Sanki, kimsə, yaxud kimlərsə bunlar üçün nə isə etməlidirlər. Hələ həyasızlığın başqa çalarları da var. Məsələn bildirilir ki, xarici ölkələr Qarabağdakı "blokadanın" aradan qaldırılması üçün Azərbaycanın hava məkanından istifadə edə bilərlər. Təxminən belə: ölkəmiz, məsələn, Fransaya icazə verəcək ki, tutalım Yevlaxın üzərindən uçub Xankəndiyə yardım aparsın (?). Diqqət yetirin, quru yolunu yada salan yoxdur. Guya, insan amilindən danışırlar, onlara köməkdən bəhs edirlər, amma Ağdam-Xankəndi yolundan söz açmırlar. Fransanın, Almaniyanın, Rusiyanın, ya qeyrisinin təyyarələrinin



Azərbaycanda dayanmadan, onun hava məkanından istifadə edərək, Qarabağa yardım daşımasını nəzərdə tuturlar. Bu qədər düşüncə primitivliyi, yəqin ki, ancaq erməni qövmündə ola bilər.

Hamını hamı ilə danışdırırlar, üstəlik ölkəmizin hava məkanından da istifadə icazəsi alırlar, nəticədə yüklər Qarabağa çatdırılır, oradakı separatçı rejim kef çəkir, Bakı isə durub bu mənzərəni seyr edir. Yəni, ortada bu qədər dəhşətli beyin qıcolması var. Öz aləmlərində beynəlxalq dairələr yuxarıdakı çıxış yolunu göstərirlər. Ardınca ittihama keçirlər. Təxminən belə: dediyimizi reallaşdırın, nə üçün bizə Azərbaycanın şərtlərini qəbul etməli olduğumuzu bildirirsiniz?

***

Guya, göstərdikləri vəziyyətdən çıxış yoludur. Həqiqətən də, erməni ictimai rəyi ciddi psixoloji problem yaşamaqdadır. Ya da xəstə olduğunu imitasiya etməkdə. Üstəlik, mövcud fonda Ermənistan baş naziri Nikol Paşinyana yüklənmələr də nəzərə çarpmaqdadır. Bildirilir ki, baş nazir həyat yoldaşını Amerikaya aparmaq üçün dövlət hesabına təyyarə icarəyə götürmüşdü, amma iyulda keçirilən mətbuat konfransında Qarabağa subsidiyalardan söhbət gedəndə, xərclərin böyüklüyündən şikayətləndi. Yeri gəlmişkən, qeyd edək ki, milyardlarla vəsaitin ayrılması fonunda Qarabağdakı rejim rəhbərliyinin bundan sui-istifadəsi ilə bağlı söz-söhbətin ortaya atılması, bir çoxları tərəfindən Ermənistan rəhbərliyinin bölgəyə maliyyə dəstəyini azaltmaq cəhdi kimi qiymətləndirilib.

Qondarma rejimin oyuncaq parlamentinin üzvü David Qalstyan Paşinyanın milyardların hara xərclənməsi sualını belə şərh edib: "Əminəm ki, bu, doğru deyil. Böyük məbləğlər verən Paşinyan onların istifadəsinə nəzarət etməyə borclu idi. Ola bilsin ki, Paşinyan bilərəkdən Qarabağ hakimiyyətinə bu məbləğləri mənimsəməyə icazə verib ki, sonra günahı xalqın üzərinə atsın". Deyirlər, dinsizin öhdəsindən imansız gələr. Bu yerdə Qalstyan imansızdır, Paşinyan isə dinsiz.

***

Erməni avantürizminə dəstək verən ekspert dairələr onu da bildirirlər ki, Vardanyanın haqqında söz açdığımız Qarabağı "aclıqdan xilas edə biləcək" "hava körpüsü" mövzusunu gündəmə gətirməsi təsadüfi deyildi. Bu, Paşinyan hökumətinin konkret hansı addımı atmasına dair subliminal mesaj idi. Yəni, Rusiyanın dediyinə qulaq as, onunla hesablaş.

Təsadüfi deyil ki, bir sıra hərbi ekspertlər də ağıllı-ağıllı bildirirlər ki, Rusiya sülhməramlıları yük helikopterlərinin icarəsi şəklində Qarabağa yardım göstərə bilər. Onların fikrincə, Azərbaycan Qarabağ səmasında humanitar yardımla dolu Rusiya helikopterini vurmaz. Sən demə, kollektiv Qərb də belə bir vandalizm aktına anlayış göstərməzmiş.

Əvvəldə də bildirdiyimiz kimi, söhbət boğulanın saman çöpündən yapışması söhbətidir. Əlbəttə, bu söhbətdə güc həyasızlıq elementlərinə verilib. Nə olursa-olsun, Azərbaycanın dediyini qəbul etməmək və alternativ yollar axtarmaq. Məşhur Azərbaycan filmindəki bir səhnədə deyildiyi kimi, "Ay siz öləsiniz elə…"

***Ə.RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Yalan... Hamısı yalan!

## Paşinyanın dünən hökumətin iclasında “humanitar böhran”, “soyqırımı” ilə bağlı dedikləri nə reallığa söykənirdi, nə də faktlara...

(əvvəli 1-ci səhifədə)

Dünən başçılıq etdiyi hökumətin iclasında “yalan və iftiralar” seriyasından növbəti tezislərini dünyaya, ictimai rəyə üfürən Nikol Paşinyan girovuna çevrildiyi siyasi vəziyyətdən çıxmaq üçün Azərbaycanın ünvanına cəfəng açıqlamar verdi. O, “Dağlıq Qarabağa” daşımaları qadağan edən (?), Laçın dəhlizini (?) qanunsuz olaraq (?) ermənilərin üzünə bağlayan, hətta BQXK-nin vasitəçiliyi ilə humanitar xarakterli uşaq qidalarını və dava-dərmanı (?) bölgəyə buraxmayan Bakını “böhranı dərinləşdirməkdə və genişləndirməkdə” suçladı. İyulun 26-da Ermənistan Respublikası hökuməti komisiyasının “Dağlıq Qarabağ xalqı” üçün 19 “tır”dan ibarət humanitar yardımın göndərilməsi barədə qərarından bəhs edən Paşinyan həmin karvanın 17 gündür Sünik (Zəngəzur -red.) vilayətinin Laçın yolu ərazisində saxlanıldığını və Azərbaycanın bu yolla “Dağlıq Qarabağ” ermənilərini soyqırımına (?) məruz qoymağı planlaşdırdığını bəyan etdi.

Baş nazirin heç bir fakta, sübuta söykənməyən, iftira və böhtan xarakterli bu açıqlamasına heç ermənilərin özləri belə inanmırlar,– desək, yanılmarıq. Ən azı ona görə ki, Qarabağ iqtisadi rayonumuzda yaşayan sıravi ermənilərin bu günlərdə Laçın yolu üzərindəki həmin Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsindən sərbəst şəkildə keçmələrinin video-görüntülərini izləyiblər. Eləcə də qaçaqmalçılıq fəaliyyəti sübuta yetirilən BQXK-nin təcili yardım maşınlarının hərəkətini də görməmiş deyillər. Bəs bəzi erməni blogerlərin, ictimai fəalların Xankəndidə, Ağdərədəki restoran, kafe-barların gur işləməsindən, dadlı təamlarla zəngin masaların ətrafında təşkil olunan kef məclislərindən bəhs edən görüntülü paylaşımlarından da xəbərləri yoxdur? Var, həm də çox yaxşı xəbərləri var! Sadəcə görmək istəmədikləri həmin video-dəlilləri beyinlərinin arxa planına salıb, üzlərinə saxtakarlıq maskası taxıb, tək bizimlə deyil, dünya ilə “yalan-palan” oyununa girişiblər.

* * *

“Hamının yadına salmaq istəyirəm ki, həmin 18 “tır”da bu yüklər var: 100 ton un, 80 ton makaron, 60 ton şəkər, 40 ton bitki yağı, 40 ton quru süd, 20 ton duz, 12 ton uşaq qidası, 9 ton tibb ləvazimatı. Cəmi 361 ton humanitar yükdür. Sonradan həmin humanitar yük karvanına “Qrand Kendi” şirkətinin 9 ton şirniyyatı olan iki avtomaşın, Paris meriyasından və Fransanın İl-de-Frans, Overn, Rona-Alpı və digər bölgələrindən 25 ton makaron məmulatı olan bir yük maşını da qoşulub”.

Bu şübhəli humanitar statistikanı hökumət nümayəndələrinin və daxili elektoratın diqqətinə çatdıran Hayastanın baş naziri Azərbaycanın “Dağlıq Qarabağda humanitar böhran” yaratması ilə bağlı artıq “beynəlxalq ekspert dairələrindən də rəylərin eşidildiyini” sevinclə bəyan etdi.

Kimdir, yaxud kimlərdir həmin beynəlxalq ekspertlər? Qalmaqallı məhkəmə proseslərində, hay-küylü əmlak davalarında tərəfli davranışları və təmənnalı çıxışları ilə yadda qalmış ispan vəkilinin, Beynəlxalq Məhkəmənin keçmiş prokurorunun heç bir hüquqi dəyəri və qüvvəsi olmayan, kağız parçasından ibarət “ekspert rəyini” yüksək instansiyanın möhürlü hökmü-qərarı kimi daxili və xarici bazara sırımağa çalışan Paşinyan bununla kimi aldatmağa cəhd edir? Əlbəttə ki, yalnız özlərini. Beynəlxalq hüquqdan dəm vuran hayların baş nazirinə sadəcə onu xatırlatmaq kifayətdir ki, Beynəlxalq Ədalət Məhkəməsi İrəvanın həmin Laçın yolunda hüquq pozuntusu və Qarabağın erməni icmasının təhlükəsizliyi ilə bağlı iddiasını əsassız saydığı, mübahisələndirmə predmeti olmadığı barədə 6 iyul tarixli qərarını təhrif etməklə çox uzağa gedə bilməyəcək.

* * *

Nəhayət, Hayastanın baş naziri hökumətin dünənki toplantısında sözünün “mustafasını” da açıqlayıb: “İndiki şəraitdə etiraf etməliyik ki, vəziyyətdən ən yaxşı çıxış yolu Laçın dəhlizindən Azərbaycanın qanunsuz blokadasının (?) götürülməsi və beynəlxalq mexanizm çərçivəsində Stepanakert (Xankəndi) – Bakı dialoqunun başlanmasıdır”.

Son vaxtlar tez-tez təkrarladığı, amma heç vaxt gerçəkləşməyəcəyinə özünün də əmin olduğu bu uğursuz versiyanın ardınca İrəvanın sülh gündəliyinə sadiq olduğunu deməkdən utanmayan Nikol Paşinyan rəsmi Bakını “sülhün əldə edilməsi üçün yaranmış tarixi imkanı aradan qaldırmağa yönəlmiş addımları atmaqdan çəkinməyə” çağırdı.

Bəli, Bakı Xankəndi ilə dialoqa hazır olduğunu çoxdan bəyan edib, bununla bağlı xoşməramlı addımların da atıb. Amma kənar qüvvələrin və daxildəki separatçıların əsirinə çevrilmiş Qarabağın erməni icması danışmaq üçün Azərbaycanda yer “qəhətə çıxdığı” üçün, görüş yeri kimi Bratislavanı, Sofiyanı nişan verirlər. Azərbaycan daxili məsələsini niyə üçüncü dövlətin ərazisində müzakirə etməldir?– sualına İrəvanın hansı cavabı verdiyini hələ eşitməmişik. Hər müstəvidə, çeşidli planlarda və ayrı-ayrı məkanlarda yalana və yalnız yalana söykənməklə bunlar hara qədər getməyi düşünürlər, anlamaq mümkün deyil. Əslində, sağlam məntiqlə izahı tapılmayan müşküllərin mənbəyi hayların pozulmuş, yalanla həqiqəti bir-birindən ayırmaqda çətinlik çəkən beyinləridir.

Bəlkə biz 2020-ci il noyabrın 10-dan sonra ermənilərin suveren Azərbaycanın Qarabağ iqtisadi rayonunda qalıb yaşamasına, hətta, gedənlərin təhlükəsiz şəkildə geri qayıtmasına imkan verməklə, onlarla bu qədər humanist davranmaqla səhvə yol vermişik? Yox, Azərbaycan səhv etmədi, sivil dövlət olaraq özünə və beynəlxalq hüquqa hörmətini nümayiş etdirdi. Bəs əvəzində nə gördü? Naşükürlük! Daha yetər, bura qədər bəsdir. Sizi tanıdıq və uydurduğunuz nağıllarınıza kim inansa da, biz inanmayacağıq!

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*



### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**politoloq**

Bir halda ki Paşinyan Laçın yolundakı vəziyyətlə bağlı Azərbaycanın beynəlxalq hüquq normalarını pozduğunu iddia edir, bununla o, ilk növbədə savadsızlığını nümayiş etdirir. Bu fakt özü tam çılpaqlığı ilə ortaya qoyur. Çünki, Azərbaycan, ümumiyyətlə, istər regional, istərsə də beynəlxalq olsun, heç bir norma və qaydanı pozmayıb. Ölkəmiz işğaldan qurtulub, ərazi bütövlüyümüz bərpa olunub, sərhədlərini özü qoruyur, bütün kommunikasiya şəbəkəsində nəzarət-buraxılış postlarını qurursa, bu fəaliyyət heç bir qanunverici aktın şərtlərinə zidd deyildir. Bu səbəbdən Paşinyan həmin sərsəm bəyanatları verməzdən əvvəl özünün bu çağırışlarının nə dərəcədə hüquqa uyğun, ölçülü-biçili olduğu barədə gərək düşünsün. Belə hüquqi məsələləri gündəliyə çıxarırsa, Azərbaycanı ittiham edirsə, nəyə əsaslandığını izah etsin. Azərbaycanın hansı qanun və ya qaydanı pozduğunu açıqlasın.

Hər bir ölkənin olduğu kimi, bizim də sərhəd qanunlarımız var. Hələ işğal dövründə bəzi siyasilər, ekspertlər, jurnalistlər Qarabağa Ermənistanın qapısından keçərək gəlirdilər. Təbii olaraq, onların hamısı Azərbaycanın qara siyahısına düşürdü və XİN beləl ərinin respublikamıza girişinə qadağa tətbiq edirdi. Onların bəziləri səhvlərini anladıqdan sonra Bakıdan üzr istəyir, adlarının qara siyahıdan çıxarılmasını xahiş edirdilər. İrəvandan bəzi turistləri gəzinti adı ilə gətirirdilər Qarabağa və separatçı rejimin “möhürünü” onların pasportlarına vururdular. Guya, bununla onların yeni, müstəqil dövlətə gəldikləri “təsdiqlənirdi”. Bu isə həmin əcnəbilərin Azərbaycan ərazisinə birinci və sonuncu səfərləri olurdu. Əksəriyyəti sonradan Bakıdan üzrxahlıq edirdi. İndi buna son qoyulub.

Paşinyan hökumət üzvlərinin qarşısında dəbdəbəli bəyanatları səsləndirəndə, heç olmasa, beynəlxalq hüququ, dünya birliyini nəzərə alsın. Amma məsələ burasındadır ki, bu adamın nə düz əməlli savadı, nə də bacarığı var.

Dəfələrlə müşahidə etmişik ki, beynəlxalq platformalarda Prezident İlham Əliyevlə hər dəfə üz-üzə gələndə Nikol Paşinyan zəifliyi, cılızlığı, naşılığı ucbatından xar olur. Danışıqlar prosesində isə siyasi savadının nə qədər aşağı olduğu aşkar görünür.

# Bakının güzəşt limiti tükənib

## *Bundan sonra haylarla onların başa düşdüyü dildə danışmalı olacağıq*

(əvvəli 1-ci səhifədə)

Erməniləri öz iddialarında vəcdə gətirən Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokuroru Luis Moreno Okamponun hesabatı olub. Belə ki, təxminən iki həftə əvvəl qondarma rejimin tör-töküntüsünün başçısı Arayik Arutyunyan Luis Moreno Okampoya “Qarabağın blokadası”nın “soyqırımı”na müvafiq olub-olmaması barədə ekspert rəyi verməyi xahiş edib. Avqustun 7-də Beynəlxalq Cinayət Məhkəməsinin sabiq baş prokurorunun rəyi daxil olub. Hayların “görkəmli alim” adlandırdıqları Okamponun məruzəsi üç əsas hissədən ibarətdir. Sənəd “Qarabağda mövcud olan soyqırımı cinayəti”nin əsaslandırılmasına, “cinayətkarların müəyyən edilməsinə və araşdırılmasına”, habelə “cinayətin qarşısının alınması yollarına” həsr olunub.

Məsələyə münasibət bildirən Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmiz əleyhinə qərəzli hüquqi hesabatın müəllifi olan Luis Moreno Okamponun qeyri-qanuni fəaliyyətini ifşa edib. Bununla bağlı Hikmət Hacıyev “X” sosial şəbəkəsindəki səhifəsində paylaşım edib.

H.Hacıyev qeyd edib ki, Luis Moreno Okampo Beynəlxalq Cinayət Məhkəməsində baş prokuror vəzifəsində çalışarkən dünyanın ən bədnam vergi sığınacaqlarında yerləşən şirkətləri idarə edib.

“Okamponu İrəvanda Ermənistanın eks-prezidenti, Xocalı soyqırımını törədən hərbi cinayətkar, sərhə komandiri Serj Sarkisyanın özü çağırıayıb. “European Investigative Collaborations” şəbəkəsi Moreno Okamponun Liviyada hərbi cinayətkarları dəstəkləməkdə şübhəli bilinən müştərisinin olduğunu bildirirdi.

Bu cür qaranlıq keçmişə malik olan şəxs öz qərəzli hesabatında Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarını və Laçın yolunun fəaliyyəti ilə bağlı real vəziyyəti bilərəkdən təhrif edir, ciddi səhvlərə yol verir. Sadəcə “Şərhsiz!”, – deyə H. Hacıyev bildirib.

H.Hacıyevin istinad etdiyi “Media-Part”ın məqaləsinə əsasən, Luis Moreno Okampo onun ofşor maliyyə fəaliyyəti ilə bağlı suala cavabında Beynəlxalq Cinayət Məhkəməsindəki maaşının onun üçün “kifayət etmədiyini” bildirib.



“15 avqust 2012-ci ildə Luis Moreno Haaqadakı Beynəlxalq Cinayət Məhkəməsinin baş prokuroru vəzifəsindən istefa verdikdən cəmi iki ay sonra onun Niderlanddakı “Abn Amro” bank hesabına 50 min dollar məbləğində vəsait köçürülüb.

Baş prokurorun şübhəli keçmişinə əsas səbəb isə Beynəlxalq Cinayət Məhkəməsinin dünyanın ən qəddar kütləvi qətllər törədənləri təqib etməsidir. Bunlar istər insanlığa qarşı cinayət, istərsə də soyqırımı törətməkdə şübhəli bilinən yüksək rütbəli insanlar, dövlət başçıları, hərbi rəhbərlər, casuslar və başqalarıdır”, – deyə məqalədə bildirilir.

***

Məsələyə avqustun 11-də Rusiyanın tanınmış “Kommersant” qəzetində dərc olunmuş məqalədə də toxunulub. Yazıda Qarabağ ətrafında cərəyan edən proseslərin ümumi icmalı verilir. Moskvada vəziyyət çox mürəkkəb kimi qiymətləndirilir və hesab edirlər ki, Bakı güzəştə getmək niyyətində deyil. “Bizim, qərblilərin, beynəlxalq təşkilatların vəziyyəti birtəhər nizamlamaq cəhdlərimiz heç bir nəticə vermir. Bakı geri çəkilmir”, – “Kommersant”ın regiondakı vəziyyətlə tanış olan Rusiya dövlət orqanlarındakı həmsöhbəti deyib. Eyni zamanda, o qeyd edib ki, “dqr” hakimiyyəti də müqavimət göstərir.

Qəzetin həmsöhbəti buna misal olaraq Qarabağa tədarük üçün Bakının Ağdam vasitəsilə təklif etdiyi alternativ marşrut planını göstərib. Ancaq qeyd olunur ki, separatçılar bu təklifdən imtina ediblər.

“Kommersant”ın Rusiya dövlət strukturlarında həmsöhbəti son nəticədə Ağdamdan keçən yolun açılacağına inandığını bildirib. Onun sözlərinə görə, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov həm Azərbaycan tərəfinin, həm də Qarabağdakı etnik ermənilərin ilkin olaraq razılaşdıqları həll variantını təklif edib. Təklifin mahiyyəti ondan ibarət idi ki, Ağdamdan keçən yol açılır və Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə lazım olan hər şeyin oradan çatdırılmasına başlanılır. Ağdam–Xankəndi yolunda hərəkət başlanandan düz bir sutka sonra Moskvanın təklifinə əsasən Laçın yolunda da nəqliyyatın hərəkəti bərpa edilməli idi. “Kommersant”ın müsahibi deyir ki, bu variant yüksək hazırlıq vəziyyətində idi.

Amma onun sözlərinə görə, sonra Xankəndi şərt irəli sürüb ki, Laçın yolu 24 saat ərzində deyil, dərhal açılmalıdır. Sonra isə “dqr” bəyan edib ki, Azərbaycan mənşəli mallar Ağdamdan keçməməlidir. Bundan sonra Vaqif Xaçatryanın saxlanılması baş verib. Separatçı rejim onun dərhal azad edilməsini tələb edib. Nəticədə kompromiss əldə etmək mümkün olmayıb.

Məqalədə qeyd olunur ki, Qarabağdakı separatçı rejimin başçıları Bakıya təzyiqlərin artacağına ümid edirlər. Ancaq onlara ən yaxşı cavabı elə qəzetin özü verib. “Reallıq budur ki, regionda nüfuz uğrunda bir-biri ilə rəqabət aparan oyunçuların heç biri Azərbaycana şifahi təsir etməkdən kənara çıxmağa hazır görünmür. Rusiya, Avropa İttifaqı və ABŞ Bakı ilə İrəvan arasında potensial sülh müqaviləsini belə deyək, qorxutmamaq üçün ehtiyatlı davranır və paralel olaraq əsas sülhməramlı olmaq hüququ uğrunda yarışırlar”, – “Kommersant” qəzetinin məqaləsi bu sözlərlə bitir.

Bu arada beynəlxalq ekspert, Ceymstaun Fondu İdarə Heyətinin üzvü, ABŞ-nin Azərbaycandakı keçmiş səfiri Metyu Brayzanın verdiyi açıqlama maraq doğurur. O deyib ki, Ermənistanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində törətdiyi təxribatlar bu ölkənin siyasi dairələrinin İkinci Qarabağ müharibəsində məğlubiyyət faktını qəbul etməməsi ilə bağlıdır.

M.Brayza Laçın yolu ətrafındakı vəziyyətin şəxsən onu narahat etmədiyini bildirib və bunun səbəbini açıqlayıb: “Aydındır ki, Ermənistan Qarabağın statusu məsələsini yenidən gündəmə gətirmək məqsədi güdür. Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü, o cümlədən Qarabağ üzərində suverenliyini tanısa da, İrəvanın siyasi dairələrində və hakimiyyətdə hələ də bu faktı və İkinci Qarabağ müharibəsindəki məğlubiyyəti tanımaq istəməyənlər var”.

Ekspertin fikrincə, məhz buna görə də erməni tərəfi Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində “humanitar yük” daşımaq cəhdi kimi təxribat xarakterli addımlar atır.

M.Brayza qeyd edib ki, Azərbaycanın mövqeyi kifayət qədər başadüşüləndir: “Azərbaycan öz siyasi və mülki hüquqlarından istifadə edir və Ağdam yolu ilə humanitar yardımın daşınması kimi öz variantını təklif edir”.

“Düşünürəm ki, ölkələr arasında sülh prosesinin vasitəçiləri prosesin irəliləməsinə kömək edəcəklər. Bu vəziyyətdə əsas məqam sülh müqaviləsi məsələsində irəliləyişdir. Onun imzalanma ehtimalı nə qədər yüksək olarsa, prosesi ləngitmək və bunun qarşısını almaq istəyənlərin sayı da bir o qədər çox olacaq”.

Göründüyü kimi, ermənilərin Azərbaycana müxtəlif vasitələrlə təsir etmək və təzyiq göstərmək istəkləri puç olur. Onlar edilən beynəlxalq çağırışları eşitməli, Ağdam–Xankəndi yolunun açılmasına imkan yaratmalıdırlar. Onsuz da həmin yol açılacaq. Bütün proseslər buna doğru gedir. Azərbaycan tələsmir. Səbr və təmkinlə hərəkət edir. Üstəlik, yolun açılması ilk növbədə Qarabağ erməniləri üçün faydalı olacaq. Onlar yenə inaddan əl çəkərək konstruktivlik nümayiş etdirməlidirlər.

*Səxavət HƏMİD,*
*“Xalq qəzeti”*

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Azərbaycan Beynəlxalq Cinayət Məhkəməsinin üzvü deyil. Biz onun yurisdiksiyasını tanımırıq. Yəni ölkəmiz Roma Statutunu tanımır. Bu isə o deməkdir ki, məhkəmə hətta bizim əleyhimizə qərar qəbul edəcəyi təqdirdə belə, bunun bizə təsiri olmayacaq. Burada bir yol qalır. BMT Təhlükəsizlik Şurası Beynəlxalq Cinayət Məhkəməsinə bu işi xüsusi prokurorlar vasitəsilə verə bilər. Əslində, Luis Moreno Okampo onu qeyd edir ki, BMT TŞ bunu həll edə bilər. Onun fikrinin açması bundan ibarətdir ki, xüsusi prokurorlar vəsatət qaldıraraq bunu Təhlükəsizlik Şurasına göndərə bilər. Ancaq bu halda da Təhlükəsizlik Şurası BMT Nizamnaməsindən irəli gələn qərarlar verəcək. Nizamnamənin 51-ci maddəsi isə beynəlxalq hüquqla tanınan ərazilərimizdə legitim addımlar atmaq hüququmuzu tanıyır.

Biz BMT TŞ haqda danışarkən adətən, Fransadan bəhs edirik. Ancaq Rusiyanı da unutmaq olmaz. TŞ-dəki ermənipərəst təşəbbüslər hər zaman Rusiya tərəfindən də dəstəklənib. Üzdə görünən tərəf Fransa olsa da, arxa fonda Rusiyadır. Çünki Laçın sərhəd nəzarət-buraxılış məntəqəsini yaratmağımız həmin yolun üçtərəfli Bəyanatda təsbit olunan əhəmiyyətini azaldıb. Rusiya sülhməramlılarının yola nəzarəti imkanları sıfıra enib. Ona görə də ölkəmiz BMT TŞ-dəki müzakirələrə bağlı Rusiya tərəfi ilə apardığı işi intensivləşdirməlidir.



# Heydər Əliyev dərsləri

(əvvəli qəzetimizin ötən saylarında)

### "Bakıda torpaqlar dağıdılıb"

Heydər Əliyev torpaqdan düzgün istifadə edilməsinə xüsusi əhəmiyyət verir və deyirdi ki, dünyada torpaqdan qiymətli heç nə yoxdur. Ulu öndər bu barədə danışarkən demişdir:

– Heç kəs düşünməsin ki, Azərbaycan Prezidenti fərdi tikinti prosesinə maneçilik törətmək, yaxud onun qarşısını almaq istəyir. Yox! Mən istəyirəm ki, bizim o yaxşı inşaatçılar, son vaxtlar tikdikləri kimi, çoxmərtəbəli evlər tiksinlər. İstəyirəm ki, o pullu adamlar – o pulları haradan toplayıblarsa, öz vicdanları bilər – özlərinə yaxşı ev tiksinlər. Mən etiraz etmirəm. Ancaq dövlətin mənafeyinin pozulmaması şərtilə.

Dövlətin mənafeyi torpaqdır. Torpaqdan qiymətli dünyada heç nə yoxdur. Hər şeyi almaq, düzəltmək, tikmək olar. Amma Azərbaycanda yenidən bir hektar torpaq sahəsi yaratmaq olmaz. Əgər olanları biz bu cür məsuliyyətsiz, özbaşına buraxsaq ki, kim nə istəyir onu etsin… Ona görə də, mən birinci növbədə Bakının bütün rayonlarının icra hakimiyyəti başçılarının bu barədə fəaliyyətlərini pisləyirəm, onların işini qeyri-qənaətbəxş hesab edirəm. O cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin də. Hacıbala Abutalıbov gələndən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi, çox iş görüb və indi, yəqin ki, bu barədə ona böyük ittiham irəli sürmək düzgün olmazdı. Amma təəssüflər olsun ki, ondan öncəki dövrdə Bakıda torpaqlar dağıdılıbdır. İndi də bəzən mənimlə danışanda görürəm ki, öz gücsüzlüyünü göstərir. Filan icra hakimiyyəti başçısı etdi… Deyirəm, niyə qoyursan? Deyir, qadağan edirəm, sözümə baxmır. Soruşuram niyə? Deyir ki, yuxarıdan kimsə onu dəstəkləyir. Mən açıq söhbət edirəm. Kim dəstəkləyir? Kim yuxarıdan dəstəkləyir? Belə qanunsuz hərəkətləri Prezident Aparatından, Nazirlər Kabinetindən, Milli Məclisdən, haradan dəstəkləyirlər? Amma mən düşünmürəm ki, Abutalıbov bu barədə yalan məlumat verir. Gəlin danışaq, əgər bizim üçün Azərbaycan və onun paytaxtı Bakı hər şeydən əzizdirsə, torpaq bizim müstəqil Azərbaycanın ən yüksək sərvətidirsə, bunu ayrı-ayrı adamların marağına təslim etmək olarmı? Bu barədə hər kəs düşünməlidir

### "Sənin yanına 2 nəfər əlavə dayə də qoyaydım?"

Bəzi məmurlar ona göstərilən etimadı doğrultmadıqlarına görə ulu öndərin ciddi tənbeh və tənqid hədəfinə çevrilirdilər. Bunlardan birini təqdim edirik.

– Çörəklə təminat sahəsində yaranmış vəziyyət də, bəli, bu proseslərin nəticəsidir. Feyruz Mustafayev (Taxıl Məhsulları Dövlət Şirkətinin prezidenti – F.S.) burada indi and-aman edir ki, mən Heydər Əliyevi belə istəyirəm, belə istəmişəm. Buna mənim şübhəm yoxdur. Bəli, mən Azərbaycanda vaxtilə işləyəndə Feyruz Mustafayev mənim tərəfimdən irəli çəkilmiş və yüksək qiymətləndirilmiş bir adamdır. Raykom katibi oldu, fəxri adlar verildi və s. İndiki vəzifəyə də Feyruz Mustafayev mənim şəxsi təşəbbüsümlə təyin olunub. Onu məhz mən təklif etmişəm, başqa adam təklif etməyib. Ancaq mən Feyruz Mustafayevi bu cür məsul vəzifəyə təyin edəndə hesab edirdim ki, o, uzun müddət rayonlara rəhbərlik edib, kənd təsərrüfatı işini bilir, taxılçılıq işini bilir, başqa işləri bilir. Sonrakı dövrdə Nazirlər Kabinetində Aqrar-Sənaye Birliyində işləyib, Baş nazirin müavini olub, təcrübəli adamdır. Yaxşı, indi, Feyruz, bəs işin nəticəsi nə olub ? Yaxşı, mən səni bu vəzifəyə təyin edəndən sonra sənin yanına iki nəfər əlavə dayə də qoyaydım ? Əgər təcrübəsiz adam olsaydın, deyərdin ki, bəli, təcrübəm olmayıb. Sən həyat görmüsən, təcrübə keçmisən. Məhz o ağır sahəyə mən səni çağırdım. Dedim ki, get ora, ağır sahədir, burada oğurluq olub, qanunsuzluqlar var. İndicə burada deyildi ki, o vaxt biz gələndə orada on milyon dollarlıq müqavilə bağlanmışdı, onun hesabına bir qram da buğda gəlməmişdi. Dedim get otur, oranı düzəlt. İndi düzəltmək əvəzinə sən min cür bəhanə gətirirsən...

### "Guya böyük iş görülüb"

Bakıda Benəlxalq Bankın yeni binasının açılışında Heydər Əliyev banklar tərəfindən kreditlərin verilməsində və qaytarılmasında yol verilən nöqsanları ciddi tənqid etmişdi:

– Hər bir kredit ona görə verilir ki, bank bundan qazanc götürsün. Onu müəyyən faizlə verir və hər ay onun faizini almalıdır. Yaxud, hansı müddətə verirsə, onun faizini almalıdır. İndi faiz kənarda qalıb, verilən kreditin özünü qaytara bilmirlər. Bu qədər dəhşətli hallara yol vermək olarmı? Heç kəs güman etməsin ki, bunlar bağışlanacaq, heç kəs güman etməsin. Mən, ola bilər, bu sözləri bu yaxınlarda deyəcəkdim. Bu gün mənə yaxşı fürsət vermisiniz, mən bunları deyirəm və həm Beynəlxalq Bankın, həm Milli Bankın, həm Maliyyə Nazirliyinin, həm də başqa bankların rəhbərliyindən tələb edirəm ki, bu məsələləri tezliklə həll etmək lazımdır. Verilmiş kreditlər qaytarılmalıdır və banklar gələcəkdə yalnız sağlam prinsiplər əsasında fəaliyyət göstərməlidir. Bizim valyuta imkanlarımız onsuz da məhduddur. Bu, respublikamızın iqtisadiyyatında baş vermiş çətinliklərlə əlaqədardır. Bunun bir çox obyektiv səbəbləri vardır. Belə bir şəraitdə hər manat, dollar, sent bizim üçün əhəmiyyətlidir. Amma yüz minlərlə, yaxud milyonlarla kredit verirsiniz, mən də prokurorluq işçilərini səfərbər edirəm, üç-dörd ay bunu axtarsınlar ki, krediti alan bu adam hara gedib, haradadır, nə cür gedib, bunu qaytaraq, qaytaranda da mənə çox sevinclə məlumat versinlər ki, iki, üç milyon qaytardıq. Guya, böyük iş görülüb. Özümüz öz əlimizdə olan valyutanı yaramaz adamlara veririk, ondan sonra da nə qədər vaxt, iş sərf olunur ki, bunları geri qaytaraq. Kimdir günahkar? Bunun günahkarları bank işçiləridir, həmin bu bank işçilərinə havadarlıq edən, onlarla bu çirkin əlaqələrə girən adamlardır. Təəssüf ki, vəzifəli adamlar da bu çirkin əməllərə girirlər...

### Energetika rəisi elektrik enerjisinə pul vermir. Niyə?

Nəqliyyat xidmətində və kommunal xərclərin ödənilməsində güzəştlərin aradan ləğvi barədə hökumət məcburi qərar vermişdi. Ulu öndər tədbirlərin birində bu qərarın əsaslı olduğunun iştirakçıların diqqətinə çatdırmışdı:

– Bizdə son vaxtlara qədər, bu güzəştləri ləğv edənə qədər polis, prokurorluq işçiləri şəhər nəqliyyatından pulsuz istifadə edirdilər. Bilmirəm niyə indiyə qədər buna yol verilmişdir. Keçmişdə belə çıxırdı ki, bunlar dövlət işi ilə məşğuldurlar, ona görə də pulsuz gedirlər. Biz bunu ləğv etdik. Amma mən Moskvada olanda öyrəndim ki, nəinki polis, prokurorluq və ya digər inzibati orqanların işçiləri, hətta bütün hərbi qulluqçular şəhər nəqliyyatından pulsuz istifadə edirlər. Mənə dedilər ki, Moskvada şəhər nəqliyyatından, ola bilər ki, 80 faiz camaat pulsuz istifadə eləyir, cəmi 20 faizi pul verir. İndi ola bilər, Moskva şəhərinin, yaxud digər şəhərlərin başqa iqtisadi imkanları var ki, onlar dotasiyanı verirlər, nəqliyyatı saxlayırlar. Amma bu da daimi deyil. Bunu çox saxlaya bilməyəcəklər. Bu, mümkün deyil. Ona görə də biz bu güzəştləri ləğv etdik. Tamamilə düz etmişik və bunu da düzgün başa düşmək lazımdır. Eşitmişəm ki, bəzi ayrı-ayrı qüvvələr istəyirlər ki, bu təbəqələrdən istifadə etsinlər, bunları qızışdırsınlar, bunlar bir hay-küy salsınlar. Bunlar əhəmiyyətsizdir. Çünki bu insanlar bizim siyasətimizə, o cümlədən iqtisadi siyasətimizə də, sosial siyasətimizə də inanırlar. Əgər kimisə yoldan çıxaracaqlarsa, biz onların da qarşısını almağa qadirik. Mən hesab edirəm ki, çox düzgün iş görmüşük və bunun da nəticələri alınacaqdır. Bu nə cür ola bilər? Rasizadə dəfələrlə gəlib mənə danışır ki, Müslüm İmanov – energetika sisteminin rəisi elektrik enerjisinə pul vermir. Niyə vermir? Çünki arvadı müəllimədir. Yaxud, böyük bir biznesmen bilmir pulu hara qoysun, amma elektrik pulu vermir, çünki arvadı müəllimədir. Bilirsiniz, bunlar tək-tək hallar deyil, bəlaları çoxdur. Ailədə 5-6 adam var, biri biznesmendir, biri başqa yerdə işləyir, yaxşı məvacib alır, amma biri müəllimdir, ya müəllimədir, – onun hesabına bunlar elektrik enerjisinin pulundan, ya qaz pulundan, başqa şeylərdən, – hamısından azaddırlar. Bu, ədalətlidirmi belə? Ədalətli deyil! Biz müəllimlərin məvacibini artırdıq, o cümlədən Müslüm İmanovun arvadının məvacibini artırdıq. Amma Müslüm İmanov elektrik enerjisinin pulunu verməlidir. O biznesmenin də arvadının məvacibini artırdıq. Amma o biznesmen də elektrik enerjisinin, yaxud başqa məişət xidmətinin pullarını verməlidir.

### Yığışdırmaq lazımdır

Müşavirələrin birində Heydər Əliyev nəqliyyatın normal hərəkətinə süni maneələrə də toxunmuş və onların aradan qaldırılması barədə konkret tapşırıqlar vermişdi:

– Ona görə də bu postlar məsələsinə Daxili İşlər Nazirliyi baxmalıdır. Sonra, deyir, bizim Milli Təhlükəsizlik Nazirliyi də post qoyur, başqaları da qoyurlar. Onlar da buna baxmalıdır və o postlar, hansı ki, doğrudan da, cinayətkarların qarşısının alınması üçün, axtarılıb tapılması üçün lazımdır, – onlar olmalıdır, amma qalanları olmamalıdır. Yığışdırmaq lazımdır. Buradan Dağıstan sərhədinə qədər, hələ Camalova cənubu dedi, şimalda da belədir. Yaxud, buradan Gürcüstan sərhədinə qədər, Gəncədən Qazaxa qədər, – orada da belədir. Bunlar hamısı bizim həm iqtisadiyyatımıza zərər verir, həm insanlara zərər verir. Ayrı-ayrı adamlara qeyri-qanuni gəlir gətirir, ancaq ümumi işimizə tamam zərər verir. Bunları aradan götürmək lazımdır. Mən tələb edirəm və bizim aparata tapşırıram ki, siz bunların hamısına nəzarət edin: – həm o yoxlamaların aradan götürülməsinə, həm də bu məsələlərə. 10-15 gündən sonra mənə bu barədə rəsmi məlumat verin.

### Bunu təsəvvür etmək mümkün deyil

Çıxışlarının birində ulu öndər Dağlıq Qarabağın işğalını şərtləndirən səbəblərin analitik təhlilini vermişdir:

– Təsəvvür etmək mümkün deyil ki, Azərbaycanın ərazisində – Dağlıq Qarabağda olan yüz minə qədər erməni əhalisi onu əhatə edən milyonlarla azərbaycanlı əhalidən güclü oldu və Dağlıq Qarabağdan azərbaycanlıları zorla çıxardı. Xankəndidən azərbaycanlıları zorla çıxardılar və azərbaycanlılar həmin yüz min erməninin əlində aciz qaldılar. Bunu təsəvvür etmək mümkün deyil. Bunlar hamısı o səbəbdən meydana gəldi ki, bir tərəfdən, Azərbaycanı idarə edənlər öz xalqına xəyanət etdilər, ikinci tərəfdən də ayağa qalxmış xalqın milli azadlıq hərəkatından ayrı-ayrı adamlar öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışdılar. Hamısı birləşib Ermənistan təcavüzünün əleyhinə getmək əvəzinə, Azərbaycanın daxilində hakimiyyət mübarizəsi, çəkişmələr, qruplaşmalar getdi.

Bəzən mən soruşuram: Necə oldu ki, Dağlıq Qarabağda ermənilər bir günün içərisində qalxdılar və Azərbaycan Respublikasına tabe olmadıqlarını elan etdilər? Bu, necə oldu? Azərbaycan Respublikasının – həm hərbi gücü, həm də insani gücü var idi ki, onları öz yerlərində oturtsun. Deyirlər ki, guya, artıq ermənilərin əlində silah var idi. Bəs azərbaycanlıların əlində silah niyə yox idi? Ermənistan silahlanmağa başladı. 1989-cu ildə bütün Sovetlər İttifaqının mətbuat, informasiya orqanları bağırırdılar ki, Ermənistanda qeyri-qanuni silahlı dəstələr var. Hətta o vaxt Qorbaçov prezident kimi Ermənistanda olan silahlı dəstələrin dağıdılması, tərksilah olunması haqqında bir fərman da verdi. Doğrudur, bir neçə aydan sonra özü onu ləğv etdi. Bəs Ermənistan o qədər silahlanırdısa, Azərbaycanda düşünmək lazım deyildimi ki, bunlar nə üçün silahlanırlar? Bunlar kimə qarşı silahlanırlar – Rusiyayamı qarşı, qonşu Türkiyəyəmi, İranamı, Gürcüstanamı qarşı? Yox, Azərbaycana qarşı silahlanırdılar. Bəs nə üçün o illər, o aylar, o günlər həmin proseslərə lazımi qiymət verilmədi? Azərbaycan Ermənistanda olan vəziyyətə uyğun özü üçün bir şərait yaratmadı, öz torpaqlarını müdafiə etməyə qadir olmadı? Nə üçün? Sonra Azərbaycanda da silahlar meydana gəldi. Amma o silahların çoxu daxili çəkişməyə, vuruşmağa yönəldildi.

Şübhəsiz ki, Moskvanın – Sovetlər İttifaqının o vaxtkı rəhbərliyinin Azərbaycana və Ermənistana münasibətləri fərqli idi. Mən bunu keçmişdə də dəfələrlə demişəm, indi də deyirəm ki, Azərbaycana ögey, Ermənistana isə doğma münasibət var idi. Bu, tarixi həqiqətdir. Təsadüfi deyil ki, o illərdə, məsələn, 1989-cu ildə Azərbaycanda da, Ermənistanda da insanlar mitinqlər keçirirdilər. Ancaq 1990-cı ilin yanvar ayında Azərbaycana sovet ordusunun qoşun hissələri yeridildi. Azərbaycana qarşı Ermənistanın təcavüzündən savayı, sovet ordusunun da təcavüzü baş verdi. Amma Ermənistanda gedən mitinqlər üçün Ermənistana heç bir qoşun hissəsi yeridilmədi, heç bir qırğın da olmadı. Bu, o vaxt mərkəzin Azərbaycana və Ermənistana olan münasibətlərinin fərqini aşkar göstərir.

(ardı var)

**Faiq SADIQOV,**
*Əməkdar jurnalist*

## Ulu öndərə həsr olunmuş Azərbaycan Dili və Ədəbiyyatı Forumu

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində sentyabrın 2-4-də ölkəmizdə ilk dəfə olaraq Azərbaycan Dili və Ədəbiyyatı Forumu keçiriləcək.**

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə hazırlanan məclis tanınmış dilçi və ədəbiyyatşünas alimlərin, yazıçı və naşirlərin iştirakı ilə sentyabrın 2-də Azərbaycan ədəbiyyatına və mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş etmiş Şamaxı şəhərində başlayacaq, sentyabrın 3–4-də isə Bakı şəhərində davam edəcək.

Ədəbi-elmi ictimaiyyətin iştirakı ilə geniş müzakirələrin aparılacağı forumda mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatın rolu, Azərbaycan dilinin saflığının qorunub saxlanılması, müasir ədəbi proseslər, ölkəmizdə uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri, milli kitab sənayesinin hazırkı vəziyyəti və bu sahəyə dövlət dəstəyi, uşaq və yeniyetmələr arasında mütaliənin təbliği, teatr və kinonun inkişafında ədəbiyyat faktoru və




digər istiqamətlərdə diskussiyalar olacaq.

Mütəxəssislərin forum çərçivəsindəki fikir və təklifləri ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti – 2040" Dövlət Proqramında öz əksini tapacaq.

Azərbaycan Dili və Ədəbiyyatı Forumunda iştirak etmək istəyən şəxslər avqustun 25-dək Mədəniyyət Nazirliyinin "culture.gov.az" rəsmi internet saytında yerləşdirilən onlayn müraciət forması vasitəsilə qeydiyyatdan keçə bilərlər.

"Xalq qəzeti"

## Bolqar jurnalının Heydər Əliyev barədə nömrəsi

**Bolqarıstanın https://www.bta.bg xəbər portalında yayımlanan məqalədə müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin multikultural siyasi kursunun ölkəmizdə yüksək səviyyədə davam etdirilməsindən və Azərbaycandakı bolqar icmasına yaradılmış şəraitdən söhbət açılıb.**

Diasporla İş üzrə Dövlət Komitəsindən qəzetimizə bildirilib ki, məqalədə Azərbaycan–Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyinin rəhbəri, "Akkord" jurnalının baş redaktoru Mariya Hüseynova-Atanasovanın mülahizələrinə geniş yer verilib. Azərbaycanı və Bolqarıstanı iki doğma ölkəsi adlandıran birlik rəhbəri və baş redaktor Gəncədə dünyaya göz açıb. Onun əcdadları Zaporojyedəki bolqar icmasından olub, lakin aclıq başlayandan sonra Azərbaycanın ən iri şəhərlərindən biri sayılan Gəncəyə köçüblər. Bolqar dilini ona öyrədən nənəsi deyib ki, məhz Gəncədə onlara çörək, iş verilib və yaşamaq üçün ev ayrılıb.

Mariya Hüseynova-Atanasova nəzərə çatdırıb ki, Azərbaycanda yaşayan etnik icmalara öz milli kimliyini, dillərini və adət-ənənələrini qoruyub saxlamaq üçün bütün şərait yaradılıb: "Mən çox minnətdaram ki, biz Azərbaycanda dilimizi, milli kimliyimizi, adət-ənənələrimizi, dinimizi qoruyub saxlayırıq. Heç kim bizə heç bir vaxt mane olmur. Mən Azərbaycanla Bolqarıstan arasında çoxlu ümumi cəhətlər görürəm".

Müəllif bildirib ki, 2005-ci ildən mövcud olan "Akkord" jurnalı artıq 18 ildir bolqar dilində dərc olunur. Jurnalın son nömrəsi isə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub: "Heydər Əliyev müstəqilliyimizin memarıdır. Biz dinc şəraitdə yaşayırıq. Mən şahidəm. Prezidentimiz İlham Əliyev də Heydər Əliyevin siyasi kursunun davamçısıdır".



Azərbaycan Slavyan Universitetinin nəzdində bolqar dili və Mədəniyyəti Mərkəzinin fəaliyyət göstərdiyi, həmin mərkəzdə mübadilə proqramı üzrə Azərbaycana gəlmiş Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində bolqar dilini tədris edən müəllimin çalışdığı, bolqar dilində yaxşı danışan nəvəsi Əmir Əlizadənin hazırda Bolqarıstanın Sofiya Universitetində təhsil aldığı vurğulanıb.

Qeyd edək ki, Bolqarıstanın Milli Radiosunun da qonağı olan birlik sədri və baş redaktor paytaxt Sofiyadakı rəsmi və ictimai qurumlarda bir sıra görüşlər keçirib. "Heydər Əliyev İli" çərçivəsində Ulu öndərə həsr olunmuş "Akkord" jurnalının son buraxılışını bolqar ictimaiyyətinə təqdim edib.

"Xalq qəzeti"

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 279** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında" 1998-ci il 29 may tarixli 120 nömrəli, "Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydalarının təsdiq edilməsi haqqında" 1998-ci il 21 avqust tarixli 175 nömrəli, "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ölçmə vasitələrinin yoxlanılması və məlumatların sertifikatlaşdırılması Qaydası haqqında" 1998-ci il 15 oktyabr tarixli 205 nömrəli, "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydaların təsdiq edilməsi haqqında" 1999-cu il 31 may tarixli 87 nömrəli, "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydalarının təsdiq edilməsi haqqında" 1999-cu il 21 iyun tarixli 103 nömrəli və "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 289 nömrəli Fərmanının icrası haqqında" 2000-ci il 26 sentyabr tarixli 176 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 may tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 5, maddə 361; 2001, № 7, maddə 512; 2004, № 4, maddə 287; 2006, № 5, maddə 472; 2009, № 10, maddə 852; 2014, № 6, maddə 736, № 7, maddə 922, № 12, maddə 1676; 2015, № 7, maddə 894; 2016, № 5, maddə 955, № 11, maddə 1960; 2022, № 10, maddə 1209) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları" üzrə:

1.1.1. preambulada "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin Antiinhisar siyasəti şöbəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

1.1.2. 4-cü hissədə "ANTİİNHİSAR KOMİTƏSİNİN" sözləri "ANTİİNHİSAR ORQANININ" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərara 1, 4-9 nömrəli, 10 nömrəli (hər iki halda), 11 və 12 nömrəli əlavələrdə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 558; 2004, № 3, maddə 193, № 9, maddə 750; 2005, № 7, maddə 665, № 10, maddə 978, № 12, maddə 1226; 2006, № 9, maddə 822, № 12, maddə 1163; 2007, № 1, maddə 49, № 10, maddə 1013; 2009, № 1, maddə 32; 2014, № 6, maddə 747; 2018, № 8 maddə 1817, № 11, maddə 2448; 2019, № 1, maddə 154; 2022, № 4, maddə 390) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları"nın mətni üzrə ismin müvafiq hallarında "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 626; 2004, № 3, maddə 193; 2005, № 1, maddə 49; 2009, № 1, maddə 32; 2018, № 8, maddə 1817) ilə təsdiq edilmiş "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ölçmə vasitələrinin yoxlanılması və məlumatların sertifikatlaşdırılması Qaydası"nın 2-ci, 3-cü, 5-ci və 8-ci hissələrində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 31 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 336; 2006, № 9, maddə 822; 2008, № 5, maddə 432; 2010, № 1, maddə 49; 2016, № 4, maddələr 771, 832; 2018, № 8, maddə 1817; 2021, № 9, maddə 1084; 2022, № 11, maddə 1344) ilə təsdiq edilmiş "Qaz paylayıcıları tərəfindən qaz təchizatının ümumi şərtlərini təyin edən Qaydalar"ın 4.1.3-cü yarımbəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 381; 2002, № 11, maddə 675; 2004, № 9, maddə 750, № 12, maddə 1077; 2006, № 9, maddə 822; 2007, № 2, maddə 185; 2008, № 5, maddələr 430, 432; 2009, № 9, maddələr 738, 757, № 10, maddə 857; 2014, № 1, maddə 57, № 6, maddə 747; 2015, № 5, maddə 662; 2016, № 4, maddə 833; 2018, № 4, maddə 798, № 8, maddə 1817; 2019, № 1, maddə 154; 2020, № 5, maddə 644; 2022, № 4, maddə 385) ilə təsdiq edilmiş "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nın 4.11-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 702; 2006, № 11, maddə 990; 2019, № 3, maddə 531; 2021, № 3, maddə 282) ilə təsdiq edilmiş "Qaçqın və məcburi köçkün qadınların münasib işlə təmin edilməsi Proqramı"nın 7-ci hissəsinin "İcraçılar" sütununda "Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 280** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi haqqında" 2002-ci il 26 avqust tarixli 140 nömrəli, "Elektrik enerjisindən istifadəyə görə bir sıra birinci dərəcəli istehlakçıların, məskunlaşmamış qaçqın və məcburi köçkünlərin istehlak etdikləri elektrik enerjisi dəyərinin ödənilməsinin tənzimlənməsi barədə" 2003-cü il 10 iyun tarixli 80 nömrəli, "Şəhərsalma fəaliyyətini tənzimləyən norma və qaydaların təkmilləşdirilməsi haqqında" 2008-ci il 18 sentyabr tarixli 217 nömrəli, "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2009-cu il 8 yanvar tarixli 5 nömrəli, "Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə" 2010-cu il 6 mart tarixli 45 nömrəli və "Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2010-cu il 30 avqust tarixli 159 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 26 avqust tarixli 140 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 551; 2005, № 11, maddə 1076; 2009, № 10, maddə 846) 3-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**2.** "Elektrik enerjisindən istifadəyə görə bir sıra birinci dərəcəli istehlakçıların, məskunlaşmamış qaçqın və məcburi köçkünlərin istehlak etdikləri elektrik enerjisi dəyərinin ödənilməsinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 10 iyun tarixli 80 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 348; 2006, № 1, maddə 59, № 7, maddə 647; 2009, № 10, maddə 846; 2014, № 1, maddə 69, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2017, № 1, maddə 125) 5-ci hissəsinin ikinci abzasından "Əmlak Məsələləri Dövlət Komitəsinə," sözləri çıxarılsın.

**3.** "Şəhərsalma fəaliyyətini tənzimləyən norma və qaydaların təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 sentyabr tarixli 217 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 864; 2009, № 1, maddə 32; 2018, № 8, maddə 1817; 2019, № 8, maddə 1469) 1.2-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 8 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2009, № 1, maddə 26; 2014, № 2, maddə 201, № 3, maddə 311; 2016, № 5, maddə 955; 2018, № 8, maddə 1817, № 11, maddə 2425; 2020, № 2, maddə 188) ilə təsdiq edilmiş "Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının istehsalı Qaydaları, habelə ekoloji təmiz kənd təsərrüfatında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin siyahısı"nın 3.1-ci bəndində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**5.** "Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 mart tarixli 45 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 256; 2014, № 1, maddə 69; 2016, № 10, maddə 1704; 2018, № 8, maddə 1817) 3-cü hissəsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 avqust tarixli 159 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 768; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2018, № 8, maddə 1817; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları"nın 2.4-cü bəndinin birinci abzasından ", Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 283** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fövqəladə hallar orqanları əməkdaşlarının sosial və maddi təminatı haqqında" 2011-ci il 4 may tarixli 67 nömrəli, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın və "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə" 2012-ci il 12 yanvar tarixli 5 nömrəli, "Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 2 may tarixli 92 nömrəli, "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nın təsdiq edilməsi haqqında" 2015-ci il 3 iyun tarixli 211 nömrəli, "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 618 nömrəli və "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"in təsdiq edilməsi haqqında" 2019-cu il 8 avqust tarixli 349 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441; 2014, № 2, maddə 213; 2017, № 4, maddə 620; 2019, № 3, maddə 514, № 4, maddə 761; 2021, № 11, maddələr 1283, 1290, № 12, maddə 1533; 2022, № 4, maddə 423) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası"nın 2.1.10-cu yarımbəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**2.** "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın və "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 29; 2013, № 8, maddələr 999, 1033; 2014, № 5, maddə 561, № 6, maddə 747; 2016, № 8, maddə 1453, № 9, maddə 1585; 2017, № 1, maddə 122, № 5, maddə 963, № 10, maddə 1880, № 11, maddə 2185; 2018, № 3, maddə 616, № 11, maddə 2449; 2019, № 1, maddə 163, № 12, maddə 2070; 2020, № 8, maddə 1132; 2021, № 5, maddə 518, № 9, maddə 1083; 2022, № 4, maddə 386, № 8, maddə 1024) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın 5.5.2-ci yarımbəndində "Vergilər Nazirliyində" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin 6-cı hissəsinin "Dövlət orqanı" sütununda "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 466; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955) ilə təsdiq edilmiş "Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası"nın 2.2.3-cü yarımbəndindən ", Azərbaycan Respublikası Vergilər Nazirliyinin" sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784; 2016, № 3, maddə 616, № 4, maddə 775; 2017, № 9, maddə 1727; 2018, № 6, maddə 1371; 2021, № 4, maddə 417, № 9, maddələr 1063, 1067) ilə təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.10-cu bənddə "Vergilər Nazirliyi (bundan sonra – Vergilər Nazirliyi)" sözləri "İqtisadiyyat Nazirliyi (bundan sonra - İqtisadiyyat Nazirliyi)" sözləri ilə əvəz edilsin;

4.2. 2.2.18-ci yarımbənddə "Vergilər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra – Dövlət Vergi Xidməti)" sözləri ilə əvəz edilsin;

4.3. 2.2.30-cu, 3.6.9.1-ci (hər üç halda) yarımbəndlərdə, 6.1-6.4-cü bəndlərdə "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.4. 2.2.34-cü yarımbənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – İqtisadiyyat Nazirliyi)" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.5. 6-cı hissədə "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.6. 6.6-cı bəndin birinci cümləsində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə, ikinci cümləsində "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə və "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin;

4.7. 6.8-ci bəndin ikinci cümləsində, 6.10-cu, 6.13-cü, 6.15-ci (hər iki halda), 6.16-cı (hər iki halda), 6.17-ci (hər üç halda), 6.18-ci (hər üç halda), 6.19-cu (hər üç halda) bəndlərdə ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri ismin müvafiq hallarında "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin;

4.8. 6.20-ci bənddə "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.9. 6.23-cü bənddə "Vergilər Nazirliyinin" sözləri "Dövlət Vergi Xidmətinin" sözləri ilə və "Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.10. 7-ci hissədə "Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri "Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

4.11. 7.1-7.4-cü bəndlərdə "Vergilər Nazirliyi" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 618 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2563; 2019, № 7, maddə 1321; 2021, № 3, maddə 279) ilə təsdiq edilmiş "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın 2.1-ci bəndində "Vergilər Nazirliyindən" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 349 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1456; 2022, № 3, maddə 271) ilə təsdiq edilmiş "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"in 2.7-ci bəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakı–Tbilisi–Qars: Şərqlə Qərb arasında "Dəmir İpək yolu"

## Bu marşrutla indiyədək 2 milyon tona yaxın yük daşınıb, sərnişindaşıma isə yaxın vaxtlara planlaşdırılıb




(əvvəli 1-ci səhifədə)

BTQ dəmir yolunun fəaliyyəti ilə bundan sonra yolboyu yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq, yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. BTQ dəmir yolu sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Yolun istifadəsi zamanı turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkəmizin geosiyasi əhəmiyyətini artıracaq və Azərbaycan üçün əlavə imkanlar yaradacaq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BTQ dəmir yolunu üç ölkəni bir-birinə möhkəm bağlayan "Dəmir İpək yolu" adlandırıb. Bildirib ki, sözügedən layihə həm bir tərəfdən Mərkəzi Asiya və Çini, digər tərəfdən Avropanı Qafqazda qovuşduracaq.

Rəcəb Tayyib Ərdoğan regional əməkdaşlıqda Bakı–Tbilisi–Ceyhan neft kəmərini birinci, Bakı–Tbilisi–Ərzurum layihəsini ikinci, Bakı–Tbilisi–Qars layihəsini isə üçüncü vacib addım kimi qiymətləndirib: "Ancaq bu həmrəylik sadəcə regional əməkdaşlıqla məhdudlaşmır. Eyni zamanda, bu dəmir yolu üzərindəki hər bir stansiya bir sülh stansiyası, dostluq və həmrəylik stansiyası olaraq dünyaya mesajını verir".

Ötən müddətdə Şərq–Qərb Dəhlizinin əsas alternativi olan Bakı–Tbilisi–Qars dəmir yolu marşrutu Azərbaycan ərazisindən yükdaşımaların həcmini xeyli artmasında mühüm rol oynayıb. Gürcüstanın Poti və Batumi limanlarına alternativ kimi, Bakı-Tbilisi-Qars dəmir yolu Aralıq dənizindəki limanlara və Avropa bazarlarına fasiləsiz çıxışı təmin edib, Şərq-Qərb dəhlizi boyunca əlaqəni daha da yaxşılaşdırıb.

Yeri gəlmişkən, hazırda Gürcüstanın "BM.ge" biznes–portalının yaydığı məlumata əsasən, hazırda Bakı–Tbilisi–Ankara sürət qatarının xəttə buraxılması imkanları nəzərdən keçirilir. Bildirilir ki, marşruta "Stadler Rail Group" şirkətinin istehsalı olan yataq tipli vaqonlardan ibarət qatarların buraxılması planlaşdırılır.

Məlumatda, həmçinin 2017-ci ildən fəaliyyət göstərən Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti ilə ötən dövr ərzində yalnız yük daşınmalarının həyata keçirildiyi qeyd edilir və keçən ilin avqustunda Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyənin aidiyyəti qurumlarının rəhbərlərinin üçtərəfli görüşündə türkiyəli nazir Adil Karaismailoğlunun sözləri xatırladılır: "Biz həmişə malların hərəkətini nəzərə alırıq. Qarşıdakı illərdə isə lazımi infrastruktur olduğu halda niyə sərnişindaşıma haqqında düşünməyək?!".

Yeri gəlmişkən, buna qədər də rəsmi strukturlar tərəfindən BTQ dəmir yolu ilə sərnişindaşıma üçün ciddi tədbirlər həyata keçirildiyi barədə fikirlər səsləndirilirdi. Hətta bu məqsədlə "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən uyğun sərnişin vaqonlarının hazırlanması üçün sifariş verildiyi də bildirilirdi. Eyni zamanda, texniki şərtlərin icrasının diqqətdə saxlanıldığı, bu əməliyyatın yekunlaşmasından sonra bir ölkə ərazisindən digərinə keçərkən qatarların hərəkəti təkərlərin dəyişdirilməsi üçün vaxt itkisinə yol vermədən və bir ölçüdən digərinə keçid olmadan həyata keçirilə biləcəyi vurğulanır, beləliklə, ilkin mərhələdə sərnişindaşımanın Türkiyənin Qars şəhərinədək olan əraziləri əhatə edəcəyi, daha sonra isə marşrutun Ankaraya qədər uzadılacağı deyilirdi.

O zaman, hətta Türkiyə Dəmir Yolları qatarlarda gediş haqqının məbləği ilə bağlı məlumat da yaymışdı. Eyni zamanda, qatarın çatma vaxtının 40 saatdan bir qədər çox ola biləcəyi göstərilir, vaqonların kateqoriyasından asılı olaraq qiymətlərin isə 350-800 TL (97-220 AZN) olması planlaşdırılırdı.

Lakin bütün bu deyilənlərə baxmayaraq, hələlik dəmir yolu ilə sərnişindaşımada heç bir irəliləyiş nəzərə çarpmır. Buna baxmayaraq, prosesin yaxın gələcəkdə gerçəkləşməsinə böyük ümid bəslənilir. "BM.ge" biznes–portalının yaydığı məlumat da istəyin reallaşmasına ciddi yanaşılmasından xəbər verir.

Xatırladaq ki, BTQ 2017-ci il oktyabrın 30-dan fəaliyyət göstərir. Marşrut Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin–Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Ümumi uzunluğu 846 kilometr olan xəttin 504 kilometrlik hissəsi Azərbaycan, 263 kilometrlik hissəsi Gürcüstan, 79 kilometrlik hissəsi isə Türkiyə ərazisindədir. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton, bundan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

BTQ magistralı boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu getdikcə artır, əməkdaşlıq dərinləşir. Beləliklə, sözügedən marşrut sabitliyə və təhlükəsizliyə xidmət göstərir, ən başlıcası isə Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və respublikamızın inkişafı üçün əlavə imkanlar yaradır. Bu fikri statistik göstəricilər də təsdiqləyir. Belə ki, 2017–2022-ci illərdə BTQ dəmir yolu xətti ilə 1 milyon 347 min 585 ton, təkcə 2022-ci ildə isə 432 min 284 ton yük daşınıb.

Avropa və Asiya arasında ən qısa və etibarlı yol statusuna malik BTQ fəaliyyətə başladığı vaxtdan bölgədə biznes mühitinin daha da inkişaf etməsinə, ölkələr arasında qarşılıqlı etimadın artırılmasına və qonşuluq münasibətlərinin möhkəmləndirilməsinə xidmət edir. Layihənin açılışı region üçün tarixi hadisə olmaqla yanaşı, həm də Azərbaycan, Gürcüstan və Türkiyə əlaqələrində yeni mərhələnin başlanğıcı idi. Geridə qalan 5 il bunun nə qədər haqlı olduğunu sübut edir.

BTQ dəmir yolu xətti layihəsi Azərbaycanın Türkiyə və Gürcüstanla səmərəli əməkdaşlığının məntiqi nəticəsi olan Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi birgə layihələrin davamı idi. Layihənin həyata keçrilməsi böyük geosiyasi önəm daşıdığından Azərbaycana qarşı qısqanclıqla yanaşan bəzi xarici dairələr tərəfindən onun tikintisinə müxtəlif yollarla çətinliklər törətməyə çalışılırdı. Lakin Azərbaycan, Gürcüstan və Türkiyənin güclü iradəsi və qarşılıqlı dəstəyi sayəsində layihənin reallaşdırılması mümkün oldu.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**



Şərqlə Qərb arasında Dəmir İpək Yolu kimi adlandırılan Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycanın Orta Dəhliz üzərində yerləşən ən önəmli nəqliyyat hablarından birinə çevrilməsinə xidmət edir. Bu məqsədlə respublikamızda dəmir yolu və liman infrastrukturu davamlı olaraq təkmilləşdirilir, gömrük xidmətində şəffaflığın və operativliyin artırılması üçün islahatlar həyata keçirilir. Təsadüfi deyil ki, Azərbaycan mövcud potensialı sayəsində bu gün qlobal çağırışların öhdəsindən uğurla gələ bilir.

Strateji əhəmiyyətə malik BTQ marşrutu Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Dövlətimizin başçısı hələ BTQ dəmir yolunun açılış mərasimində çıxışı zamanı layihənin qlobal əhəmiyyət daşıyacağı mesajını verərək infrastrukturun tarixi qlobal təşəbbüs olduğunu deyib. Bu layihə ölkələri bir-birinə daha yaxın edir, bölgədə sabitliyin, təhlükəsizliyin təminatına mühüm təsir göstərir, eyni zamanda, layihə iştirakçısı olan ölkələrin iqtisadi imkanlarını artırır.

Dövlətimizin başçısının sözləri ilə desək, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olub. Heç bir yerdən heç bir yardım, heç bir kredit alınmadan daxili imkanlar hesabına bu yol tikilərək istifadəyə verilib.

Həm geosiyasi, həm də iqtisadi anlamda Azərbaycanın mövqeyinin gücləndirilməsinə xidmət edən bu layihənin əhəmiyyəti hazırkı beynəlxalq şəraitdə özünü daha qabarıq büruzə verir. Ukraynada davam edən müharibə fonunda Qərbin Moskvaya tətbiq etdiyi sanskiyaları və Rusiya ərazisindən yan keçən yeni dəhlizlər axtarışına çıxması Orta Dəhlizin və bu marşrut üzərində yerləşən Azərbaycanın nəqliyyat və logistika imkanlarını getdikcə genişləndirir.

Yeni qlobal çağırışlar respublikamızın avtomobil yollarının, dəmir yolu infrastrukturunun, eləcə də BTQ marşrutunun əhəmiyyətini artırır. Ötən illərdə həyata keçirilən infrastruktur layihələri sayəsində Azərbaycan hazırda bu çağırışlara ən çox hazır olan ölkələr sırasındadır.

# BP-nin region üzrə xərcləri 10 faiz artıb

**Bu ilin birinci yarısında BP-nin Azərbaycan–Gürcüstan–Türkiyə regionu üzrə yerli şirkətlərlə birbaşa və regionda fəaliyyət göstərən xarici podratçılarla imzaladığı müqavilələr üzrə yerli işçi qüvvəsinə (xidmətlərə) və materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri 718,5 milyon ABŞ dolları təşkil edib, bu da illik müqayisədə 10 faiz artım deməkdir.**



BP-nin (layihənin operatoru) Azərbaycanda apardığı əməliyyatlar üzrə bu ilin birinci yarısının nəticələrinə dair dərc etdiyi hesabata istinadən verdiyi məlumata görə, yanvar-iyun ayalrında şirkət yerli tərəfdaşı olan 14 birgə müəssisə çərçivəsində 356 milyon dollar xərcləyib.

Hesabata görə, şirkət birinci yarımildə xarici podratçıların ölkə daxilində məsrəflərinə (91 şirkət üzrə) 172,4 milyon dollar xərcləyib. Bundan başqa, hesabat dövründə BP-nin 195 kiçik və orta müəssisə üzrə xərcləri 167,8 milyon dollar, 18 dövlət şirkəti üzrə xərcləri isə 22,3 milyon dollar təşkil edib.

# Dövlət borcu ilə bağlı yeni hədəf

**Prezident İlham Əliyev 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiqlədiyi "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"da dəyişiklik edib. Dövlət başçısı bununla bağlı yeni sərəncam imzalayıb. Sənədə əsasən, 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizi, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qarşıya mühüm vəzifə kimi qoyulub.**



Xatırladaq ki, indiyə qədər hədəf 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 20 faiz, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10 faiz ətrafında saxlanılması idi.

# Yerli ərzaq məhsulu istehsalına vergi güzəşti

**Yerli istehsalın stimullaşdırılması məqsədilə vergiödəyicilərinə müvafiq vergi güzəştləri tətbiq edilib.**

Dövlət Vergi Xidmətindən bildirildiyinə görə, Vergilər Məcəlləsinə əsasən, siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurum tərəfindən təsdiqlənən idxal mallarını yerli istehsal malları ilə əvəzləyəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən hüquqi və fiziki şəxslər həmin fəaliyyətdən əldə edilən mənfəətin (gəlirin) 50 faizi miqdarında mənfəət–gəlir vergisindən 7 il müddətinə azaddırlar.

Eyni zamanda, həmin fəaliyyət prosesində istifadə olunan əmlak vergisindən– müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə, həmin fəaliyyət prosesində istifadə olunan torpaqlara görə isə torpaq vergisindən 7 il müddətinə gəlir vergisindən azad olunub.

***"Xalq qəzeti"***

# İnflyasiya 12,2 faizə enib

## Bəzi ərzaq malları isə ucuzlaşıb




**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında respublikada inflyasiya 2022-ci ilin müvafiq dövrünə nisbətən 12,2 faiz təşkil edib. Bu isə ötən aya nisbətən 0,5 faiz azdır.**

İstehlak qiymətləri indeksi ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 114,3 faiz, qeyri-ərzaq məhsulları üzrə 111 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,4 faiz təşkil edib. 2023-cü ilin iyul ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,3 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,4 faiz olub.

Cari ilin iyul ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox ucuzlaşma çörəyin, unun, yumurtanın, bir sıra meyvə-tərəvəz məhsullarının qiymətlərində müşahidə edilib.

Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. 2023-cü ilin iyul ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100 faiz, əvvəlki ilin iyul ayına nisbətən 108,8 faiz təşkil edib. İyulda əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, əvvəlki ilin iyul ayına nisbətən 109,6 faiz olub.

Ötən ay əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma, taksi nəqliyyatı ilə şəhərdaxili sərnişindaşıma xidmətlərinin və respublikadan kənara istirahət turlarının qiymətlərində müşahidə edilib. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

***"Xalq qəzeti"***

# 7 ayda qeyri-neft ixracı 18 faiz çoxalıb

**Respublikamızda xarici ticarət dövriyyəsi və ixrac əməliyyatlarının getdikcə genişləndirilməsi ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdən biridir. Məhz buna görədir ki, dövlət başçıları, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərin, danışıqların əsas mövzularından birini də məhz xarici ticarət dövriyyəsinin artırılması təşkil edir.**

Xarici ticarət əlaqələrinin genişlənməsini ifadə edən rəqəmlərə diqqət yetirəndə bu, aydın görünür. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın avqust sayına əsasən, 2023-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycanın ümumi ixracı 20,8 milyard ABŞ dolları, qeyri–neft sektoru üzrə ixrac isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,8 faiz artaraq 2 milyard dollar təşkil edib.

Mərkəzin məlumatında, həmçinin bildirilir ki, cari ilin yanvar–iyul ayları ərzində yeyinti məhsulları üzrə ixrac 520 milyon ABŞ dollarına bərabər olub. Hesabat dövründə elektrik enerjisi ixracı 5,5 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 4,4 dəfə, şəkər ixracı 53,1 faiz, meyvə–tərəvəz ixracı isə 46,6 faiz artıb.

Bu ilin yanvar-iyul ayları ərzində aqrar və aqrar–sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,6 faiz artaraq 540,2 milyon ABŞ dolları təşkil edib. Qeyri–neft–qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar–sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 41,3 faiz artaraq 119,4 milyon ABŞ dolları təşkil edib.

Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələrində diqqətçəkən mühüm məqamlardan biri də ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisinin artması ilə bağlıdır. Məlumat üçün bildirək ki, son illər ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı reallaşdırılan tədbirlər nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalı xeyli artıb. Artıq həmin məhsullara dünya bazarlarında maraq getdikcə artır.

Bu ilin iyul ayının qeyri-neft ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz artaraq 233,2 milyon ABŞ dolları təşkil edib. Cari ilin iyul ayı ərzində yeyinti məhsulları üzrə ixrac 60,1 milyon ABŞ dollarına, qeyri-yeyinti məhsulları üzrə isə 1,5 faiz artaraq 173,2 milyon ABŞ dollarına bərabər olub.




Bu ilin ötən 6 ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (314,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (120,7 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (68,7 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

Respublikamızda dövlət səviyyəsində həyata keçirilən bir sıra zəruri tədbirlər, strateji məhsulların ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının reallaşdırılması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün müəyyənləşdirilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. xarici ticarət əlaqələrin həcminin və coğrafiyasının daha da genişlənməsinə müsbət təsir göstərib. Bunun nəticəsidir ki, cari ilin ilk 6 ayı ərzində Rusiya Federasiyasına 552,3 milyon ABŞ dolları, Türkiyəyə 512,5 milyon ABŞ dolları, Gürcüstana 180,3 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 68,6 milyon ABŞ dolları, Qazaxıstana isə 58 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

# Azərbaycan Texnologiya Universiteti:

# Dünən, bu gün və sabah...

**Ulu öndər Heydər Əliyevin “Təhsil millətin gələcəyidir” kəlamı hər bir xalqın, hər bir dövlətin inkişafının məhz təhsildən keçdiyini, təhsilin inkişafının isə milli şüurdan asılı olduğunu göstərir. Azərbaycan dövlətçiliyinin müasir tarixinə adı əbədi həkk olunan nadir tarixi şəxsiyyət, fenomenal siyasi xadim Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış və bu anlayışların kökündə duran təhsilin inkişafı dövrü kimi də qəbul edilə bilər. Məhz ümummilli liderin təşəbbüsü ilə bir sıra mühüm təhsil müəssisələri fəaliyyətə başlamışdır. Onlardan biri də Azərbaycan Texnologiya Universitetidir (ATU).**





Heydər Əliyevin təşəbbüsü ilə müxtəlif dövrlərdə bu ali məktəblə bağlı üç qərar verilib. 1970-ci ildə Azərbaycan Politexnik İnstitutunun Kirovabad (Gəncə) filialı fəaliyyətə başlayıb. On il sonra, yəni 1980-ci ildə digər bir qərarla Azərbaycan Texnologiya İnstitutu təşkil olunub.

Ölkə Prezidentinin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli Fərmanının icrası ilə əlaqədar isə Azərbaycan Texnologiya Universiteti yaradılıb.

Bu gün ali təhsil müəssisəsinin rektoru vəzifəsini icra edən Yaşar Ömərovun rəhbərliyi ilə yeni dövrə qədəm qoyan Azərbaycan Texnologiya Universitetinin kollektivi o hədəflərin mahiyyətini tam dərk edərək, onların reallığa çevrilməsi üçün var gücü ilə çalışır. Universitetin uğurlarına təkan verən hər bir əməkdaş anlayır ki, ali təhsil müəssisəsinin məsuliyyəti böyükdür və işdə tənqidi düşüncə, yaradıcı yanaşma, yeni ideyalar, məhsuldar, şəffaf, obyektiv iş, öz bəhrəsini vermiş beynəlxalq təcrübənin ümumbəşəri və milli dəyərlərlə vəhdəti, səmərəli əməkdaşlıq tətbiq edilməlidir.

Heç şübhəsiz, ölkəmizin dinamik inkişafında və bilik iqtisadiyyatının formalaşdırılmasında ali təhsilin mühüm rolu var. Sürətli dəyişikliklərin baş verdiyi hazırkı vaxtda məhz ali təhsil müxtəlif sahələr üzrə davamlı inkişafa təkan verən real qüvvə hesab edilir. Bu baxımdan universitetlərdə tədris olunan ixtisasların zamanın tələblərinə cavab verə bilməsi olduqca vacibdir ki, bu məsələ Azərbaycan Texnologiya Universitetində diqqət mərkəzində saxlanılır.

Hazırda universitetdə Yüngül sənaye mühəndisliyi və dizayn, Maşın mühəndisliyi və logistika, Kimya və metallurgiya mühəndisliyi kimi kafedraları özündə birləşdirən Yüngül sənaye mühəndisliyi və logistika fakültəsi, Qida mühəndisliyi və ekspertiza, Ətraf mühitin mühafizəsi kafedralarından ibarət Qida mühəndisliyi fakültəsi, Avtomatika və informasiya texnologiyaları, Kompüter mühəndisliyi və telekommunikasiya, Ümumi və tətbiqi fizika, eləcə də Ümumi və tətbiqi riyaziyyat kafedralarından ibarət Avtomatika, telekommunikasiya və informatika fakültəsi, İqtisadiyyat, İdarəetmə, Turizm sənayesinin təşkili, İctimai elmlər və multikulturalizm, Xarici dillər kafedralarını özündə ehtiva edən İqtisadiyyat və idarəetmə fakültəsi fəaliyyət göstərir. 2022-2023-cü tədris ilində universitetin tarixində ən yüksək qəbul nəticələri qeydə alınıb. Bakalavr səviyyəsi üzrə qəbul 99 faiz, magistratura səviyyəsi üzrə qəbul isə 96 faiz olub. Halbuki, 2020-2021-ci tədris ilində bu göstəricilər müvafiq olaraq 69,1 və 82,8 faiz təşkil edib. 2021-2022-ci tədris ilində isə bakalavr səviyyəsi üzrə qəbul 69,2 faiz, magistratura səviyyəsi üzrə qəbul isə 94,7 faiz olub.

Hazırda universitetdə 3000-ə yaxını bakalavr, 400-dək magistr olmaqla, 3400 tələbə təhsil alır. Tələbələrə 15 nəfər elmlər doktoru, 9 nəfər professor, 1 nəfər professor-məsləhətçi, 82 nəfər fəlsəfə doktoru (onlardan 61 nəfəri dosent, 16 nəfəri dosent əvəzi və 5 nəfəri isə baş müəllimdir), 108 nəfər baş müəllim, 59 nəfər assistent və 14 nəfər müəllim təhsil verir. O cümlədən, 3 nəfər Əməkdar müəllim, 1 nəfər Əməkdar mühəndisdir. Tədris prosesinin yüksək səviyyədə, mövcud standartlara uyğun təşkili və ona nəzarətin həyata keçirilməsi məqsədi ilə universitetdə Keyfiyyətin təminatı və audit şöbəsi fəaliyyət göstərir. Bu da tələbələrin dərsə davamiyyətinə, nizam-intizam qaydalarına riayət edilməsinə, müəllimlərin məsuliyyətinin artırılmasına ciddi təsir göstərir. Dərslərin müasir interaktiv təlim metodları ilə, İKT-dən istifadə edilərək keçirilməsinə nail olunub.

Universitetdə tədris sahəsində ilk görülən işlərdən biri dövlət standartlarına uyğun və əmək bazarının tələblərinə cavab verən ixtisaslar üzrə tədris planlarının yenilənməsi olub. Həmin



tədris planlarının artıq 2022–2023-cü tədris ilindən etibarən bakalavr səviyyəsində tətbiq olunmasına başlanılıb. Vahid Avropa Ali Təhsil Məkanının standartlarına inteqrasiya şəraitində universitetin fəaliyyət istiqamətlərinə uyğun Avropa ali təhsil müəssisələrinin qabaqcıl təcrübəsi öyrənilərək tətbiq edilir.





Hazırda ATU-da 20 ixtisas üzrə kadr hazırlığı aparılır. Bura əsasən texniki və texnoloji ixtisaslar aid olsa da, iqtisadiyyat və idarəetmə, turizm və ekologiya üzrə də ixtisaslı kadr hazırlığı həyata keçirilir. Növbəti 2023–2024-cü tədris ilindən başlayaraq universitetdə yeni “Elektrik və elektronika mühəndisliyi” ixtisası üzrə kadr hazırlığına da başlanılacaq. Yaxın gələcəkdə universitet əmək bazarının tələblərinə uyğun olaraq mövcud ixtisaslar üzrə mütəxəssis hazırlığının gücləndirilməsi ilə yanaşı, digər yeni ixtisasların açılmasını nəzərdə tutub.

Təhsildə aşkarlıq, şəffaflıq və obyektivlik amilləri də universitet rəhbərliyinin xüsusi diqqətindədir. 2022-2023-cü tədris ilində universitetdə tələbələrin biliyinin düzgün, şəffaf qiymətləndirilməsi məqsədilə imtahanların təşkilinə ciddi hazırlıqlar görülüb. Yazılı və test üsulu ilə keçirilən imtahanların nəticələrinin operativ yoxlanılması məqsədilə kompüterlərə yeni proqram yüklənib və qış imtahan sessiyasında istifadəyə verilib. Nəzarət kameraları ilə təmin olunmuş auditoriyalar, test suallarının hazırlanaraq tələbələrə təqdim edilməsi, mütəmadi olaraq “açıq qapı” günlərinin keçirilməsi, imtahan sessiyaları dövründə mediaturun təşkili, valideynlər tərəfindən prosesin izlənməsi imtahanların şəffaflığının təmin edilməsinə imkan yaradıb.

Universitetdə son bir il ərzində struktur islahatlar və optimallaşdırma işləri aparılıb. Belə ki, dövrün tələblərinə uyğun olaraq “Turizm sənayesinin təşkili” və “Ətraf mühitin mühafizəsi” kafedraları yaradılıb, “Marketinq”, “Menecment”, “İnzibati idarəetmə və kommersiya” kafedralarının bazasında isə “İdarəetmə” və “İqtisadiyyat” kafedraları təşkil olunub.

ATU-da elmi fəaliyyətin səmərəli təşkili və həyata keçirilməsinə də xüsusi diqqət ayrılır. Universitetin rektoru vəzifəsini icra edən Yaşar Ömərovun rəhbərliyi ilə 2022-2023-cü tədris ilində ikisi elmi-praktiki, ikisi isə elmi-nəzəri olmaqla, 4 elmi konfrans və 1 forum keçirilib. Belə ki, universitetdə 13 universitetin, 3 elmi müəssisənin, 2 təşkilatın alim və tədqiqatçılarının iştirakı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunan "Müasir elmin aktual çağırışları və nailiyyətləri" adlı respublika elmi-praktik konfransı reallaşıb.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Dördüncü Sənaye İnqilabı və innovativ texnologiyalar” mövzusunda beynəlxalq elmi konfrans isə 16 ölkə, 70 xarici və 17 ölkədaxili ali təhsil müəssisəsi, 10 elmi müəssisə, 10 təşkilatı əhatə edən alim və tədqiqatçıların iştirakı ilə baş tutub. Bu, universitet tarixində xarici ölkə universitetlərinin və əcnəbi alimlərin iştirakına görə ən böyük konfrans olub.

“Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud ekoloji vəziyyət: Müasir çağırışlar və problemlərin həlli yolları” adlı elmi-nəzəri konfrans böyük maraq cəlb edib. Universitet tarixində üç ali təhsil müəssisəsinin, yəni Azərbaycan Texnologiya Universiteti, Lənkəran Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinin təşkilatçılğı ilə baş tutan “Heydər Əliyevin xilaskar qayıdışı” mövzusunda elmi-nəzəri konfrans da keçirilən tədbirlər sırasındadır.

“Üzümçülüyün və Şərabçılığın İnkişafı” forumunda isə 3 universitet, 4 elmi-tədqiqat institutu, 4 mərkəz, 1 agentlik, 1 assosiasiya, 9 şərabçılıq müəssisəsi iştirak edib. Forumun bundan sonra hər il keçirilməsi və miqyasının genişləndirilməsi də planlaşdırılır.

2022-2023-cü tədris ili universitetdə ilk dəfə təşkil olunan kafedraların elmi-texniki yaradıcılıq fəaliyyəti məhsullarının sərgisi ilə də əlamətdar olub. Sərgidə universitet kafedralarının elmi və texniki yaradıcılıq fəaliyyətinin məhsulları, fundamental və tətbiqi tədqiqatlar, o cümlədən texnoloji yeniliklər və innovasiyalar nümayiş etdirilib.

Azərbaycan Texnologiya Universitetinin elmi-tədqiqat fəaliyyətində əhəmiyyətli dərəcədə irəliləyiş göstəricilərdə öz əksini tapır. Belə ki, son bir ildə professor-müəllim heyətinin 90 faizdən çoxunun “Google Scholar” platformasında kabineti yaradılıb.

Tədris prosesində yeni yanaşmalar tətbiq etməyə hədəflənmiş təhsil üçün əməkdaşlıq vacibdir. Odur ki, universitet rəhbərliyinin işə səmərəli və məhsuldar yanaşması ilə ötən dərs ilində Azərbaycan Texnologiya Universiteti ilə Azərbaycan Texniki Universiteti arasında ikitərəfli müqavilə imzalanıb. Bundan başqa, digər region universitetləri olan Lənkəran Dövlət Universiteti və Mingəçevir Dövlət Universiteti ilə birlikdə üçtərəfli əməkdaşlıq müqaviləsinə imza atılıb. Tələbələrin nəzəri bilikləri ilə yanaşı, praktik biliklərini artırmaq üçün dövlət qurumları və sənaye müəssisələri ilə əlaqələr gücləndirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Türkiyənin “Galaxy Tekstil”, “Gəncə Şərab-2” ASC, “Azqranata” MMC, “Savalan- ASPI Winery” MMC, “Şirvan şərabları” MMC və Qəbələ Konserv zavodu ilə müqavilələr imzalanıb. Son zamanlar universitetin imzaladığı müqavilələrdən biri də dünya səviyyəli şirkət olan “Huawei”lədir. Hazırda universitet-sənaye əlaqələrin qurulması üçün iş davam etdirilir.



Tədrisin və elmin keyfiyyəti üçün peşəkar yanaşma ilə beynəlmiləlləşmə də Azərbaycan Texnologiya Universitetinin prioritet istiqamətlərindən biridir. Universitet “Erasmus+” mübadilə proqramı çərçivəsində İspaniya, Almaniya, Rumıniya və Polşa daxil olmaqla, ümümilikdə Avropanın 7 ölkəsindən müxtəlif nüfuzlu universitetlər ilə fəal əməkdaşlıq həyata keçirir. Son 1 il ərzində “Erasmus+” mübadilə proqramı çərçivəsində ATU-nun 10-a yaxın tələbəsi Avropanın universitetlərində 1 semestrlik təhsillərini davam etdirərək, geri qayıdıblar. İndiyədək mübadilə proqramı ilə xaricə göndərilmiş tələbələrin, demək olar ki, hər biri təhsilini müvəffəqiyyətlə başa vurub. Həmçinin, müəllim heyətindən mübadilə proqramında iştirak edən əməkdaşlar əldə etdikləri bilik və bacarıqları universitetdə digər həmkarları ilə bölüşürlər, proqramın verdiyi imkanlardan bütövlükdə ali təhsil ocağının müvəffəqiyyətlə yararlanmasına çalışırlar.

Azərbaycan Texnologiya Universiteti 2023-cü il ərzində bir sıra universitetlərlə ikili əməkdaşlıq memorandumu imzalayıb. Bundan əlavə, beynəlmiləlləşmə istiqamətində Polşanın Bialystok Texnologiya Universiteti ilə magistratura səviyyəsində “Nəqliyyat logistikası” ixtisası üzrə ilk ikili diplom proqramının reallaşdırılması üçün işlər yekunlaşmaqdadır. Digər ixtisaslar üzrə ikili diplom əməkdaşlığını genişləndirmək məqsədi ilə Macarıstan və Rumıniya ilə danışıqlar da aparılır.

Universitet Avropa Komissiyası tərəfindən maliyyələşdiriləcək daha bir layihədə tərəfdaş kimi iştirak imkanı qazanıb. Bu, “Azərbaycan universitetlərində yaşıl və davamlı qlobal iqtisadi inkişaf: bərpa olunan enerji və iqlim dəyişikliyinin təsirinin azaldılması” – REFRESH layihəsidir. REFRESH layihəsi tədris metodologiyalarını, tədris proqlamlarını təkmilləşdirmək və hər bir tərəfdaş ali təhsil müəssisəsində pilot dərslərə başlamaq üçün təlim (ToT) proqramına müəllim heyətini cəlb etməklə universitetlərdə potensialı artırmaq məqsədi daşıyır.

Ötən tədris ilində universitet kollektivinin, tələbələrin sosial fəallığının artırılması da nəzərdən kənarda qalmayıb. Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası reallaşdırılıb. Ali məktəbin tarixində ilk dəfə olaraq 1000-ə yaxın tələbənin iştirakı ilə 2 fleşmob düzənlənib. Bunlardan biri Zəfər Gününə, digəri isə Heydər Əliyevin 100 illiyinə həsr edilib.

ATU son bir ildə idman sahəsində ciddi fəallıqla seçilir. Belə ki, ali təhsil müəssisəsi tərəfindən həm universitetdaxili, həm də şəhər səviyyəli bir çox tədbirlər təşkil olunub. Belə ki, tələbələrin iştirakı ilə Zəfər Gününə həsr olunmuş 6 idman növü üzrə Spartakiada keçirilib, Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş futzal üzrə şəhər çempionatı baş tutub, Basketbol üzrə Gəncə şəhər liqası reallaşıb. Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş 4 idman növü üzrə tələbə və əməkdaşlar arasında birincilik keçirilib. Məhz Azərbaycan Texnologiya Universitetinin təşkilatçılığı ilə 250 nəfərin iştirakı ilə ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş şəhər miqyaslı marafon təşkil edilib.

Aztəminatlı ailələrdən olan tələbələrin ehtiyacları da diqqətdən kənarda qalmayıb, onlara qayğı ilə yanaşılıb. 4 tələbəyə 300 manat, 50-dən artıq tələbəyə isə 50 manat məbləğində birdəfəlik yardımlar edilib.

Təbii ki, sadalananlar bir tədris ilində əldə edilən nailiyyətlərin tam siyahısı deyil. Qarşıda Azərbaycan Texnologiya Universitetini mühüm öhdəliklər, böyük işlər, yeni ideyalar və onların reallaşdırılması, yeni məqsədlər, hədəflər, nəticələr gözləyir.

***Səhifəni qəzetimizin bölgə müxbiri Hamlet QASIMOV hazırlayıb***

# Ermənistan daha bir oyununun girovudur

## Hay xisləti: əvvəl yalan, sonda dalan sevdası

**Qəzetimizin dünənki sayında dərc olunmuş "Biz bu torpaqlarda əbədi yaşayacağıq" sərlövhəli yazıda qeyd etmişdim ki, Azərbaycanın uğurla icra**




**etdiyi xarici siyasət kursu Ermənistan dövlətini dörd tərəfdən dalana dirəyib. Həmin dalanların konkret adını, ünvanını və işğalçı dövlətə vurduğu zərbəni də qeyd etmişdim. Hidayət Əliyev adlı oxucu zəng edərək soruşdu ki, həmin dalanlar arasında Qarabağa "humanitar yük gətirən" erməni "tır"larının dirəndiyi dalanın adını niyə çəkmirsiniz? Cavab verdim ki, mən Azərbaycanın siyasəti nəticəsində ərsəyə gələn dalanları sadalamışam. "Tır" məsələsi isə məhz Ermənistanın bilərəkdən yaratdığı "dalan"dır.**

Bəlkə də, kimsə bu arqumentlə razılaşmayacaq. Ancaq faktı danmaq mümkün deyil. İşğalçı ölkənin terrorçu rəhbərləri məlum ərazinin relyefini də yaxşı bilirlər, iri qabaritli "Volvo" yük maşınlarının manevr imkanlarını da. Yəni dəqiq hesablayıblar ki, "tır"lar həmin ərazidə geri dönə bilməyəcəklər və mütləq irəli getməlidirlər. Bu isə öz ərazi bütövlüyünü hansısa sarsaq "dövlət"in maraqlarına qurban vermək istəməyən Bakının ciddi etirazı ilə nəticələnəcək, qarşıdurma yaranacaq, bütün dünya münaqişənin səbəbkarı kimi Azərbaycanı qınayacaq.

Hər şeyi hesablamışdılar. Ancaq Azərbaycan Prezidentinin müdriklik miqyasını hesablaya bilməmişdilər. Onlar elə bilirdilər ki, "tır"lar sərhədə yaxınlaşan kimi, Prezident İlham Əliyev "Vur!" əmrini verəcək. Bununla da Azərbaycanın sülhsevərlik imici ləkələnəcək. Bu yerdə xatırladım ki, Qəbələ camaatı arasında məşhur bir deyim var. Biri o birini aldatmaq istəyəndə ikinci şəxs aldanmayacağını göstərmək üçün "Ay, sən öləsən, Vardapet!"– deyir. Yəni, ay sən öləsən, İrəvan, Bakını aldada bilməyəcəksən. Bəli, bu faktdır ki, Azərbaycan Ermənistanı növbəti dəfə ağır məğlubiyyətə uğratdı.

O ki qald Moskvadan Qarabağa göndərilmiş fırıldaqçı Ruben Vardanyanın vəsaiti hesabına işləyən "Spayka" şirkətinə, xatırladaq ki, 2018-ci ildə hakimiyyətə gələn Nikol Paşinyan 2019-cu ilin yazında repressiya üsulları ilə Ermənistanın ən böyük şirkətlərindən biri olan "Spayka"ya qarşı proseslərə başlamış, şirkətin sahibkarı və direktoru həbs edilmişdi. MDB ərazisində yük daşımaq üçün yaradılmış (maraqlıdır, onların nizamnaməsində göstərilən yüklər sırasında "xüsusilə təhlükəli yüklər" də var) bu şirkət elə səviyyəyə salınmışdı ki, bahalı "Volvo" yük maşınlarından ancaq tabut, meyit daşınmasında istifadə edilirdi.

Bəzi ekspertlərin fikrincə, 2020-ci ilin payızındakı İkinci Qarabağ müharibəsindən sonra "Spayka"nın yüksək səviyyədə təchiz edilmiş maşınlarına (onların hamısında yaxşı soyuducu mexanizmlər quraşdırılmışdır) yeni funksiya "etibar edilmişdi". Belə ki, cəbhədə ölən erməni əsgərlərinin hamısının meyiti evə göndərilmir, yüzlərlə cəsəd bu maşınlarda saxlanılırdı. Yəni illərlə meyit saxlaya bilən maşınlarda indi "humanitar yüklər xarab olur" deyən ermənilər, sadəcə olaraq, ağ yalan danışırlar.

Qərəz, Ermənistanın Qarabağa göndərdiyi "humanitar yük"lər maşınlarda qalıb, maşınlar sərhəddə, Paşinyanın əli çənəsində, Qarabağdakı ermənilərin isə gözləri yolda. İndi nə etmək olar?

Əlbəttə, çox iş görmək olar. Ermənistan rəhbərliyi ilk növbədə daşı ətəyindən tökərək, adam balası kimi danışıqlar stoluna gəlməli, qonşularına ərazi iddialarından əl çəkməli, Azərbaycan ərazilərindəki bütün quldur və terrorçu birləşmələrini geri çağırmalı, mina xəritələrini təhvil verməli, Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş dörd minə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirməli və ən nəhayət, sülh sazişinə imza atmalıdır. Çox təəssüf ki, Ermənistanın heç bir siyasətçisi bu addımları atmağa hazır deyil. Hamısı qorxur. Çünki bu millət bünövrədən elə bir sağalmaz xəstəliyə mübtəla olub ki, onların qısa müddətdə müalicəsi mümkün deyil. Bu yükü hansı siyasətçi öz üzərinə götürərsə, onun nə vəziyyətə qoyulacağı ağlasığmazdır.

Ancaq zaman dayanıb gözləmir. Zaman erməni xalqının məhrumiyyətlərdən xilas olunmasını təmin edəcək addımlar tələb edir. Həmin addımları kim atacaq? Hələ məlum deyil. Elə addımlar atılmayacaqsa, xalqın ümidi "Spayka"dakı yüklər kimi yarı yolda qalacaq və... ünvana , məqsədə çatmadığına görə zay olub gedəcək.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

*İntiqam Qasımzadə - 80*

# "Azərbaycan"da "Ad günü" məclisi

## Sürpriz reportaj

**...Azərbaycan Yazıçılar Birliyinin binası. "Azərbaycan" ədəbi-bədii jurnalının redaksiyası. İntiqam Qasımzadədir, Şəmistan Nəzirlidir, bir də Elçin Mirzəbəyli. Eyni bir gündə – avqustun 12-də hərəsi bir diyarda doğulmuş qələmdaşlar Bakıda – "Azərbaycan"da bir araya gəliblər.**



Bəs, niyə məhz orada? Çünki aralarında təkcə "Azərbaycan"ın baş redaktoru olan Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü İntiqam müəllimin yubiley günüdür, qalanlarının isə təqvim üzrə növbəti ad günü.

**İntiqam müəllim hər kəsi salamlayaraq sözə başlayır:**

– Gözəl ildir. Ulu öndərin 1əsrlik yubileyi ilə əlaqədar ölkəmizdə "Heydər Əliyev İli" elan olunub. Eyni zamanda, "Azərbaycan"ın 100, mənimsə 80 yaşımdır. Odur ki, birlikdə tortla çay içməyə dəyər.

Bu qısa girişdən sonra çay süfrəsi arxasında ədəbiyyat, poeziya və publisistika haqqında söhbət başlanır. Əlbəttə, söz hərlənib-fırlanıb, tənqidçi-publisist-tərcüməçi, kino xadimi olan yubilyarın – ev sahibinin üstünə yönəlir. Xatırlanır ki, o, mədəniyyət paytaxtımız Şuşada doğulub. BDU-nun filologiya fakültəsini bitirib. Nizami adına Ədəbiyyat İnstitutunun nəzəriyyə şöbəsinin aspirantı olub. Bir müddət hazırda 100 yaşı olan kinostudiyada çalışıb. 1976-cı ildən isə həyatdan vaxtsız getmiş atası – şair, tərcüməçi Böyükağa Qasımzadənin poeziya şöbəsinin müdiri olduğu "Azərbaycan"dadır. Burada ədəbi işçi, tənqid şöbəsinin müdiri, məsul katib, baş redaktorun müavini olub. 1997-ci ildən baş redaktordur.

İntiqam Qasımzadə yaradıcılığa erkən başlasa da, 1968-ci ildən dövri mətbuatda ədəbi-tənqidi məqalələri müntəzəm çap olunur. Gözəl bədii tərcümələri var. Kamil Yaşenin pyeslərini, Vasil Bıkovun povestlərini, Şandor Radonun "Dora" romanını ruscadan dilimizə çevirib. Uzun illərdən bəri "Bayatı" ədəbi televiziya almanaxının müəllifidir. Onun ssenarisi əsasında neçə-neçə sənədli və animasiya filmi çəkilib.

**Bir azdan məclisə akademik Rafael Hüseynov da gəlir.** Axı, o da günün "günahkar"larından, avqustun 12-də doğulanlardandır. Söhbətə elmi çaların qatılması ilə məclis bir qədər də sanballı, bir qədər də maraqlı olur. Arada bu gün anadan olmuş daha bir ədəbi şəxsiyyət, mərhum Vilayət Rüstəmzadə də xatırlanır...

**Sonra kimsə İntiqam müəllimin Şuşadan, yoxsa Bakıdan olduğunu soruşur. Gülümsəyərək cavab verir:**

– Əlbəttə, əslən Bakıdanam, amma 1943-cü ildə Şuşada anadan olmuşam və bunun çox maraqlı tarixçəsi var. Müharibə başlananda atam zabitlər kursuna yazılıb, oranı bitirəndə ailəsi ilə görüşüb, vidalaşmaq üçün ona qısamüddətli məzuniyyət veriblər. Bakıya qayıdan kimi ailəsini - anamı və qardaşım Daşqını götürüb Şuşaya, ana qohumlarının yanına aparıb.

– Bəs sizin dünyaya gəlişiniz? Axı, bu,1943-cü ildə olub...

– (Gülür). Hə, bu, bir qəribə təsadüfdür. Atamın komandiri olduğu bölük 42-ci ilin noyabrında 3 kəndi faşistlərdən azad edib və həmin döyüşdə atam xüsusi şücaət göstərdiyinə görə ona 10 günlük məzuniyyət veriblər. Şuşaya, ailəsinin yanına qayıdıb və həmin məzuniyyətin "nişanəsi" olaraq 1943-cü ildə mən dünyaya gəlmişəm. Dava bitəndən sonra, 1945-ci ilin sonuna qədər Şuşada yaşamışıq. Yəni mənim ciyərlərim ilk dəfə Şuşanın məlhəm havası ilə dolub, ilk illər Şuşanın saf suyunu içmişəm, ona görə Şuşa mənə çox doğmadır.

**Sonra şair, politoloq Elçin Mirzəbəyli təsirli bir şeir oxuyur.**

Mahnı bitən kimi qəfil qapıda general libasında Milli Qəhrəman Fəxrəddin Cəbrayılov görünür. Hamı salamlaşmaq üçün ayağa qalxır. Görüşüb bir-birini təbrik edirlər. Sən demə, yubilyar İntiqam müəllimlə məxsusi görüşən generalın da yubileyi imiş – 65 yaşı tamam olurmuş...

Beləcə, məclis şən ovqatda davam eləyir. Axırda "ev sahibi" İntiqam Qasımzadə hərəyə "Azərbaycan" jurnalının yenicə çapdan çıxmış son nömrəsindən bir nüsxə bağışlayır. Eyni gündə dünyaya gələn və Azərbaycanın tanınmış şəxsləri olan ünlü söz-sənət sahibləri "Azərbaycan"ı xoş təəssüratlarla, deyə-gülə tərk edirlər...

100 yaşasınlar!

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"*

*Sosial sfera xəbərləri*

### Uşaqların reabilitasiyası davam edir



***Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək düşərgələrdə yerləşdirilən və reabilitasiya tədbirlərinə cəlb edilən ukraynalı uşaqların bölgələrimizə ekskursiyası təşkil edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər.***

Verilən məlumata görə, uşaqlar əvvəlcə İsmayıllı rayonunun Basqal qəsəbəsində tarixi irsimizlə tanış olub, öz koloritini qoruyub saxlayan qəsəbəni gəziblər. Orada qədim el sənəti nümunələrini, məişət əşyalarını, yaşayış evlərinin fərqli mənzərəsini maraqla izləyiblər.

Növbəti gün iştirakçıların Qəbələ rayonuna gəzintisi təşkil edilib. Onlar təbiət gözəllikləri və istirahət mərkəzləri ilə tanış olublar. Həmçinin Qəbələnin Laza kəndində olan uşaqlar lavaşın hazırlanması prosesində iştirak ediblər.

Qeyd edilir ki, istirahət günlərində uşaqlar üçün art-terapiya, peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyaları da aparılır. Düşərgədə olduqları müddətdə onlar psixososial təlimlər, ingilis dili kursları, foto çəkilişi, milli rəqslər və ustad dərslərinə də cəlb ediləcəklər. Növbəti günlərdə uşaqların Şəkiyə və Şamaxıya ekskursiyalarının təşkili nəzərdə tutulur.

Nazirliyin məlumatında, həmçinin bildirilir ki, 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində uşaqların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə hər cür dəstək göstərilir. Eyni zamanda, düşərgələrə yerləşdirilən uşaqların sosial reabilitasiyası davam edir.

### Psixi sağlamlıqla bağlı maarifləndirmə

***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyi Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə "Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası" layihəsi çərçivəsində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ilə birgə Ağdam Rayon Mərkəzi Xəstəxanasında və Tərtər rayonunda yaşayan əhali arasında maarifləndirmə kampaniyası təşkil edib.***

Nümayəndəliyin verdiyi xəbərə görə, kampaniyanın məqsədi psixi sağlamlıq və psixososial dəstək ehtiyacları, habelə münaqişələrin bitməsindən sonra müharibədən əziyyət çəkən şəxslərin psixi sağlamlığına, rifahına təsiri haqqında məlumatlılığı artırmaqdır. Stress, depressiya, təşviş və posttravmatik stress pozuntusu kimi psixi sağlamlıq halları, eləcə də mübarizə mexanizmləri haqqında məlumat əldə etmək istəyən əhali üçün psixoloqlarla ödənişsiz görüşlər təşkil edilib.



Maarifləndirmə kampaniyası zamanı layihənin psixoloq və sosial işçiləri xəstəxanaya gələn əhalini psixi sağlamlıq barədə məlumatlandırıb, onların stress və narahatlıq səviyyələrini qiymətləndirmək üçün testlər keçiriblər. Eyni zamanda, vətəndaşlara stress, depressiya, təşviş və posttravmatik stress pozuntusu kimi psixi sağlamlıq halları, eləcə də mübarizə mexanizmlərinə dair məlumatlardan ibarət broşürlər paylanılıb.

*Zərifə HÜSEYNOVA,*
*"Xalq qəzeti"*

# Pivəlik arpaya tələbatı tam ödəyəcək müəssisə

**İmişli rayonunda İqtisadiyyat Nazirliyinə məxsus "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "Azərsun Kənd Təsərrüfatı Məhsulları" MMC-nin birgə investisiyası ilə reallaşdırılacaq pivəlik arpa emalı zavodu layihəsi ölkədə qeyri-neft sektorunun inkişafına təkan verəcək layihələrdən biridir.**




İqtisadiyyat naziri Mikayıl Cabbarov sosial şəbəkə hesabında daha sonra investisiya dəyəri 25 milyon manat olan həmin müəssisənin respublikada fəaliyyət göstərən istehsalçıların xammala olan ehtiyacını tam ödəyəcəyini bildirib.

Nazir məlumatı bu sözlərlə tamamlayıb: "Azərbaycanda rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının stimullaşdırılmasına, onun xammal bazasının yaxşılaşdırılmasına, idxalı əvəz edən yeni istehsal sahələrinin yaradılmasına və ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyi tədbirləri davam edir".

*"Xalq qəzeti"*

*Köşə yazısı*

# "Hamıdan ucadır alimin yeri"

*Şəhla ASLAN,*
*Təhsil araşdırmaları üzrə doktorant*



**Müasir həyatın ən güclü istinad nöqtəsi elmdir. Elm həmişə insanın özü, yaşadığı kainat və cəmiyyət haqqında həqiqətə çatmaq cəhdi kimi mövcud olmuşdur. Bu baxımdan elm bütün cəmiyyətlərdə var olan bir fəaliyyətdir.**

Elm həm də, xüsusi bir intizamdır. Bunun müəyyən bir üsulu var. Elmlə ciddi şəkildə məşğul olmaq mütərəqqi bir fəaliyyətdir. Elm insan həyatına təsir edir. Elm adamları xarici aləmdəki hadisələri tədqiq edir, onların baş vermə şəraitini qiymətləndirir, aralarında səbəb-nəticə əlaqəsini tapıb proqnozlaşdırmağa çalışırlar. Onlar bu münasibətləri ümumbəşəri ifadələrlə əks edirlər. Bu mənada elmi araşdırma da, xüsusi nizam-intizam tələb edir; burada ciddi qaydalar mövcuddur. Alimlər bu qaydalar çərçivəsində təbiətə üz tuturlar.

Elm adamı bir problemə fokuslanıb, mümkün həll yollarını nəzərdən keçirir, eksperimental üsulla yeni həllər istehsal edir. Elm adamı araşdıran insandır. O, xarici aləmi tədqiq edir; insanın, kainatın mənşəyini araşdırır. Problemlərin nəzəri həlli yollarını göstərir; əvvəlki həll yollarını yoxlayır, bu yollar kifayət etmirsə, yeni həll yolları təqdim edir. Bəzən özünün təqdim etdiyi həll yollarını da yetərli hesab etmir. Araşdırmalarını davam etdirir, təkrar-təkrar yeni mövzu ətrafında tədqiqatlar aparır, həll yolları axtarırlar. Əsl elm adamı səbrlidir. O, bəzən bütün həyatını eyni bir mövzuda araşdırmalara sərf edir, tükənməz enerji və öyrənmək istəyi ilə problemləri həll etməyə çalışır. Sözsüz, maraq və səbr elm adamının ən vacib cəhətləridir.

Elmlə ciddi şəkildə məşğul olanlar böyük insanlardır. Onlar fikirləri, ixtiraları ilə cəmiyyəti dəyişmək gücünə malik olurlar, insanlığı bir addım daha önə aparırlar. Dahi Nizami deyirdi: "Hamıdan ucadır alimin yeri".

Məlumdur ki, insana xas ehtiyaclarla bağlı aparılan elmi araşdırmalar insan həyatı üçün daha yaxşı yaşayış şəraiti təmin etmək üçün irəliləyir. Lakin elmin digər hərəkətverici qüvvəsi maraqdır. Elm adamları daim sorğu-sual edir, ona görə də, tədqiqat predmetinə təbiəti və insanları daxil edirlər. Elm adamlarının yetişdirilmə məqsədi də elə budur. Elm adamlarına əvvəlcə suallar vermək, problemlər üzərində dərindəm düşünmək öyrədilir. Digər tərəfdən, elm adamlarının yetişmə şərtlərini təkcə elm və ya onun araşdırma, öyrənmə marağı deyil, həm də cəmiyyət formalaşdırır.

Sözsüz, ciddi elm adamlarının meydana çıxmasında və yetişməsində, ilk növbədə, cəmiyyətin elmə verdiyi dəyər və cəmiyyətin yeni bilgilərə hazır olması böyük əhəmiyyət kəsb edir. Əminliklə söyləmək olar ki, elm adamlarını həm də, cəmiyyət yetişdirir. Cəmiyyətin şəraiti kafi deyilsə, orada böyük elm adamının meydana çıxması çox çətindir.

Elmi təfəkkür və tədqiqat metodlarının tətbiqi cəmiyyətləri innovativ edir. İnsanlar elmi təfəkkürün olmamasından başqa millətlərdən geri qalırlar. Elm bəşəriyyəti maarifləndirən, ona bu yolda bilik və söz sahibi olmağı təmin edən ən mühüm ünsürdür. Elmin məqsədi də, insan həyatını asanlaşdırmaq və dünyanı daha yaşana bilən etməkdir. Əlbəttə ki, buna nail ola bilən cəmiyyətlər dünyanın aparıcı cəmiyyətləri olacaqlar.

# Sabahın təməli olan gənclər siyasəti

## Azərbaycanı yüksəlişə aparan nəsil

**(əvvəli 1-ci səhifədə)**

Bir neçə gün əvvəl Bakıda açılan Avropa Gənclər Parlamentinin 99-cu Beynəlxalq Sessiyasında Gənclər və İdman naziri Fərid Qayıbov Azərbaycanda gənclər siyasətinin prioritet olduğunu bildirib: "Biz gənclərlə işləməyə böyük önəm veririk, çünki gənclər bizim gələcəyimizdir. Azərbaycanda bu tədbirin keçirilməsi sevindirici haldır. Azərbaycan gənclər sahəsində beynəlxalq əməkdaşlığa



böyük önəm verir. Hər birinizi burada görməkdən şadıq və inanırıq ki, tədbir çox faydalı geçəcək və siz hər biriniz ölkənizə böyük təəssüratlarla qayıdacaqsınız".

Bu Beynəlxalq tədbirdə gənclərin təhsil imkanlarının genişləndirilməsi müzakirə edilir. Avropa Parlamentinin simulyasiyası əsasında 12 fərqli mövzu üzrə komitə iclasları keçirilib. Həmçinin, işgüzar plenar dinləmələr və debatlar təşkil olunub. Tədbirə qatılan iştirak edən gənclərdə mədəniyyətlərarası dialoqun gücləndirilməsi məqsədilə "Avropa şəhərciyi" və "Avrokonsert" tədbirləri, Azərbaycanın zəngin tarixi-mədəni irsinin əcnəbi iştirakçılara yaxından tanıtdırılması üçün isə əyləncəli proqramlar, turlar və muzeylərə ekskursiyalar təşkil edilib.

Hazırda ölkəmizdə çoxlu sayda gənclər təşkilatı fəaliyyət göstərir, yüzlərlə gənc lider yetişib. Bu gənclər müxtəlif sahələrdə Azərbaycanın inkişafında, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mühüm rol oynayırlar.

Vətən müharibəsində Böyük Zəfərin qazanılmasında gənclərimizin həlledici rolu olub. Ərazi bütövlüyümüz naminə, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bununla hər birimiz qürur duyuruq. Uğurlu gənclər siyasəti sayəsində ölkəmizdə elə bir nəsil yetişdi ki, hətta Qarabağı görməyən, oradakı faciələrin canlı şahidi olmayan gənclər Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə getdilər və şəhadətə ucaldılar, qazi oldular və bayrağımızı zirvələrə qaldırdılar.

Müzəffər Ali baş Komandanımız İlham Əliyev igid gənclərimizin rəşadətini yüksək dəyərləndirib: "Azərbaycan gəncləri Vətən müharibəsində böyük şücaət nümayiş etdirdilər. Vətənpərvərlik, dövlətə sədaqət ruhunda yetişmiş Azərbaycan gəncləri torpaqlarımızı işğalçılardan azad etdi. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bu tarixi hadisədir".

Biz İkinci Qarabağ müharibəsində 3 min şəhid verdik, çoxsaylı qazilərimiz oldu, amma ermənilərdən fərqli olaraq, bir nəfər də fərarimiz olmadı. Onlarla gənc Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü, minlərlə Vətən müdafiəçisi orden və medallarla təltif edildi. İnamla demək olar ki, indi biz




məhz 44 günlük Zəfər Yürüşünün sayəsində bütün dünyada qalib xalq kimi tanınırıq, başımızı dik tutub gəzirik.

Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Gənclər cani-dildən öz Vətənləri ilə fəxr etməlidirlər. Müstəqillik illərində aparılan düzgün siyasət nəticəsində buna nail olunub. İndi istənilən sahəyə baxdıqda görürük ki, həqiqətən də böyük tarixi nailiyyətlərə imza atmışıq.

1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. İdmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübut-



dur. Ölkəmizin bütün bölgələrdə yeni Olimpiya İdman kompleksləri tikilib.

**Bu gün xarici ölkələrdə yaşayan soydaşlarımızın və övladlarının elm, təhsil və digər sahələrdə əldə etdikləri uğurlar Azərbaycanda böyük rəğbətlə qarşılanır. Onlardan bəzilərini xatırladaq:**

...Sumqayıtlı gənc soydaşımız Cəfər Cəfərov "Meta" şirkətində (Facebook) tədqiqatçı alim kimi çalışır. Ali təhsilinin bakalavr və magistr pillələrinə Türkiyənin Boğaziçi Universitetində, doktoranturaya isə Çikaqo Universitetində (ABŞ) yiyələnib. O, kompüter mühəndisliyi ixtisası üzrə oxuyub. Cəfər süni intellekt sahəsində Türkiyənin öndə gedən isimlərindən olan Cem Say ilə işləyib. Hazırda "Meta"da maşın öyrənməsi sahəsində fəaliyyət göstərir. O, öz sahəsində barmaqla göstəriləcək insanlardan olmaq, qazandığı təcrübəni Azərbaycanda tətbiq etmək istədiyini bildirib.

...Nyu-Yorkdakı Herbert Huver adına ibtidai məktəbin 4-cü sinfini başa vuran azyaşlı soydaşımız Maqsud Süleymanova ABŞ Prezidentinin Təhsil Mükafatı Proqramının sertifikatı təqdim olunub. O, bu mükafata tədris ilini müvəffəqiyyətlə başa vurduğuna görə layiq görülüb. Maqsud Süleymanov Nyu-Yorkda fəaliyyət göstərən azərbaycanlı icmasının fəal üzvləri Hikmət Süleymanov və Nigar Pənahovanın övladıdır.

...Kanadanın Alberta əyalətində yaşayan 13 yaşlı soydaşımız Emiliya Əliyeva 2022-2023-cü ilin nəticələrinə görə cüdo üzrə ilin gənc və ümidverici idmançısı seçilib.

Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

*Əli ƏLİYEV,*
*"Xalq qəzeti"*

# "Yüksəliş" müsabiqəsi istedadlara meydan açır

**Ölkəmizdə gənclərin inkişafı üçün müxtəlif layihələr və dövlət proqramları həyata keçirilir. Bu istiqamətdə atılan ən uğurlu addımlardan biri "Yüksəliş" müsabiqəsidir. İstedadlı gənclərin üzə çıxarılmasında və onların fəaliyyətlərində motivasiya yaradılmasında bu layihənin mühüm rolu var.**




Bu il "Yüksəliş"in sayca 3-cü müsabiqəsi keçirilib. Bu dəfə bir neçə iştirakçı eyni nəticəni göstərdiyinə görə qaliblərin sayı 20 deyil, 22 olub.

Həmin qaliblərdən Toğrul İslam Azərbaycan Universitetinin biznesin təşkili və idarə edilməsi fakültəsinə qəbul olunub. Təhsilini xaricdə davam etdirib – ABŞ-ın Corcia Universitetinin Biznes Kollecində oxuyub. ADA Universitetində isə ixtisası üzrə (MBA proqramı) magistratura təhsili alıb. Hazırda "PAŞA Həyat Sığorta" ASC-də Baş mühasibdir.

**Toğrul karyera yolu barədə bunları bildirdi:**

– Yüksəliş yoluna çıxmaq istəyən gənclər bu müsabiqəyə müraciət etməlidirlər. Bir il müddətində "Yüksəliş"in təcrübə paylaşımı proqramından istifadə qaliblərin starteji düşüncə qabliyyətlərini artırır. Ona görə də hər bir gənc bu şansdan istifadə edib müsabiqəyə qoşulmalıdır. Ola bilər, qalib gəlməsinlər, amma burada əldə edəcəkləri biliklər, qazanacaqları təcrübə və yeni dostlar həyatda onlar üçün faydalı olacaq.

Digər qalib Səkinə Vəliyeva Azərbaycan Dövlət İqtisad Universitetində beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr təhsili alıb. Daha sonra təhsilini Böyük Britaniyanın Mançester Universitetində kompüter elmləri və biznes idarəetmə ixtisası üzrə davam etdirib. İsveçrənin Lozanna Universitetində idman təşkilatlarının idarə olunması ixtisası üzrə magistr təhsili alıb. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsində proqram meneceri vəzifəsində çalışır. Beynəlxalq Olimpiya Komitəsi Olimpiya Kanalı Komissiyasının üzvüdür.

**Səkinə Vəliyeva "Yüksəliş" qələbəsinin yaratdığı üstün imkanları minnətdarlıqla qeyd etdi:**

– 13 min 474 idarəçinin iştirak etdiyi yarışda 22 nəfər qalib arasında önə çıxmaq böyük şansdır. Uğur düsturu isə sadədir:




məqsədyönlülük və davamlı inkişaf!

Yarışmanın təşəbbüskarı Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm! Müsabiqəni təşkil edənlərin zəhmətini heç vaxt unutmayacağam.

"Yüksəliş" qalibi olmuş gənclərimizi təbrik edir, onlara daha böyük uğurlar arzulayırıq.

*Rüfət MƏHƏRRƏMOV*

# Bakılı "Avropa kraliçası"

**Azərbaycanda öz zəkasının nuru, istedadı, bilik və bacarığı ilə cəmiyyətə nümunə olan gənclərimiz bizi daim sevindirirlər.**

Bu günlərdə Bakıda start götürən şahmat üzrə dünya kuboku yarışında istedadlı gəncimiz Mələk İsmayıla "FİDE online Queens Festival"da uğurla çıxış etdiyinə görə "Avropa kraliçası" kubokunun təqdim olunması bizdə qürur hissi yaratdı. Dünya şahmat aləminin sayılıb-seçilən nümayəndələri sırasında Azərbaycan gənclərinin öz dəst xətləri, öz imzaları var. 19 yaşlı Mələk İsmayıl da artıq istedadlı zəka ustaları arasında öz yerini tapmaqdadır. Avropa birinciliyində ilk dəfə qalib adını 7 yaşlılar arasında qazanıb. 2011-ci ildə Antalyada qitə birinciliyində əldə etdiyi qızıl medal onun həyatında mühüm rol oynayıb. Bu yarışdan sonra müxtəlif yaş qruplarında – 2012-ci ildə Çexiyada keçirilən Avropa birinciliyində gümüş, 2014-cü ildə Gürcüstandakı qitə birinciliyində qızıl medal qazanıb. Gürcüstanda 2015 və 2019-cu illərdə keçirilmiş Şahmat Festivallarının qalibi olub. 2021-ci ildə isə onlayn Avropa birinciliyində gümüş medala layiq görülüb.

Şahmata həvəsi onda atası yaradıb. O illəri Mələk İsmayıl belə xatırlayır: "Hələ kiçik yaşlarımdan fiqurların düzülüşü mənə sirli aləmi xatırladır, onda hikmət axtarırdım. Saatlarca şahmat taxtasının arxasında oturub bir gedişin yüzlərcə, bəlkə də minlərcə variantının olduğunu düşünürdüm. Şahmatın sirlərinə yiyələndikcə onun nə qədər dərin bilik, səbir və dözümlülük tələb etdiyinin şahidi oldum. Ani səhv böyük bir məğlubiyyətə səbəb ola bilər. Şahmat ağıl, güclü məntiq tələb edən strategiya oyunudur. Bir tanınmış şahmatçının etdiyi maraqlı gediş milyonlarla insanı heyran qoyur. Ən böyük arzum oyunlarım, gedişlərimlə insanları heyrətləndirmək, onların zövqünü oxşamaqdır".

Beynəlxalq arenalarda bir-birindən maraqlı oyunlar nümayiş etdirməklə mükafatalayiq yer qazanan idmançı hər qələbənin arxasında böyük zəhmətin dayandığını bildirir: "Hər yarışa hazırlaşmaq üçün günlər, bəzən də aylarla vaxt sərf edirsən. Əvvəllər uduzanda çox üzülür, bəzən də ağlayırdım. Amma indi çalışıram ki, səhvlərimdən nəticə çıxarıb, növbəti oyunlarda onlara yol verməyim. Ən böyük mənəvi dəstəyi isə bu zaman atam verir. Ümumiyyətlə, diqqət etsəniz, yarışlara uşaqların ən çox valideynləri ilə gəldiklərini görərsiz. Çünki bu çətin yolda insanın ən böyük dayağı mənəvi dəstəkdir".

Hazırda Bakı Mühəndislik Universitetinin dizayn ixtisası üzrə təhsil alan Mələk



rəsm çəkməyi də çox xoşlayır: "Bir neçə saatlıq şahmat oyunundan sonra rəsmlər çəkmək mənə xüsusi zövq verirdi. Sonra isə onları otağımda asırdım. Hazırda çalışıram ki, dərslərimi də yaxşı oxuyum. Gündəlik 8-9 saatlıq şahmat məşğuliyyətindən sonra dərslərimə də vaxt ayırmağa müvəffəq oluram. Bu, çətin olsa da, öhdəsindən gəlirəm. Həm dərslərimdə, həm də şahmat karyeramda mənə dəstək olanlara sonsuz təşəkkürümü bildirirəm".

Həyatın bütün sahələrində güclü iradəyə, yüksək ruha malik insan öz imkanlarından geniş istifadə edərək hədəfə doğru inamla addımlayır. Ona görə də, tərəqqi və yüksəlişə geniş rəvacın verildiyi cəmiyyətimizdə məhz gələcəyin qurucuları olan, yüksək potensiala malik gənclərimiz yetişir.

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

**Gənclər günündə, sağlamlığını Vətən yolunda qurban verənləri yada salmamaq olarmı? Minlərlə qazidən biri, tankist Taleh Musa oğlu Camalovu oxuculara tanıtmaq istədik.**

Bu, o Taleh Camalovdur ki, "Teknofest" festivalında türkiyəli jurnalist Fulya Öztürkə müsahibə verən qazi ilə görüşən dövlət başçımız onun medallarına diqqət edərək, "Gör nə qədər medalı var. "Xocavənd", "Cəbrayıl", "Füzuli", "Fərqlənməyə görə", "Xarı bülbül". Qəhrəmandır, bizim torpaqlarımızı azad edənlər bunun kimi qəhrəmanlardır."– demişdi. Prezident İlham Əliyevin səmimi münasibətinə, diqqətinə cavab olaraq Taleh o görüşdə "Sizin sayənizdə, Səlcuq Bayraqdar qardaşımızın sayəsində, onların silahlı PUA-larının sayəsində"– deyə həm dövlət başçımızın, həm də qardaş Türkiyənin Qələbənin əldə edilməsindəki əvəzsiz rolunu diqqətə çatdırmışdı.

# İstanbul "Texnofest"ində dünyaya boy göstərən qazimiz

## *Onun vurduğu tank Hərbi Qənimətlər Parkında sərgilənir*

**...Vətən müharibəsində hər iki ayağını qurban verən qazi 1999-cu ildə Salyanda doğulub. Onun söhbətinə qulaq asdıqca, müharibənin amansızlığına, erməni cəlladlarına bir daha lənət oxuyursan. Taleh Qələbəyə yönəlik həmin günləri xatırlayaraq deyir:**

– 2017-ci ilin oktyabrında həqiqi hərbi xidmətdə olanda arada komandirlərin söhbətlərindən başa düşürdük ki, keçdiyimiz təlimlər bizə lazım olacaq. Düşünürdük ki, müharibə olsa, torpaqlarımızı azad edə biləcəyik. Hər oğlan kimi uşaqlıqdan arzum idi ki, əlimə silah alım, tank sürüm, döyüşə gedim...

Sentyabrın 27-də evdən xəbərsiz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Salyan Rayon Şöbəsinə gedib könüllülər dəstəsində döyüşlərə qatıldım. Qeyd etməliyəm ki, döyüşlərdə ilk səddi yaranlar da biz olmuşuq, tankistlərdən ilk şəhid də dəstəmizdən mayor Mahir Heydərov olub.

Qələbəyə ümidimiz çox idi. Çünki Ali Baş Komandan demişdi ki, biz torpaqların işğaldan azad edilməsi üçün bu yola çıxmışıq. Müsəlman olaraq öndərimizə qiymət verməyi bacaran insanıq. O yerlərdə ki, ana bacılarımızı, dinc əhalini şəhid etmişdilər, bax, orada hər metr torpaq alındıqca ürəyimiz dağa dönürdü . Ən qürurverici görüntü tankların üstündə Azərbaycan Bayrağının dalğalanmasını, irəliləməsini görmək idi.

**Vətən müharibəsi iştirakçısı, Talehin cəbhə yoldaşı Ramin Şirinov bildirir:**

– Qarabağda hər hansı əraziyə daxil olmaq bizim üçün şərəf idi. Talehin vurduğu – düşmənə gözdağı olan tank indi Hərbi Qənimətlər Parkındadır. Gələn nəsillər, ziyarətçilər biləcək ki, bu tankı Taleh Camalov vurub. Onunla fəxr edirəm. Qürurla deyirəm ki, Qarabağın işğaldan azad olunmasında az da olsa payımız var. Çünki biz yaddaşlarda qalan şərəfli addım atmışıq. Sevinirik ki, bu gün Taleh sağdır, əzalarının bir hissəsini itirsə də aramızdadır.

**Taleh deyir ki, bütün döyüşlərdə iştirak edib, 3 dəfə yaralanıb, sağalıb döyüşə qatılıb. 4-cü dəfə, oktyabrın 27-də Xocavənddə çox ağır vəziyyətə düşüb:**

– İlk dəfə Füzulidə yaralanmışam. Əks- hücum olmuşdu. Mən rəqib tankı vuranda (həmin tank indi Hərbi Qənimətlər Parkında düşmənə göz dağıdır) məni də vurdular. Mən o tankı vurmasaydım, onların hücumu baş tutacaqdı. Komandir çağırdı, vəziyyətimi bilib dedi ki, yaralısan, tankdan düşməlisən. Dedim ki, mümkün deyil, qollarımda can verənləri necə qoyum gedim. Şəhid analarının üzünə necə baxacam ki, kantuziya almışam, qulağımdan qan gəlib, ona görə yarımçıq qayıtmışam. Mən davam edəcəyəm...

**Talehin atası Musa Camalov aramla danışır:**

– Valideynin övladı qan-qada içində olanda, necə rahat ola bilər? Gecə-gündüz Allaha dua edirdim ki, ya Rəbbim, mənim oğlumu tankda yanmaqdan qoru. Şəhid də olsa, qazi də olsa, dözərəm. Amma yanmasın. Olur ki, 10 oğuldan heç biri səni yarıtmır. Amma mənim bir oğlum var, özümü də, Vətəni də, dövləti də başı uca edib.



**Taleh sonda bildirdi ki, Xocavənddə oktyabrın 27-də tankımız vurulanda gözünü açıb hər yeri toz-duman içində görüb:**

– Tank komandirim ölümündən sonra "Qarabağ" ordeninə, Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülən Azad Hümbətov yanımda şəhid oldu. Yaralıları aparmağa iki tibb işçisi gəlmişdi. Birini ermənilərin atəşi şəhid etdi. Bizi Hadruta gətirdilər. Vəziyyətim çox ağır olduğuna görə məni Füzuli Diaqnostika Mərkəzinə göndərdilər. Gözümü açanda yenə qan içində idim. Mərkəzdə axşam saat 6-da 1-ci əməliyyata girmişəm, dan üzü saat 4-də çıxmışam. Bir də gözümü yumub açmışam ki, Bakıda Mərkəzi Hərbi Hospitaldayam. Səhər 7-də əməliyyat başlayıb, axşam saat 12-də bitib. Sonra ağrılara dözə bilməyib komaya düşmüşəm. Ayılandan sonra palataya köçürsələr də, həkimlər sağ qalacağıma ümid etməyiblər. Eşidəndə ki, ordumuz Qələbə əldə edib, ağrılarımı unutdum. Sağaldım,– bir ayağım yox, digəri İllizarov aparatında idi.

**Talehin atası söyləyir,** fəxr edirəm ki, oğlum sağdır, Vətən yolunda canını, sağlamlığını, cavanlığını qoydu. Nə qədər sağam, onun qulluğundayam, yükünü daşıyacağam...

**Ramin Şirinov isə deyir ki,** qoy gələcək nəsillər bilsin ki, bizim torpaqları yüzillər boyu işğal ediblər. Ali Baş Komandanın "dəmir yumruğu" altında ordu-xalq birliyi qələbə əldə etdi. Bütün dünyaya göstərdik ki, biz yatmamışdıq, bizim səbrimiz vardı.

**Vətən müharibəsi qazisi Taleh Camalov tez-tez "Teknofest"də dövlət başçımız və birinci xanımla görüşünü xatırlayır:** "Necə doğma hiss ilə öpdü, qucaqladı. Mehriban xanım dedi ki, mən sizin bacınızam. Allah Vətənimizi qorusun".

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# Soydaşımız Çində ekspertdir

**Azərbaycan gəncləri arasında beynəlxalq aləmdə öz sözünü deyə bilən, xalqımıza üzağlığı gətirən soydaşlarımız az deyil. Biz onların haqqında çox yazmışıq. Bu günsə Azərbaycan, Çin və ingilis dillərində mühazirələr oxuyan gənc tədqiqatçı – müəllim Sadiq Qaçayevdən söhbət açmaq istəyirik.**

Sadiq müəllimin uğur yolu ondan başlayıb ki, Bakıda – UNEC-də müəllim işləyən bu soydaşımız Çin Xalq Respublikasının dövlət qurumlarından birinə ekspert təyin edilib.

Kütləvi informasiya vasitələri yazırlar ki, Çin Xalq Respublikasındakı Pekin Pedaqoji Universitetinin magistr məzunu və hazırda Yanşan Universitetində dövlət idarəetməsi ixtisası üzrə doktorantura (Ph.D.) təhsili alan azərbaycanlı gənc tədqiqatçı Sadiq Qaçayev daha sonra böyük bir uğura da imza atıb. Belə ki, Çinin Hebey vilayətinin əsas beyin mərkəzi olan Dövlət Siyasətinin Təhlili və Tədqiqi Mərkəzi ilə Yanşan Universitetinin humanitar elmlər və hüquq məktəbinin (əvvəlki adı Dövlət İdarəetmə Məktəbi) birgə iclasında qəbul edilən qərara əsasən, Sadiq Qaçayev mərkəzin əsas ekspertlərindən biri təyin olunub. O, bu vəzifədə 5 il müddətinə çalışacaq.

Onu da əlavə edək ki, həmvətənimiz həmin tədqiqat mərkəzinə ekspert təyin olunan ilk azərbaycanlıdır.

Sadiq Qaçayev bizimlə söhbətində dedi:

– Mən Pekindəki səfirliyimizin təşkil etdiyi tədbirlərə dəvət alanda da, Azərbaycan Bayrağını Böyük Çin Səddi üzərində dəfələrlə dalğalandıranda da,



orada Azərbaycan mədəniyyətinin nümunələri nümayiş etdiriləndə də hədsiz məmnun idim. Pekindəki beynəlxalq tədbirdə çinlilərin dediyini avropalılar üçün ingiliscəyə, avropalıların fikirlərini isə Çin dilinə tərcümə edəndə isə fəxr edirdim. Ancaq gənc bir azərbaycanlı tədqiqatçı olaraq Çinin dövlət qurumlarından birinə ekspert təyin olunmağım daha çox qürurvericidir. Dünyanın superdövlətlərindən birində ölkəmizi təmsil etmək həm də çox məsuliyyətlidir. Bu fakt sübut edir ki, müstəqil Azərbaycanın gəncləri xalqımıza hələ çox uğurlar qazandıracaqlar.

*Z.BƏŞİRQIZI, "Xalq qəzeti"*

Dünya və biz

# Rubl və lirənin ucuzlaşması ölkəmizə necə təsir edir?

**Rubl dollar qarşısında, təxminən, 0,88 faiz ucuzlaşıb, dollar/rubl pariteti isə 98-ə yüksəlib. Beləliklə, dollar/rubl pariteti 2022-ci il martın 25-dən bəri ilk dəfə olaraq 95-dən yuxarı qalxıb. Bundan sonra Rusiya Mərkəzi Bankı avqustun 10-dan 2023-cü ilin sonuna qədər xarici valyuta almaqdan imtina etmək qərarına gəlib. Bununla rublun ucuzlaşması müvəqqəti dayandırılıb.**



Mərkəzi Bank bunu niyə edir və rubla necə kömək edəcək? "Freedom Finance Global"ın analitiki Vladimir Çernov deyib: "Mərkəzi Bank rublun dəyərinin kəskin ucuzlaşmasından narahatdır, çünki bütün idxal malları bahalaşır və bu da tədricən Rusiyada qiymətlərin artmasına səbəb olur. Mərkəzi Bankın əsas vəzifəsi isə inflyasiya ilə mübarizədir. Buna görə də tənzimləyici dolların 98 rubldan yuxarı qalxdığını görəndə, istehlak qiymətlərinin artım tempini sürətləndirməmək qərarına gəldi".

Mərkəzi Bankın xarici valyuta almaqdan imtina qərarından sonra rublun, həqiqətən, enişi dayandı və bir az möhkəmləndi.

Xatırladaq ki, bu ilin ilk aylarında neft və qaz gəlirləri sanksiyalar səbəbindən azaldığı üçün Rusiya büdcəsi kəsirlə üzləşmişdi. Büdcə kəsirini ödəmək üçün ehtiyatları xərcləmək lazım gəlirdi. Lakin sonrakı aylarda neftin qiyməti qalxmağa başladı. Buna görə də, Maliyyə Nazirliyi avqustun 7-dən ehtiyatları artırmaq üçün yenidən valyuta almağa başladı. Eyni zamanda, Maliyyə Nazirliyi fonddan xarici valyuta satışını davam etdirdi. Bütün valyuta alqı-satqısı əməliyyatları nəzarətdə saxlanıldı. Ona görə də, Mərkəzi Bank bunun rublun məzənnəsinə təsir etməyəcəyini hesabladı. Lakin rublun devalvasiyası tənzimləyicinin fikrini dəyişdirdi.

İndi yalnız valyutanın satışı qalır, alış isə dayandırılıb. Yəni, Rusiya ehtiyat toplayana qədər, ancaq onları xərcləyəcək. Beləliklə, xarici valyuta almaqdan imtina rublu dəstəklədi.

Ekspertlər belə müsbət təsirin uzun müddət davam edəcəyinə şübhə edirlər. Çernov deyib: "Xarici valyutanın alınmasından imtina birjada ona olan tələbi azaldtı. Bu da nəzəri olaraq onun dəyərini azaltmalıdır. Beləliklə, Mərkəzi Bank bu gün rublun ucuzlaşmasını dayandırmaq və onun bir dollar üçün 100 rubl olan mühüm psixoloji həddi keçməsinin qarşısını almaq üçün müdaxilələr edib. Ola bilsin ki, rubla daha güclü dəstək üçün növbəti addıma hazırlaşmaq üçün vaxt qazanılıb. 2023-cü ilin üçüncü rübündə dollar/rubl paritetini 93–103 rubl diapazonunda gözləyirik. Dördüncü rübdə büdcə gəlirləri və xərcləri planlaşdırılan hədəflərə cavab verərsə, rubl möhkəmlənə bilər".

Bəs rublun ucuzlaşması Azərbaycana nə kimi təsir edə bilər? İqtisadçı ekspert Pərviz Heydərov bildirib ki, dollara nisbətdə rubl yeni psixoloji həddə yaxınlaşmaqdadır. ABŞ puluna nisbətən, Rusiya valyutasının tezliklə üçrəqəmli həddədək ucuzlaşacağı da istisna deyil. Artıq Rusiyada 1 dollar almaq üçün 98 rubl ödəmək lazımdır. Son 1 ayda rubl 8 faiz çox dəyər itirib. Əsas ticarət tərəfdaşlarımızla milli valyutaların dəyərsizləşməsi manatın nominal effektiv məzənnəsini möhkəmləndirir. Bu isə qeyri-neft ixracatına təsirsiz ötüşməyə bilər.

Qonşu Rusiya kimi Türkiyənin də milli valyutası dollara nisbətən dəyər itirməkdədir. Türkiyədə lirə də yeni psixloji həddə yaxınlaşmaqdadır. Hazırda 1 dollar 27 lirə ilə dəyişdirilir. Ankaranın yeni iqtisadi siyasətinə rəğmən, milli valyutanın ucuzlaşmasının qarşısını almaq mümkün deyil. Əslində, qısa müddətli dövrdə buna nail olmağın mümkünsüzlüyü öncədən də bəlli idi. Hər iki valyutaya təzyiqlər davam edir. Türkiyədə məzənnənin, sadəcə, orta müddətli dövrdə sabitləşəcəyi gözlənilir. Sanksiyalar isə rublu sıxmaqdadır. Bu baxımdan, Rusiya iqtisadiyyatı ilə bağlı pozitiv olmayan proqnozlar da valyuta bazarına təsirsiz ötüşmür.

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib: Bu ölkələr Azərbaycanın əsas ticarət tərəfdaşlarıdır. Türkiyə Azərbaycanın ümumi ticarət dövriyyəsində və eləcə də qeyri-neft ixracatında ikinci ən böyük tərəfdaşdır.

Qonşu ölkələrin valyuta bazarlarında baş verənlərin manatın məzənnəsinə təsirlərinə gəldikdə isə, xatırlatmaq lazımdır ki, kursun müəyyənləşməsində əsas iqtisadi amillər ölkəyə daxil olan valyutanın həcmi, eyni zamanda, dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir. Amma xarici tərəfdaşlarımızda milli valyutaların məzənnələri də, əslində, iqtisadi amillərdən biridir.

Azərbaycanda hələ ki, məzənnə rejiminə keçirilməyib. Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də bu il manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq.

Nəticə etibarilə, ölkəmiz qonşu Rusiya və Türkiyənin milli valyutalarının ucuzlaşmalarının mənfi təsirlərindən etibarlı şəkildə qorunur.

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"***

# Nigerə hərbi müdaxilə olacaqmı?

**Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyinin (EKOVAS) sammiti avqustun 10-da başa çatdı. Görüşün yekununda üzv ölkələrin qərargah rəislərinə ehtiyat qüvvələrini dərhal hazır vəziyyətə gətirmək barədə tapşırıq verildi. EKOVAS ölkələri, həmçinin Nigerdəki böhranın həlli üçün bütün variantları nəzərdən keçirməyə davam etdiklərini də təsdiqlədilər. Yekun kommünikedə vurğulanır ki, "Nigerdə konstitusiya quruluşunun bərpası üçün bütün variantlar masadadır". Bu o deməkdirmi ki, Nigerə hərbi müdaxilə olacaq?**

EKOVAS sammiti Nigeriyanın paytaxtı Abucada keçirildi. Qeyd etmək yerinə düşər ki, Nigeriya ilə Niger arasında sərhədin uzunluğu təxminən min kilometrdir. On beş ölkənin üzv olduğu EKOVAS-da hərbi çevrilişlər baş verəndən sonra Burkino-Fasonun, Malinin və Qvineyanın üzvlüyünün dayandırıldığı vurğulanır. İyulun 30-da Nigerdəki vəziyyətlə bağlı keçirilən ilk sammitdə EKOVAS liderləri Nigerdəki qiyamçılara qarşı sanksiyalar



tətbiq etmək qərarına gəldilər: ölkələr Nigerlə sərhədlərin bağlandığını və hava nəqliyyatına qadağa qoyulduğunu elan etdilər. Bundan başqa, Nigerlə bütün maliyyə əməliyyatları dayandırıldı. Eyni zamanda, birlik 2021-ci ildə seçilən və 26 iyul çevrilişi nəticəsində hakimiyyətdən kənarlaşdırılan prezident Məhəmməd Bazumun hakimiyyətini bərpa etmək üçün hərbi müdaxilə ilə hədələdi. Ancaq qiyamçılar ultimatumu yerinə yetirmədilər.

Avqustun 8-də icma nümayəndələrindən ibarət heyət Nigerin paytaxtına gəlmək istəsələr də, qiyamçı hərbçilər son anda onları qəbul edə bilməyəcəklərini bildirdilər. Amma avqustun 7-də qiyamçılar ABŞ dövlət katibinin müavini Viktoriya Nulandla görüşməyə razılıq vermişdilər. Xanım Nuland Niger paytaxtında qiyamçıların nümayəndəsi general Mussa Salau Barmo və üç polkovniklə görüşdü. İki saatdan çox "son dərəcə səmimi və bəzən çətin" söhbətlər keçirdiyini və bunu telefonla jurnalistlərə söyləyən ABŞ dövlət katibinin müavini dedi ki, "Biz onlara söhbəti davam etdirmək üçün bir neçə variant təqdim etdik və ümid edirik ki, işdə bizə dəstək olacaqlar". Maraqlıdır ki, xanım Nulandın danışıqlar apardığı Mussa Salau Barmonun uzun illər ABŞ ordusu ilə əməkdaşlıq etdiyi, okeanın o tayında təlim keçdiyi məlumdur.

Avropa İttifaqı EKOVAS-ın mövqeyini tamamilə bölüşür. Xatırladaq ki, Brüssel çevrilişini dərhal pislədi və qiyamçıları tanımadığını və tanımayacağını da bildirdi. Aİ Nigerə qarşı sanksiyalar tətbiq etməyə tələsmir, ancaq təhlükəsizlik sahəsində əməkdaşlığı və onun maliyyə dəstəyini (2021-ci ildən 2024-cü ilə qədər 554 milyon dollar) dondurdu. Bununla belə, "Reuters"in mənbəyə istinadən verdiyi məlumata görə, Aİ ölkələri "xunta üzvlərinə qarşı ilk sanksiyaların tətbiqi üçün zəmin yaradırlar". Bu məsələdə xüsusilə də Fransa canfəşanlıq edir. Paris Nigerlə bağlı siyasətini EKOVAS-ın qərarları ilə uzlaşdırır.

Bəs Nigerə hərbi müdaxilə niyə lengiyir? Axı EKOVAS buna qədər üzv ölkələrə hərbi müdaxiləyə yol vermişdi. Məsələn, birliyin 1990-cı ildən bəri yeddi hərbi müdaxilə həyata keçirdiyi məlumdur: Liberiya, Sierra Leone, Qvine-ya-Bisau, Kot-d'İvuar, Mali və Qambiya. Əməliyyatların məqsədləri də fərqlənirdi - seçilmiş liderlərin hakimiyyətə bərpası, islamçılara qarşı mübarizə və vətəndaş barışığını təşviq etmək. 1997-ci ildə Syerra-Leonedə qanuni prezident Əhməd Tejan Kabbahın devrilməsi zamanı EKOVAS hadisələrə müdaxilə etmişdi. Birliyin köməyi ilə Syerra-Leone prezidenti hakimiyyətə qayıtmışdı. Bütün bu hərbi müdaxilələri ona görə həyata keçirmək mümkün olmuşdu ki, birlik üzvləri arasında yekdil mövqe sərgilənmişdi. Ancaq hazırda EKOVAS-da Nigerlə bağlı vahid mövqe yoxdur. Təşkilatda üzvlükləri dondurulmuş Burkina-Faso, Mali və Qvineya Nigerə hərbi müdaxilə olacağı təqdirdə, qiyamçı hərbçilərə yardım edəcəklərini bildirirlər. Nigerlə həmsərhəd olan Əlcəzair də hərbi müdaxiləyə qarşıdır.

Nigeriyada da müdaxilə məsələsində birlik yoxdur. Parlament müdaxiləyə qarşıdır. Yerli ekspertlər də hərbi müdaxilə ideyasını dəstəkləmirlər. Nigeriya mütəxəssisləri vurğulayırlar ki, Nigerə hərbi müdaxilə hərbi və maliyyə itkilərinə səbəb olacaq. Belə deməyə ciddi əsaslar da var. Məsələ ondadır ki, Niger silahlı qüvvələri döyüş təcrübəsinə malikdir və nisbətən yaxşı hazırlıqlıdırlar və bu prosesdə Fransa, İtaliya və ABŞ hərbçiləri də yaxından iştirak ediblər. Nigerin hətta ABŞ hərbçiləri ilə birgə əməliyyatlar keçirdiyi də məlumdur. Bununla belə, Niger bölmələrinin yaxşı təchiz olunmadığı və kifayət qədər zəruri resurslara malik olmadığı bildirilir. "The Military Balance"ın məlumatına görə, 26,2 milyon əhalisi olan Niger silahlı qüvvələrinin şəxsi heyəti 33,1 min nəfərdir. Niger hökumətinin ixtiyarında 24,5 min jandarma və yarımhərbi birləşmələr də var.

"The Wall Street Journal" qəzetinin yazdığına görə, qiyamçıların prezident Bazumun iqamətgahını mühasirəyə almasından altı həftədən az müddət əvvəl amerikalı hərbçilər xanım Nulandın görüşdüyü general Barmanın paytaxtda yerləşən Niamey Hava Bazasında ABŞ Ordusu Xüsusi Əməliyyatlar Komandanlığı komandanı general-leytenant Conatan Braqani gülümsəyərək qucaqladığı əks olunan fotosunu paylaşmışdılar. Qəzetin istinad etdiyi generalın sözlərinə görə, 2021-ci ildə general Barma Niameydəki evində fransız zabitlərini deyil, amerikalı və ingilisləri dəvət edərək Yeni il şənliyi təşkil etmişdi. Niger generalı Fransanın yerli komandirlərə məsləhətləşmədən silahlı qruplara qarşı hərbi əməliyyatlar aparmasından narazıdır. Buna görə də, qiyamçıların Fransanın hər hansı vasitəçiliyinə razılıq verməyəcəyi şübhə doğurmur.

***Səbuhi MƏMMƏDOV, "Xalq qəzeti"***

**Ümumdünya Səhiyyə Təşkilatı dünya miqyasında COVID-19 dalğasının hələ də davam etməsini– yoluxma hadisələrinin sayının artmasına görə virusun "Eris" ştammını yeni variant kimi elan edib. Omikronun alt variantı ilə əlaqəli olan EG.5 ştammının sağlamlıq riski hazırda qiymətləndirilir. Qurumun rəsmiləri bu ştammın böyük infeksiya dalğasına səbəb ola biləcəyini istisna etmirlər.**

# Koronavirusun yeni ştammı – Eris gəlir...

## Vaksinasiya isə davam etməlidir

Qeyd edək ki, ÜST- nın Beynəlxalq Səhiyyə Qaydaları üzrə Fövqəladə Hallar Komitəsinin koronavirusla bağlı 15-ci iclasında pandemiya ilə əlaqədar cari vəziyyət müzakirə edilib. 2023-cü il may ayının 5-də keçirilən həmin toplantıda bildirilib ki, ÜST-nın Baş direktoru Tedros Adhanom Qebreyesus koronavirus pandemiyasının artıq ictimai səhiyyədə beynəlxalq fövqəladə hal olmadığını təsdiq edib. Bu, o demək fikrini də irəli sürüb. Ümumiyyətlə isə pandemiyanın başlandığı vaxtdan 20 milyon insanın vəfat etdiyini bildirib. Azərbaycanda avqust ayında ötən həftə koronavirus infeksiyasına 15 yoluxma faktı qeydə alınıb, 17 nəfər müalicə olunaraq sağalıb, 3 nəfər vəfat edib. İndiyədək ölkədə, ümumilikdə, 832 min 36 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyənləşdirilib, onlardan 821 min 731 nəfər müalicə olunaraq sağalıb, 10 min 293 nəfər vəfat edib. Hazırda 12 nəfər xəstə müalicə alır.



idi ki, ölkələr xüsusi karantin rejimindən COVID-19-un digər yoluxucu xəstəliklərlə birlikdə idarə olunduğu sabit mərhələyə keçə bilərlər.

T. A. Qebreyesus, eyni zamanda, bildirib ki, bu qərar COVID-19-un qlobal sağlamlıq təhlükəsi olaraq sona çatması demək deyil. Virus hələ də bizimlədir, yoluxma hallarının və ölümlərin artmasına səbəb ola biləcək yeni ştammların yaranma riski qalmaqda davam edir.

Həmin vaxt təşkilatın ölkələrə müraciətində bildirilirdi ki, insanlar sağlamlıqlarını qorumamaq, virusa yoluxmamaq üçün gigiyena tədbirlərinə əməl etməlidirlər. Zaman keçdikcə, yeni yaranan ştammlar bir-birini əvəz etdikcə, yoluxma hallarındakı say artımı, hətta ölüm faktları dünyada olduğu kimi Azərbaycanda da müşahidə edildi. Ürək problemlərinin, infarktların, təzyiq, əsəb və digər xəstəliklərin son illərdə artmasını tibb mütəxəssisləri məhz koronavirusun fəsadları ilə əlaqələndirirlər.

ÜST-nın yeni məlumatına görə, koronavirusun EG.5 variantının təsiri altına düşən ölkələr arasında Böyük Britaniya, Çin və ABŞ var, getdikcə xəstəlik bütün dünyada genişlənməkdədir. Bununla belə, ÜST bu variantın indiyədək çox da təhlükə yaratmadığı

Təşkilatın rəsmiləri bildirib ki, mövcud sübutlara əsasən, EG.5-in yaratdığı ictimai sağlamlıq riski qlobal miqyasda aşağı səviyyədə qiymətləndirilir. "Eris"in yayılması və böyümə üstünlüyünə baxmayaraq, bu günə qədər xəstəliyin şiddətində heç bir dəyişiklik aşkarlanmayıb.

London Universiteti Kollecinin professoru Christina Pagel bu variantın daha ağır bir xəstəliyə səbəb olduğuna dair bir dəlil olmadığını vurğulayır. Onun sözlərinə görə, bu virus yalnız xəstəxanaya yerləşdirmə sayının artmasına və ya uzun müddət davam edən koronavirusa səbəb ola bilər. Ancaq bu ştammın çox yayılacağı təqdirdə belə, əvvəlki dalğalardan daha təhlükəli olacağını düşünmək üçün heç bir səbəb yoxdur.

Bu məsələ ilə məşğul olan digər mütəxəssislər də qeyd ediblər ki, hələ də peyvəndlərin qəbulu arzuolunandır və vaksinasiya prosesi davam etməlidir. Çünki peyvənd COVID–19 dalğalarına qarşı ən yaxşı müdafiəmiz olaraq qalır.

***Z. BƏŞİRQIZI, "Xalq qəzeti"***

# İnsan "Atira" asteroidində məskən salacaq

**"ScienceAlert"in verdiyi xəbərə görə, "Rockwell Collins" aerokosmik şirkətinin hazırda təqaüddə olan mühəndisi David Jensen maraqlı layihə ilə gündəmə gəlib. O, asteroid üzərində yeni kosmik stansiyanın və eyni zamanda insanlar üçün koloniya tikilməsi planını təkif edib.**



Mütəxəssis tərəfindən hazırlanmış 65 səhifəlik sənədə əsasən, asteroidi ölçüsünə, Yer kürəsinə nə dərəcədə yaxın olmasına və kimyəvi tərkibinə görə seçmək lazımdır. Jensenin fikrincə, bunun üçün ən uyğun obyekt 2003-cü ildə kəşf edilmiş "Atira" asteroididir.

"Atira" 4.8 kilometr diametrə malikdir və onun hətta öz peyki də mövcuddur. Asteroid Günəş sistemində yaşayış zonası (kosmik obyektin səthində suyun maye şəklində mövcud olmasına şərait yaradan kosmik zona) üzrə dövr edir və planetimizdən 1.8 AV (astronomik vahid / 1 AV = 149 597 870 km) məsafədə yerləşir.

Layihədə qeyd edilib ki, asteroiddə insanlar üçün nəzərdə tutulmuş koloniya "kökə" formasında inşa edilməlidir. Birincisi, toroid forma asteroiddə süni cazibə qüvvəsini yaratmaq üçün daha əlverişlidir. İkincisi, bu cür koloniyanın radiasiyadan və mikroölçülü meteoritlərdən qorunması üçün o qədər də çox tikinti materialı sərf olunmayacaq. Üçüncüsü isə, belə stansiyada daha çox yaşayış zonası salmaq mümkün olacaq.

David Jensen tikinti materialı kimi sutələyici şüşədən istifadəni təklif edir. Koloniyanın inşasında robotlardan istifadə olunacaq. Yer kürəsindən "Atira"ya yalnız lazımi təchizat göndəriləcək. Yerdə qalan bütün xammal isə asteroiddən əldə ediləcək. Lakin stansiyadakı bir neçə robotun və lazımi təchizatın ibarət yükün minimal kütləsi 8,6 ton ola bilər. Qeyd edək ki, hazırda müasir dövrümüzdə heç bir raket bu qədər yükü bir dəfəyə kosmik obyektə çatdıra bilməz. Lakin 2-3 ildən sonra "SpaceX" şirkətinin "Starship + Super Heavy" sistemi bu gücdə ola biləcək.

Mütəxəssisin hesablamalarına görə, layihə 4,1 milyard dollara başa gələcək. Bu, NASA-nın Aydakı bazaya sərf edəcəyi vəsaitdən (93 milyard dollar) çox azdır. Asteroiddə bu cür koloniyanın inşası 12 ilə yekunlaşa bilər.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 170 (30286) 12 avqust 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Beynəlxalq turnirdə 2 qızıl medal



**Kayak və kanoe üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandamız Rusiyanın Barnaul şəhərində SSRİ İdman ustası Konstantin Kostenkonun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə 2 qızıl medal qazanıb.**

Bu barədə "Xalq qəzeti"nə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından məlumat verilib.

Belə ki, 1 nəfərlik kayak qayığında on beş yaşadək idmançılar arasında 1000 metr məsafəyə yarışda Əlimurad Hacızadə bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Eyni yaş kateqoriyasında iki nəfərlik kayak qayığında 500 metr məsafəyə mübarizədə isə Əlimurad Hacızadə və Vacib Babayev dueti birinci yeri tutub.

## Nicat Abasov növbəti mərhələdə

**Azərbaycan təmsilçisi Nicat Abasov Bakıda şahmat üzrə dünya kubokunda 1\16 final mərhələsində tay-brekdən qalib ayrılıb.**



Təmsilçimiz FIDE adından çıxış edən Pyotr Svidlerlə dueldən qalib ayrılmaqla karyerasında ilk dəfə dünya kubokunun 1\8 final mərhələsinə vəsiqə qazanıb.

Nicat Abasovla Pyotr Svidler arasında ilk rapid oyunu bərabərliklə yekunlaşıb. İkinci rapid mübarizəsinin mittelşpilində mürəkkəb vəziyyət yaranıb. Nicat rəqibin piyadasını götürərək P.Svidlerin təşəbbüsünün qarşısını alıb. Sonda təmsilçimiz gözlənilməz taktiki gedişlə ağların məğlubiyyətini rəsmiləşdirib.

Qeyd edək ki, dünya kubokunda 1\8 final mərhələsinin ilk oyunları bu gün keçiriləcək. Nicat Abasovun rəqibi BƏƏ təmsilçisi Saleh Salem olacaq.

## II MDB Oyunlarında gümüş medal

**Minskdə II MDB Oyunlarında Azərbaycan komandasının çıxışı davam edir.**

Gənclər və İdman Nazirliyindən "Xalq qəzeti"nə bildirilib ki, boks yarışlarında təmsilçimiz Aynur Mikayılova (54 kq) final döyüşünə çıxsa da, özbəkistanlı rəqibinə məğlub olaraq ikinci olub.

Muay-tayçılarımızdan isə Xəyal Əliyev (60 kq) bütün rəqiblərini məğlub edərək finala yüksəlib.

Bununla da, komandamızın yarışda qazandığı medalların sayı 38-ə çatıb. Bu nəticə ilə yığmamız 4-cü sıradadır. Turnir cədvəlinə Rusiya 202 medalla liderlik edir.

*Leyla SABİRQIZI,*
*"Xalq qəzeti"*

Texnologiya yenilikləri



## 24 GB RAM yaddaşı

**Bir müddət bundan öncə belə bir məlumat yayılmışdı ki, OnePlus şirkəti 16 avqust tarixində təqdim edəcəyi "OnePlus Ace 2 Pro" smartfonunda maksimal RAM yaddaşının həcmini 24 GB-a yüksəldəcək.**

Qlobal KİV xəbər verir ki, müəyyən müddət ərzində bu məlumatın doğruluğuna hətta məşhur insayderlər də şübhə etmirdilər. İndi isə həmin məlumat şirkət tərəfindən rəsmi şəkildə təsdiqlənib.

Şirkət rəsmisi qeyd edib ki, təmsil etdiyi qurum yeni smartfon dövrünə qədəm qoyur. Bundan sonra flaqman smartfonlarda 24 GB RAM istifadə ediləcək. 16 GB-lıq RAM göstəricisi isə artıq tarixə qovuşacaq.

Mənbə əlavə edib ki, "OnePlus Ace 2 Pro" smartfonunun LPDDR5X standartlı 24 GB RAM-a və UFS 4.0 standartlı 1 TB-lıq daxili yaddaşı olacaq.

*Aytən NƏCƏFOVA,*
*"Xalq qəzeti"*

## Soydaşımızın təyyarədə xilaskarlığı

**II MDB Oyunları üçün Belarusa yola düşən muaytay üzrə Azərbaycan milli komandasının həkimi Dilbər Səfərova "Belaviya" hava gəmisində halı pisləşən balaca belarusluya ilkin tibbi yardım göstərərək onun həyatını xilas edib.**



Sərnişinlər arasında yeganə tibb işçisi olan Dilbər Səfərova tibbi yardımdan sonra uşağın vəziyyətinin stabil olduğunu bildirib: "Qıc olmuş körpəni tutdum və ilkin tibbi yardım göstərdim, hərarətini salmaq üçün ona iynə vurdum".

Azərbaycanlı həkim məcburi eniş edən təyyarədən uşağı endirərək onları gözləyən təcili tibbi yardım əməkdaşlarına təhvil verdikdən sonra təyyarəyə - komandasının yanına qayıdıb.

*"Xalq qəzeti"*

Sosial şəbəkələrdən seçmələr

## Elm ruhun gözünü açır

**Elmin bəşəriyyətin inkişaf və tərəqqisində əvəzsiz rolu barədə çox deyilib və yazılıb. Dünən "Facebook"da dostluğumda olan filologiya elmləri üzrə fəlsəfə doktoru Aynur Familqızının bu mövzuda özəl düşüncələri diqqətimi cəlb etdi:**



Elə bir dünya istəyirəm ki, orda əlin qələm tutursa, söz əhlisənsə, sülhdən yazasan! Yox əgər fırça əhlisənsə insanlığın rəngini eşqlə, saf və təmiz məhəbbətlə boyayasan! Düşünüb musiqiyə üstünlük verirsənsə, mərifətlə, ustalıqla duyğulu notları çalsın barmaqların.

Və "elmdən başqası yox", - deyəcək qədər aydınsansa, yol ver işığa – dünya nura boyansın, könüllər, düşüncələr aydınlansın, insanlıq kamilləşsin.

Qədim yunan filosofu Platonun təbirincə desək, "elm insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür".

Bir də ki elmin qanadlarında uçan aydınlarımızın - əsl alimlərimizin dəyərini bilək, qoruyaq. Qılıncın kəskinliyindən daha çox elmin, ağlın kəskinliyi insanı qəhrəman edir.

***Təqdim etdi:***
***M.HACIXANLI, "Xalq qəzeti"***

Maraq dünyamız

## Qaranlıq maddə – kainatın mənbəyi

**Alimlər müxtəlif növ qaranlıq maddə ilə kainatlar yaratmaq üçün kompüter simulyasiyalarına müraciət edirlər. Bu tədqiqatın əsas məqsədi bu simulyasiya edilmiş kainatlarda qravitasiya dalğalarının necə əmələ gəldiyini öyrənməkdir.**



Tədqiqat göstərib ki, qara dəliklərin birləşməsi hadisələrinin sayı qaranlıq maddənin digər hissəciklərlə qarşılıqlı əlaqədə olub-olmaması və nədən ibarət olduğu sualına cavab verə bilər.

Qaranlıq maddə kainatımızın ən böyük sirlərindən biridir. Bütün maddələrin, təxminən, 85 faizini təşkil etməsinə baxmayaraq, alimlər hələ də onun təbiəti haqqında çox az şey bilirlər.

Onun xüsusiyyətlərini yoxlamağın bir yolu qalaktikaların onun halolarında necə əmələ gəldiyini öyrənməkdir. Qaranlıq maddə neytrino kimi hissəciklərlə qarşılıqlı əlaqədə olursa, bu, yaranan qalaktikaların sayına təsir edə bilər.

Lakin bu cür qalaktikaların birbaşa tədqiqi onların uzaqlığına görə çətindir. Buna görə də alimlər onların mövcudluğunu dolayı yolla təsdiqləmək üçün qravitasiya dalğalarından istifadə etməyi təklif ediblər.

*"Xalq qəzeti"*

## İnsan kimi dişləri olan köpəkbalığı

**Avstraliyalı alimlər insanabənzər azı dişləri olan yeni köpəkbalığı növü aşkar ediblər.**



"Heterodontus marshallae" adlanan zolaqlı buynuzlu köpəkbalığı növünə yalnız Avstraliyanın şimal-qərbindəki sularda, təxminən, 125–230 metr dərinliklərdə rast gəlinir. Bu növün çoxlu sıra dişləri var ki, bu da onlara molyuskaları və xərçəngkimiləri yeməyə imkan verir.

Qeyd edək ki, bundan əvvəl Avstraliyanın Cənubi Uels sahillərində qabarıq gözləri və insanabənzər təbəssümü olan qəribə köpəkbalığı tutulmuşdu.

Sağlamlıq

## Qan şəkəri nəzarətsiz qalanda...

***Diabet insanın qan şəkərinin təhlükəli dərəcədə yüksəldiyi vəziyyətdir. Bu xəstəlik bəzi hallarda diabetik neyropatiyaya keçə bilər. Endokrinoloq Antonina Quryevanın sözlərinə görə, diabetik sensor neyropatiya bədənin periferik nahiyələrində, məsələn, əllər, qollar, ayaqlarda hissiyyatın pozulmasıdır.***



Diabetli insanların 50 faizində xəstəlik irəlilədikcə, neyropatik simptomlar inkişaf edə bilər. Əllərdə, qollarda, barmaqlarda və ya ayaqlarda olan əlamətlərə diqqət yetirmək lazımdır. Bu simptomlar olan zaman qıcıqlanma və uyuşma, ağrı hissinin azalması, temperatur həssaslığının itirilməsi, ayaqlarda, qollarda və ya əzalarda ağrı, əzələlərdə və oynaqlarda zəiflik baş verir.

Bu əlamətlər əvvəlcə qollarda və ayaqlarda hiss olunur, lakin sonra proksimal irəliləyir, ayaqlara, topuqlara və biləklərə təsir edir.

Diabet xəstələrdə ayaq xoralarının inkişaf riski yüksəkdir. Zamanla bu, osteomielit, qanqren və sepsisin yaranmasına və nəticədə, aşağı ətrafların amputasiyasına qədər gətirib çıxara bilər.

Endokrinoloqların fikrincə, qanda şəkərin miqdarı ildə 2 dəfə yoxlanmalıdır.

*Z. HÜSEYNLİ,*
*"Xalq qəzeti"*

Proqnoz

## Hava çox isti olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən avqustun 12-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 24-28°, gündüz 37-40°, bəzi yerlərdə 41-42° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 30-40 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yüksək dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var.

Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28°, gündüz 35-40°, bəzi yerlərdə 42-44° isti, dağlarda gecə 16-21°, gündüz 29-34° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## Nadirlik, qəribəlik, fərqlilik



1. Təyyarədə uçarkən saçlarımız 2 dəfə sürətlə uzanır.
2. Mavi gözlü insanlar ağrıya daha çox həssas olurlar.
3. Koka-Kolanı rəngləməsələr, yaşıl olardı.
4. "Titanik" filmi "Titanik" gəmisindən daha baha başa gəlib.
5. Limonda çiyələkdəkindən daha çox şəkər var.
6. Uşaqlar yazda daha sürətlə böyüyürlər.
7. Köpək balığı başıaşağı üzsə komaya düşər.
8. "Okey" dünyada ən məşhur sözdür.
9. İngiltərə kitabxanalarından ən çox "Ginnesin rekordlar kitabı" oğurlanır.
10. Sahara səhrasında bircə dəfə –18 fevral 1979-cu ildə qar yağıb.
11. Venera Günəş sistemində saat əqrəbinin əksinə fırlanan yeganə planetdir.
12. Hər il ABŞ sakinləri 18 hektarlıq pizza yeyirlər.
13. Burun insanın həyatı boyu böyüyən yeganə orqanıdır.

***F. SALMANOVA, "Xalq qəzeti"***

✓ 2009-cu il iyulun 21-də Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Pirmuradova Zöhrə Oqtay qızının adına verilmiş sığorta agenti fəaliyyəti üçün 000206 nömrəli lisenziya itdiyinə görə etibarsız sayılır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4862
SİFARİŞ 1943
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00